# AİLƏ QADIN UŞAQ

mart-avqust 2014 № 14

*"10 il ərzində görülən işlərin sayı çoxdur. Əldə edilən nəticələr də çox gözəldir. Bizim Fondun əməkdaşlarını birəşdirən amillər çox sadədir. Bu, vətənpərvərlik, mərhəmət, insansevərlik, doğma xalqımıza və ölkəmizə xidmət etməkdir"...*

***Mehriban Əliyeva***

























**Təsisçi:**

Azərbaycan Respublikası
Ailə, Qadın və Uşaq
Problemləri üzrə
Dövlət Komitəsi

**Baş redaktor:**

**Hicran Hüseynova**
Siyasi elmlər doktoru,
professor

Jurnal Azərbaycan
Respublikası Ədliyyə
Nazirliyində
qeydiyyata alınmışdır
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:

AZ 1000, Bakı şəhəri,
Ü.Hacıbəyli küçəsi
80, Hökümət Evi,
IV alaqapı

Tel: (+994 12) 498 80 93
www.scfwca.gov.az
e-mail: office@scfwca.gov.az

**Nəşriyyatın ünvanı:**

“Letterpress” Nəşriyyat Evi
Bakı şəh., A.Naxçivani, 174

Tel.: (+994 12) 561 30 03
Fax: (+994 12) 561 30 06
e-mail: office@letterpress.az

# MÜNDƏRİCAT

**Baş redaktordan** ............ 3

**Anım**

Heydər Əliyev – 91 il ............ 4

Zərifə Əliyeva – 91 il ............ 7

**Şərəfli yol**

Heydər Əliyev Fondu – 10 il ............ 9

**Təqdimat**

Mehriban Əliyeva – Tərəqqi və yüksəliş yolları ilə ............ 13

**SPECA**

Qadınların sahibkarlıq fəaliyyətinin inkişafı üzrə beynəlxalq konfrans ............ 15

**Görüşlər, səfərlər**

Milli Məclisdə “Dayaq” mentorluq proqramı çərçivəsində tədbir ............ 17

Azərbaycan və Macarıstan qadınları arasında əməkdaşlıq görüşü ............ 17

Almaniyanın Berlin şəhərində Almaniya beynəlxalq əməkdaşlıq cəmiyyətinin (GİZ) təşkilatçılığı ilə Cənubi Qafqaz hüquqşünaslarının 3-cü regional konfransı ............ 17

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ATƏT-in nümayəndə heyəti ilə görüş keçirilmişdir ............ 17

Rusiya Federasiyası Prezidenti yanında olan Uşaq hüquqları üzrə müvəkkil cənab Pavel Astaxovla görüş ............ 18

BMT-nin Uşaq hüquqları Konvensiyasının qəbul edilməsinin 25 illiyinə həsr edilmiş “Cismani cəzasız uşaqlıq-siyasət və qanunvericilikdə dəyişiklik” mövzusunda konfrans ............ 18

Fransa Respublikasının paytaxtı Parisdə Ümumdünya Qadın Sammiti ............ 18

“Münaqişələr zamanı cinsi zorakılığa son qoyulması” mövzusunda qlobal sammit ............ 19

Avstriyanın Vyana şəhərində ATƏT-in “Gender bərabərliyinə nəzər” mövzusu üzrə beynəlxalq konfrans ............ 97

**Komitə xəbərləri**

“Ailə, məktəb və cəmiyyət” layihəsi çərçivəsində tədbirlər ............ 20

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və “YARAT” qeyri-kommersiya təşkilatının birgə layihəsi ............ 20

1 iyun – Uşaqların Beynəlxalq müdafiəsi gününə həsr edilmiş “İstedadlı uşaqlar festivalı – 2014” ............ 20

“Bizi qoruyun” adı altında flaşmob ............ 21

Ombudsmanların XII Bakı beynəlxalq konfransı ............ 21

KİV nümayəndələri üçün “Ailə dəyərlərinin KİV-də işıqlandırılması” mövzusunda təlim keçirilmişdir ............ 21

İqtisadi təşəbbüslərə yardım ictimai birliyi tərəfindən ölkənin regionlarını təmsil edən vətəndaş cəmiyyəti üzvləri üçün təlim ............ 22

Görkəmli oftalmoloq, alim Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə “Qələbəyə doğru” intelektual bilik oyunu ............ 22

“Yaşlı nəslin təcrübəsindən faydalanaq” adlı layihənin yekun konfransı keçirilmişdir ............ 22

“Gender bərabərliyi, qadın hüquqları və məişət zorakılığı” mövzusunda təlim ............ 23

Uşaq və ailələrə dəstək mərkəzlərinin sosial işçiləri üçün təlim ............ 23

Uşaq əməyi ilə bağlı növbəti regional tədbir Gəncə şəhərində keçirilmişdir ............ 23

İsmayıllı rayonunda “Öyrən, idarə et lider ol” mövzusunda təlim ............ 23

Region qadınlarının ictimai-siyasi fəallığının daha da artırılması istiqamətində iş aparılır ............ 24

“Yaşlı nəslin təcrübəsindən faydalanaq” adlı layihəsinin davamı ............ 24

“Sağlam ailə, sağlam gələcəyin təminatıdır” ............ 24

**Komitə xəbərləri**

Gəncə, Salyan, Göyçay, Goranboy, Yevlax, Şəki və Siyəzən rayonlarında vətəndaşların qəbulunu keçirmişdir ............ 25

“Azərbaycan ailəsi” film festivalı ............ 26

“Ailə bayramı” 2014 ............ 27

**Yubileylər, təbriklər** ............ 28

**Ədəbi salnamə**

Rəhilə Terequlova (Hacıbababəyova) ............ 32

**Hüquq məsləhətxanası**

Ölkələrarası övladlığa götürmə. Hər bir uşağın ailə mühitində yaşamaq haqqı vardır ............ 33

**Təqdimat**

“Family Futures” jurnalında Azərbaycan ailəsi modeli ............ 34

**Tədqiqat**

Müasir dövrün aktual problemi: intihar ............ 35

**Qadın məsləhətxanası**

Hamilə qadınlar ............ 38

**Qadın dünyası**

Çayla gözəlliyinizi təzəliyin ............ 40

Üz üçün yay maskaları ............ 40

Dəniz suyunun fantastik faydaları ............ 41

Arıqladan 7 qida – siyahı ............ 41

**Uşaq aləmi** ............ 42

**Kulinariya** ............ 44

**Poeziya güşəsi** ............ 46

**Asudə vaxt** ............ 47

Əziz oxucular! Sizlərlə növbəti görüşümüz çox əlamətdar bir tarixə təsadüf edir. Biz bu yaxında, zaman nöqteyi-nəzərindən çox qısa hesab ediləcək bir müddət ərzində çox böyük, çoxşaxəli və genişmiqyaslı layihələr həyata keçirən, Heydər Əliyev Fondunun 10 illiyini qeyd etdik.

Azərbaycan xalqının milli-əxlaqi dəyərləri, onun malik olduğu mədəniyyətin müsbət cəhətləri çoxdur.

Bu müsbət cəhətlərdən biri qadınlarımızın hələ qədimdən ehtiram qazanmaq bacarığı, öz sözünü deyə bilməsi və nəinki öz ailələrinin, həm də cəmiyyətin quruculuq işlərində kişilərlə bərabər iştirak etməsidir.

Dövlətçiliyimizin, müstəqilliyimizin və gələcəyimizin dayağı olan Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, milli irsini, mədəniyyətini, elmini həmişə yüksək səviyyədə təmsil etmişlər. Bu baxımdan, müasir dövrdə ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban Əliyeva özünün həm ictimai fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına nümunə olmuşdur.

Ölkə həyatındakı müsbət dəyişikliklərdə Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolunu xüsusilə qeyd etmək lazımdır. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliğ edilməsi kimi bir vəzifəni qarşısına məqsəd qoyan Fond, eyni zamanda, milli-mənəvi dəyərlərin qorunması, qadın və uşaq hüquqlarının müdafiəsi, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və s. sahələrdə maraqlı layihələr həyata keçirir. On illik fəaliyyəti dövründə bu qurum, gördüyü işlərin çoxşaxəliliyinə və miqyasına görə, nəinki Azərbaycanda və ölkəmizə yaxın olan dövlətlərdə, hətta vətənimizdən çox-çox uzaqlarda yerləşən, həm dini və dili ilə, həm də digər amillərlə bizdən fərqlənən xarici ölkələrdə də yüksək nüfuz qazanmışdır. Elə bu yaxınlarda cəmiyyət qarşısında verilən 10 illik yubiley hesabatı da həmin gərgin və şərəfli əməyin nəticəsidir.

Millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ailələrin rifahına yönəlmiş maraqlı layihələr reallaşır. "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi ölkədə böyük əks-səda doğurmuşdur. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında Qanun" 2010-cu ildə qəbul olunmuşdur. Həmin Qanunun qəbul



edilməsinə, Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik edilməsinə Mehriban xanımın yaxından dəstəyi olmuşdur.

Bunun nəticəsi olaraq, erkən nikahlar və məişət zorakılığı ilə bağlı cinayətlərin sayı azalmaqdadır. Jurnalımızın bu sayında Fondun və onun prezidenti Mehriban xanım Əliyevanın ailə, qadın və uşaq məsələlərinə həsr olunan fəaliyyətindən bəhs olunur.

Hörmətli oxucular,
Hər dəfə olduğu kimi, jurnalın bu sayında da ailə, qadın və uşaq istiqamətlərində dövlət siyasətinin həyata keçirilməsi sahəsində aparılan işlər barəsində müxtəlif məlumatlarla tanış olacaqsınız. Bundan əlavə, jurnalın səhifələrində oxucuları, qadın dünyası, uşaq aləmi ilə tanışlıq, hüquqi məsləhətlər və digər maraqlı yazılar gözləyir.

Əziz oxucular!
Hamınıza can sağlığı, fəaliyyətinizdə uğurlar, xoşbəxlik və ailə səadəti arzulayıram!

**HİCRAN HÜSEYNOVA**
Siyasi elmlər doktoru, professor



# 91 il

# HEYDƏR ƏLİYEV

Bu il Azərbaycan xalqının böyük oğlu, tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin anadan olmasından 91 il ötür. O, bu ömrü şərəf və ləyaqətlə yaşamış, Vətəninə, xalqına sədaqətlə xidmət etmişdir. Ulu Öndər Heydər Əliyevin ictimai və siyasi fəaliyyətini araşdıran hər kəs, onun necə qüdrətli, hərtərəfli şəxsiyyət olduğunun şahidinə çevrilir.

Müxtəlif peşəli, geniş dünyagörüşlü insanların, həm də əsl ailə həyatını təcəssüm etdirməsi bu gün də gənclərə nümunədir. Belə insanların məhşur ailələrin üzvləri olması isə onların həyatlarının, bir-birinə və övladlarına olan münasibətlərinin hər zaman bir örnək kimi qəbul edilməsinə səbəb olur. Azərbaycan xalqının sadiq oğlu, Ümummilli Lider Heydər Əliyevin ailəsi də gənclərimizə örnəkdir. Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış Heydər Əliyev bu uğurun arxasında hər zaman ailəsinin dayandığını bildirirdi. Böyük şəxsiyyətlərin arxasında böyük qadınlar dayanır. O qeyd edirdi ki, “.... Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib”. Milli, maddi və mənəvi dəyərlərimizi təbliğ etmək və gənc nəsillərə ötürmək xalqımızın gələcəyi üçün çox böyük əhəmiyyətə malikdir.

Ölkəyə başçılıq etdiyi bütün dövrlərdə millətin gələcəyinə, təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına həmişə qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi: “Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir”.

Ulu Öndər heç bir Azərbaycan ailəsinin taleyinə laqeyd qala bilmirdi. O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər bir imkan və şəraiti yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə, inkişaf etməsinə zəmin yaradır. 90-cı illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm beynəlxalq Konvensiyalara qoşulmuş və ölkədə

müvafiq qanunlar qəbul edilmişdir. Azərbaycan Respublikası BƏT-in "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT-nin "Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq Hüquqları haqqında", "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara qoşulmuşdur.

Dövlət tərəfindən ratifikasiya edilmiş Konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır. "Ailə kəndli təsərrüfatı haqqında", "Uşaq hüquqları haqqında", "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" və "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" Protokolların təsdiq edilməsi barədə, "Ərdə olan qadının vətəndaşlığı haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Ahıllara sosial xidmət haqqında", "Nikahdan kənar doğulmuş uşaqların hüquqi statusu haqqında", "Uşaqlı ailələrin sosial müdafiəsi haqqında" və digər Qanunlar qəbul edilmişdir. Müstəqil dövlətimizin ali sənədinin-Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də, 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Ailə üzvlərinin sağlamlığı, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir. Heydər Əliyev ailədə sağlam uşaqların doğulması, eləcə də, narahatlıq doğuran məsələlərdən biri olan, qan qohumluğunun qarşısının alınması istiqamətində xüsusi fəallıq göstərir, tibb işçilərinə göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. O, 1995-ci ildə "Respublika Ailə - Sağlamlıq Mərkəzi"nin açılışında çıxış edərkən qan qohumluğu evliliyi və onun fəsadları barədə deyirdi: ".... bizim xalqımızın, millətimizin sağlamlığı üçün, həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların bir-biri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir. Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu adət-ənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət-qohumların evlənməsi, ailə qurmasıdır. Siz, tibb işçiləri və alimləri bunun həm ailələr üçün, həm də ümumiyyətlə millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu bilirsiniz. Amma nədənsə, bu sahədə ciddi tədbirlər görülmür. Belə bir adət-ənənələrin zərərli olduğu insanlara çatdırılmır, izah edilmir, bu sahədə lazımi profilaktik işlər, yəni izahat işləri aparılmır. Məhz bunların nəticəsində, yəqin ki, siz bu sahədə tədqiqatlar aparmısınız, bilirsiniz, çox adamlar anadangəlmə şikəst olur, yaxud əqli cəhətdən inkişaf etmir. Beləlləri yaşasalar da, fiziki cəhətdən çatışmazlıq onları həmişə incidir". Bu bir həqiqətdir ki, sağlam ailə sağlam nəsil, sağlam millət deməkdir. Bu baxımdan, Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunu xüsusilə qeyd etmək lazımdır. Məhz bu xidmətin və qayğının nəticəsidir ki, ildən-ilə ailələrin sayı çoxalaraq, hazırda iki milyona çatmışdır. Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modeli kimi qiymətləndirilir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şərəflə davam etdirən, artıq dünya siyasi xadimləri sırasında öz layiqli yerini tutan Cənab Prezident İlham Əliyev tərəfindən bu sahədə islahatlar aparılmışdır. Xüsusilə, ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün 1998-ci ildən fəaliyyət göstərən Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin əsasında, Möhtərəm Prezident İlham Əliyevin Sərəncamı ilə, 2006-cı ildə bu sahədə vahid dövlət siyasətini həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdı. Ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində hüquqi islahatlar aparılmışdır.

Azərbaycan Respublikasının "Gender (kişi və qadınların) bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunları hüquqların bərabərliyi istiqamətində atılmış ən uğurlu addımlardandır. Ailə Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva qadınların problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşır. Məhz "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbul olunmasında Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü olmuşdur. Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək, genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək üçün yaradılan Heydər Əliyev Fondu bu missiyanı şərəflə həyata keçirir. Artıq 10 ildir ki, fəaliyyət göstərən Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələri reallaşdıraraq yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə tikilən xəstəxanalar, məktəblər, internat evləri qadınların və uşaqların sağlamlığının müdafiəsinə, onların daha keyfiyyətli təhsil almasına şərait yaratmışdır. Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, bu gün Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və Fondun maliyyə dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyi respublikalarında, müsəlman ölkələrində bir sıra sosial, elm və mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında bu Fondun rolu danılmazdır. Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın şəxsi dəstəyi və köməyi nəticəsində reallaşan genişmiqyaslı tədbirlər ana və uşaq ölümünün qarşısının alınması, hemofiliya, talassemiya və şəkərli diabet xəstəliklərinin azalması istiqamətində profilaktik və müalicəvi işlərin aparılmasına müsbət təsir göstərir. Azərbaycanın ən ağrılı problemi olan Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı törədilən genosid haqqında məlumatların dünyaya yayılmasında və təbliğ olunmasında Heydər Əliyev Fondunun və onun vitse-prezidenti Leyla xanım Əliyevanın rolu çox böyükdür.

Artıq 5 ildir ki, Azərbaycan həqiqətləri "Xocalıya Ədalət" kompaniyası çərçivəsində dünya dövlətləri tərəfindən tanınır. Ulu Öndərin əziz xatirəsinə ehtiram olaraq yaradılmış Fond onun arzu və ideyalarının yaşaması və gerçəkləşməsində mühüm yer tutur.

Görkəmli ictimai - siyasi xadim Heydər Əliyev ailədaxili münasibətləri cəmiyyətdaxili münasibətlərin güzgüsü hesab edir, bu prinsipləri özünün siyasi təcrübəsində də tətbiq etməyə çalışırdı.

Bu baxımdan o, ailədə və cəmiyyətdə xüsusi yeri olan qadın və uşaqların hüquqlarının müdafiə olunmasını zəruri hesab edirdi.

O deyirdi ki: “Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır”. Qürurla qeyd edə bilərik ki, Azərbaycan ailəsində qadının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Azərbaycan qadını yeni nəsli dünyaya gətirmək, onu tərbiyə etmək, vətənə layiq böyütmək kimi çox vacib bir vəzifəni yerinə yetirməklə bərabər, ailənin möhkəmliyi və bütövlüyünün qorunması məsuliyyətini də könüllü surətdə daşıyıır. Qadın, ana, xanım - triadasının fəlsəfəsi özü-özlüyündə bu rolun mahiyyətini açır. O, həyat yoldaşına hörmət edən, ailə ocağını daim isidən qadındır. O, dünyaya yeni insan bəxş edən, onu adət-ənənələrimizə, milli dəyərlərimizə uyğun böyüdən, tərbiyə edən anadır. O, cəmiyyətin inkişafında, dövlət quruculuğunda xüsusi rol oynayan xanımdır, vətəndaşdır. Bizim qadınlarımız istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli-mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə ictimai həyatda fəal iştirak edərək, cəmiyyətimizin inkişafına öz töhfələrini vermişlər. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər vardır. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, aktiv əmək fəaliyyəti ilə məşğul olmalarıdır. Hal-hazırda qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan istifadə edirlər. Sərbəst təhsil almaqla, fiziki hazırlıqlarını inkişaf etdirməklə, peşəkarlıq səviyyələrini artırmaqla yanaşı qadınlar həm də, ictimai-siyasi proseslərdə fəal iştirak edərək cəmiyyətin qurucusuna çevrilirlər. Ailənin bütövlüyünün qorunmasında Azərbaycan qadınının özünəməxsus yeri vardır. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır. Ümummilli Lider Heydər Əliyev ailədə ananın rolunu yüksək qiymətləndirirdi: “.... Amma ən əziz amil odur ki, hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. “Ana” sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də “Ana Vətən” deyirik, torpağa da “Ana torpaq” deyirik. Anaya hörmət, ana qarşısında borcunu yerinə yetirmək hər kəsin ən ali vəzifəsi olmalıdır. Ana cəmiyyətimizə yararlı olan zəkalı, istedadlı insanlar böyüdərək, onları vətənə bəxş edir. Ana ailənin dayağıdır. Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən asılıdır. Hər birimiz anaya borcluyuq və hər bir qadın da ana olmaqla xoşbəxt olur. Müharibələrdə vuruşan qəhrəman, cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Umummmillli Lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədi imzalaması olmuşdur. Bu atəşkəs ana və bacıların axan göz yaşlarını dayandırdı. Bir çox Avropa və MDB ölkələrinin vətəndaşları xalqımızın möhkəm ailə ənənələrinə çox böyük rəğbətlə yanaşır. Bəzi ölkələrdə ailə ənənələrinin zəif olması bir sıra sosial-psixoloji fəsadların yaranmasına yol açır, bu da öz növbəsində, cəmiyyətdə deqradasiyanı sürətləndirir. Bütün bu spesifik xüsusiyyətlərin qabarıq şəkildə özünü bürüzə verməsi, təbii ki, xalqımızı digərlərindən yaxşı mənada fərqləndirir. Məhz bu nəcib keyfiyyətlər xalqımızın qan yaddaşından irəli gələn əxlaq normalarıdır. Bu əxlaq normaları, İslam və ümumbəşəri dəyərlər məişətimizdə, adət-ənənələrimizdə, həmçinin, folklorumuzun hər bir janrında mühafizə edilir və gələcək nəsillərə ötürülür. Ailə institutu dinamikdir. Zamana uyğun olaraq onun bu və ya digər funksiyalarına yeni elementlər daxil olur. Nümunə üçün, elm və texnologiyanın inkişafının ailəyə, ailə üzvlərinin roluna təsirini göstərə bilərik. Bu təsir həm müsbət, həm də mənfi ola bilər. Biz daha çox bu barədə düşünməliyik. Biz bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli daha sağlam tərbiyələndirməliyik. Elə, dahi şəxsiyyət Heydər Əliyev də uşaqların düzgün tərbiyə alması və sağlam böyüməsini xüsusi olaraq diqqətdə saxlayırdı. O deyirdi ki: “Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır”. Bütövlükdə isə, biz həmişə Azərbaycan ailələrinin möhkəmliyi ilə fəxr etmişik. Bu, əsasən milli mentalitetimizdən irəli gəlir. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması bizim ailələrə xas olan keyfiyyətlərdir. Əgər ölkəmizdə yüzlərlə, minlərlə insan qurduqları ailələrin brilyant, qızıl, gümüş yubileylərini keçirirlərsə, bu o deməkdir ki, Azərbaycanda ailə modeli qorunur və nəsildən-nəslə yaşadılır. Qeyd etmək istərdim ki, ölkəmizdə xüsusi istedadı, bədii və musiqi yaradıcılığı, yüksək idman göstəriciləri, digər qabiliyyət və maraqları ilə seçilən ailələrimiz çoxdur. Çalışırıq ki, hər il Beynəlxalq Ailə günü ərəfəsində həmin ailələrin təcrübəsini, nümunə olmaq üçün, hamıya çatdıraq. Komitənin təşəbbüsü ilə 2008-ci ildən etibarən Ailə bayramı Şamaxı, Qax, Xaçmaz, İsmayıllı rayonlarında Lənkəran, Şəki şəhərlərində təşkil edilmişdir. Hər il “Ailə bayramında” Azərbaycanın bütün rayonlarından 100-dən çox ailələr iştirak edir. Artıq 6 ildir ki Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə, “Azərbaycan ailəsi” adlı filmlər festivalı uğurla həyata keçirilir. Filmlər festivalının keçirilməsinin əsas məqsədi, kinomatoqrafiyanın imkanlarından istifadə etməklə, ailə dəyərlərinin, milli-mənəvi dəyərlərin gənclər arasında təbliği, cəmiyyətdə bu istiqamətdə mövcud olan problemlərin işıqlandırılaraq həlli yollarının axtarılması və ailə institutunun inkişafına nail olunmasıdır. İnsanın mənəviyyatını hər şeydən uca tutan, daxili zənginliyini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Bu ilk sosial təsisatın qorunması və müdafiə edilməsi hamımızın vəzifə borcudur. Biz bu vəzifəni yerinə yetirməklə, Ulu Öndərin ruhunu da şad etmiş oluruq.



# 91 il
# ZƏRİFƏ ƏLİYEVA

"Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm."

Bu il tanınmış oftalmoloq-alim, akademik, görkəmli ictimai xadim Zərifə xanım Əliyevanın anadan olmasından 91 il ötür. Bu nəcib və nurlu insanının həyat və fəaliyyətini nəzərdən keçirir, unudulmaz xatirəsini ehtiramla yad edirik. Və bir daha əmin oluruq ki, Azərbaycan elminin və cəmiyyətinin inkişafında Zərifə xanım və onun kimi onlarla qadının əvəzsiz rolu vardır.

Əsrlər boyu alim və mütəfəkkirlər tanınmış insanların həyatını öyrənmiş və son nəticədə belə qənaətə gəlmişlər ki, başlıca tərbiyəvi faktor şəxsiyyətin formalaşdığı mühitdir. Zərifə xanım çox nəcib bir ailədə - ictimai-siyasi və dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Yüksək vətəndaşlıq hissinə malik olan Əziz Əliyev haqqında qədirbilən insanlarımız çox oxuyub, çox eşidiblər. O, xalqı qarşısında ictimai borcunu dərindən dərk edərək ləyaqətlə xidmət göstərmiş, övladlarını da bu ruhda böyütmüşdür. Zərifə xanımın anası Leyli xanım ləyaqət təcəssümü idi. Həyat tərzinə görə çox sadə davranmağı sevən bu qadın qızlarına da həyatda təvazökar davranmaq mədəniyyəti aşılamışdır.

Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Əbülfəz Qarayev, Mirəsədulla Mirqasımov, Bülbül və başqa böyük şəxsiyyətlər bu ailənin yaxınları olublar. Geniş ensiklopedik biliyə malik Əziz Əliyev övladlarını belə yüksək mənəvi dəyərlər zəminində tərbiyə etmişdir.

Məhz bu tərbiyənin nəticəsidir ki, Zərifə xanım yalnız ona müraciət edən xəstələri müalicə etməklə kifayətlənmirdi. O daim araşdırır, insanların sağlalığı üçün tədqiqatlar aparırdı. Elmi ictimayyətə, xüsusilə, oftalmologiya ictimaiyyətinə yaxşı məlumdur ki, Zərifə Əliyeva görmə orqanında peşə xəstəliyini öyrənən ilk görkəmli alimdir. Belə ki, şin və yod istehsalı sahəsində zərərli amillərin görmə orqanına təsirini məhz o araşdırmışdır. Kənd təsərrüfatında geniş tətbiq olunan zəhərli maddələr də onun diqqətini cəlb etmişdi. Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri” əsərində özünü daha parlaq büruzə verir. Bu mövzuya həsr olunan çıxışlarında Zərifə xanım bilik və təcrübəsini həkim həmkarlarına həvəslə, inam hissi ilə aşılayırdı. Qeyd etmək lazımdır ki, onun çap etdirdiyi elmi əsər mahiyyət etibarilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə aləmində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayır. “Göz qəlbin aynasıdır” deyiblər. Zərifə xanım bu aynanın həmişə nurlu olması üçün çalışırdı.

Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva fəaliyyətini yüksək qiymətləndirmişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı "oftalmologiyanın mirvarisi" adlandırırdı. Dünya şöhrətli oftalmoloq akademik A.Nesterov demişdir: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm.

Oftalmologiyada o, bir nömrəli idi". Akademik N.Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor A.Brovkina onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Professor N.Şulpina Zərifə xanımı dünya şöhrətli alim adlandıraraq, "biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik" demişdir. O, həkim olmaqla yanaşı, tanınmış ictimai xadim idi. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan “Bilik” Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanım təkcə görkəmli alim və ictimai xadim deyildi. O, həm də gözəl qadın, qayğıkeş ana idi. O, Heydər Əliyev kimi dünya şöhrətli siyasətçinin xanımı idi. Zərifə xanım həyatını xalqına həsr etmiş bir insanı tükənməz sevgi və qayğı ilə əhatə edərək ona əsl dost, yaxın silahdaş və mənəvi dayaq oldu. Zərifə xanım övladlarının düzgün tərbiyəsi üçün hər cür fədakarlığa hazır idi. Həmişə kamilliyə can atan bu insan uşaqlarının tərbiyəsində də şəxsi hisslərini deyil, cəmiyyətin mənafeyini üstün tuturdu. Bu gün Azərbaycanın fəxri, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasətdə qazandığı uğurlar, gündən-günə dünyada artan nüfuzu bir ana kimi Zərifə xanımın ruhunu şad edir. Azərbaycan tarixinin iki böyük şəxsiyyətinin-Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı, möhtərəm cənab Prezidentimiz İlham Əliyevin anası olmaq səadətini də tale Zərifə xanıma yazmışdır.

“Ot kökü üstündə bitər”.... Bu gün onun müqəddəs ailə çırağını övladları, nəvələri yandırır, onun vətəndaşlıq və insanseverlik missiyasını davam etdirirlər. Ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirərək Azərbaycanda Birinci Xanım institutunu daha da mükəmməlləşdirmişdir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin inkişafı üçün layihələr həyata keçirir. Heydər Əliyev Fondunun vitse prezidenti Leyla xanım Əliyevanın ictimai fəaliyyəti göz qabağındadır. Azərbaycan gənclərinin lideri kimi onun vətənpərvərliyi, ölkəmizin dünyada tanınması üçün gördüyü işlər hər birimizdə qürur hissi doğurur. Bu da genetik yaddaşın bir göstəricisidir.

Zərifə xanım öz məhəbbətinə, ailəsinə, cəmiyyətə və vətəninə sədaqəti, fədakarlığı ilə şərəflənən, yüksələn qadındır. O, bütün sahələrdə gənc nəslə örnəkdir. Onun həyat və yaradıcılığı bizim qızlarımız və xanımlarımız üçün nümunədir. Zərifə xanım Əliyeva haqqında fikir deyəndə, “nurlu insan”, “xeyirxahlıq nümunəsi”, “novator alim” kəlmələri mütləq qeyd olunur. Bu da onu göstərir ki, İnsanın dəyəri onun fəaliyyəti, daxili aləmi ilə ölçülür. Zərifə xanım Əliyeva fiziki olaraq bu dünyada olmasa da, o əməlləri, tələbələri, övladları və nəvələri ilə hər zaman xatırlanacaq və dərin hörmət hissi ilə yad ediləcəkdir.



# HEYDƏR ƏLİYEV FONDU 10 il

Bu gün müstəqil Azərbaycanın qısa bir zamanda qazandığı nailiyyətlərə nəzər salanda vətənimizin böyük inkişaf yolu keçdiyinin şahidi oluruq. Ölkəmizin sosial-iqtisadi yüksəlişi, regionda lider dövlətə çevrilməsi, dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından biri olması bu inkişafı şərtləndirən amillərdəndir. Bu uğurların qazanılması Ümummilli Lider Heydər Əliyev siyasi kursunun layaqətlə davam etdirilməsi ilə əlaqədardır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə, bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə, əldə ediləcək böyük nailiyyətlərin sayının ildən-ilə artmasına əsaslı şərait yaratdı. Mühüm dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində ölkədə əhalinin rifahı yüksəldilmiş, paytaxtla bölgələr arasında fərqin aradan qaldırılması istiqamətində çox səmərəli işlər görülmüşdür. Dövlət başçımızın cəmiyyətin inkişafına yönəlmiş qərarlar qəbul etməsi, cəmiyyəti narahat edən problemlərə böyük həssaslıqla yanaşması onun insanlara göstərdiyi diqqətin, qayğının nəticəsidir. Ötən illər ərzində möhtərəm Prezidentin apardığı daxili və xarici siyasət, Azərbaycanın hüquqi-demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti yaratmaq uğrunda səyi xalq tərəfindən rəğbətlə qarşılanmış, gələcəyə inamı artırmışdır. Arxada qalan iləl Azərbaycanı dinamik sosial-iqtisadi inkişaf, müasir dövlət quruculuğu sahəsində irəliyə doğru aparan dövr olmuşdur. Eyni zamanda, bu cəmiyyətin bütün istiqamətlərdə inkişafına, vətəndaşların rifahının yüksəldilməsinə, qarşılaşdığımız problemlərin həllinə müsbət təsir göstərmişdir. Bu, xüsusən qaçqın və məcburi köçkünlərə qayğı sahəsində özünü daha dolğun büruzə verdi. Ayrıca qeyd etməliyik ki, ölkənin həyatındakı bu dəyişikliklərdə Heydər Əliyev Fondunun müstəsna rolu olmuşdur. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, gənclərin milli dövlətçilik ideyaları ilə tərbiyə edilməsi, qloballaşmada milli-mənəvi dəyərlərin qorunub saxlanılması kimi vacib məsələlərin həllini qarşısına məqsəd qoyan Fond, eyni zamanda elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekologiya sahələrində maraqlı layihələr həyata keçirir.

Fondun məqsədəuyğun fəaliyyəti nəticəsində, həmin layihələrin həyata keçirildiyi ölkələrdə Azərbaycan haqqında obyektiv ictimai rəyin formalaşması üçün mühüm işlər görülür. Qarşısına qoyduğu məqsəd və vəzifələrə görə ölkədə analoqu olmayan bu qurum apardığı çoxşaxəli işlərlə həm Azərbaycanda, həm də Azərbaycandan çox-çox uzaqlarda yüksək nüfuz qazanmışdır. Heydər Əliyev Fondu, onun Prezidenti, ölkəmizin Birinci Xanımı, millət vəkili Mehriban Əliyevanın rəhbərliyi altında beynəlxalq əməkdaşlıq şəraitində müxtəlif irimiqyaslı layihələr reallaşdırır, cəmiyyətin inkişafında, qədim və zəngin mədəniyyətimizin, milli dəyərlərin qorunmasında mühüm rol oynayır. Fond eyni zamanda, azərbaycançılıq ideologiyasının yaşadılmasında xidmətlər göstərir. Azərbaycan mədəniyyətinin nadir incisi sayılan muğamlarımızın inkişafı və təbliği birbaşa Fondun adı ilə bağlıdır. Fondun prezidentinin təşəbbüsü ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi yaradılmışdır. Bununla bərabər, "Qarabağ xanəndələri" nəfis albomunun nəşri, ənənəvi muğam festivallarının keçirilməsi Fondun uğurlu layihələrindəndir. Çox fərəhlidir ki, Mehriban xanımın təşəbbüsü ilə muğam UNESKO tərəfindən Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin "Şah əsərləri" siyahısına daxil edilmişdir. Bir neçə il əvvəl Bakıda təşkil olunmuş beynəlxalq konfranslar ölkə həyatında əlamətdar hadisəyə çevrilmişdi. 2004-cü il mayın 10-da yaradılmış Fond, böyük bir dövr ərzində həyata keçirilməsi mümkün olan işləri qısa müddətdə yerinə yetirmişdir. Fondun Prezidenti, Azərbaycan qadınının bütün gözəl keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən Mehriban Əliyevanın cəmiyyətdə yaratdığı aura insanları mənəvi saflığa, xeyirxahlığa səsləyir. Azərbaycan ailəsinin problemlərini həmişə diqqət mərkəzində saxlayan Mehriban xanım ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Onun təşəbbüsü ilə ailələrin rifahına yönəlmiş maraqlı layihələr reallaşır. Məsələn, "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi ölkədə böyük əks-səda doğurmuşdur. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında Qanun" 2010-cu il iyunun 22-də qəbul olunmuşdur.

Bu Qanunun qəbul edilməsində və Ailə Məcəlləsində qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik edilməsində Mehriban xanımın böyük dəstəyi olmuşdur. Fondun təşkilatçılığı ilə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq Forumun Bakıda keçirilməsi qadınların cəmiyyətin həyatındakı fəal mövqeyini bir daha təsdiq edir.

Bakı Forumunda mədəniyyətlərarası dialoqun idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olundu, təcrübə mübadiləsi aparıldı, eləcə də yeni təşəbbüslər irəli sürüldü. Bu cür beynəlxalq tədbirlərin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun getdikcə gücləndiyini bir daha sübut edir. Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda VII Konfransında Mehriban Əliyevanın proqram çıxışı cəmiyyətimizdə yüksək əks-sədaya və müzakirələrə səbəb olmuşdur. 2012-ci ildə Bakıda keçirilən beynəlxalq Krans-Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda Konfransda qaldırılan məsələlər, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qadın hüquqları ilə bağlı geniş və əhatəli çıxışı beynəlxalq diqqətin ölkəmizə yönəldilməsinə imkan yaratmışdır. Məlumdur ki, Heydər Əliyev Fondu beynəlxalq sahədə genişmiqyaslı iş aparır. Bunun nəticəsi kimi, Pakistanın nüfuzlu "Daily Times" qəzeti və Qadın Könüllülər Təşkilatı Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanı "Humanizm simvolu, 2012-ci ilin adamı" elan edib. Mehriban Əliyeva bu ada Heydər Əliyev Fondunun 2012-ci ildə Pakistanın bütün əyalətlərində keçirdiyi humanitar aksiyalara, o cümlədən təhsil və səhiyyə sahəsindəki işlərə görə layiq görülüb. Bu gün Azərbaycan-İSESKO əməkdaşlığı yüksələn xətlə inkişaf edir. Təşkilat ölkədə təhsil və mədəniyyət sahələrinin inkişafına dəstək verilməsi istiqamətində bir sıra layihələrdə uğurla iştirak edir. Heydər Əliyev Fondu uşaq və qadınların hüquqlarının qorunması, təhsildə gender bərabərliyinə nail olunması, qadın təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, qadınların ictimai həyatda rolunun artırılması və digər sahələrdə mühüm işlər görür, xüsusən təhsilin inkişafında onun xidmətləri misilsizdir. Ulu Öndər Heydər Əliyev uşaqları çox sevir, onların sağlam, gümrah böyüməsi, yüksək səviyyədə təhsil alması üçün ölkədə hər bir şərait yaradırdı. Bu gün uşaqların hərtərəfli qayğı ilə əhatə olunması, fiziki və mənəvi cəhətdən normal böyüməsi məqsədi ilə cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması Heydər Əliyev Fondunun da fəaliyyətinin prioritet istiqamətlərindəndir. Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Talassemiyasız həyat", "Diabetdən əziyyət çəkən uşaqlara qayğı", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təhsilə dəstək" kimi layihələr uşaqların və ümumilikdə ailələrin rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. Adı çəkilən layihələr üzrə uşaq müəssisələrinin bir qismi yenidən qurulmuş, müasir texniki avadanlıqlarla təchiz olunmuşdur. Yaşı 18-ə çatmış qızların uşaq evindən sonrakı taleyi bu gün cəmyyəti narahat edən məsələlərdəndir. Bunu nəzərə alan Heydər Əliyev Fondu internat həyatı başa çatan qızlar üçün yaşayış binası tikdirmişdir. Bu layihə müstəqil həyata qədəm qoyan qızların həyatını izləməklə yanaşı, onlara verilən mənəvi dəstəyin ifadəsidir. Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutan məsələlərdən biri də əhalinin sağlamlığının təmin olunması və səhiyyə sistemindəki problemlərin həlli ilə bağlıdır. Məsələn, "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsinin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə cəlb etmək, onların həllinə kömək etməkdir. Fondun həyata keçirdiyi digər mühüm layihə isə ölkədə talassemiya xəstəliyinin qarşısının alınması ilə bağlıdır. Beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə danışıqlar, "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində, müasir tələblərə cavab verən Talassemiya Diaqnostika Mərkəzinin yaradılması ilə nəticələndi. Bu gün respublikamızda 40 min nəfər dünya işığından məhrum və görmə qabiliyyəti zəif olan müxtəlif yaşlı insan var. Heydər Əliyev Fondu belə insanların problemlərinə həssaslıqla yanaşaraq onlar üçün tədris-təlim proqramları hazırlamışdır. Fondun Prezidenti Mehriban xanım Əliyeva beynəlxalq tədbirlərdəki çıxışlarında Azərbaycan-Ermənistan münaqişəsi, işğal olunmuş ərazilərimizdə tarixi, mədəni və dini abidələrimizin dağıdılması məsələlərini dönə-dönə vurğulayır. Fondun təşəbbüsü ilə, Azərbaycan həqiqətlərinin dünyaya yayılması namunə, kitablar nəşr edilir. Heydər Əliyev Fondunun birbaşa dəstəyi ilə beynəlxalq Avroviziya mahnı müsabiqəsində Azərbaycanın uğurla təmsil olunması və bunun müsbət nəticəsi kimi, 2012-ci ildə həmin yarışın Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun daha bir sübutudur.

Bu yaxınlarda, Beynəlxalq Olimpiya Komitəsinin rəhbərləri, müxtəlif ölkələrin milli olimpiya komitələrinin başçıları və idman nazirlərinin iştirak etdikləri Assambleya çərçivəsində, 2020-ci ilin Olimpiadasının keçirilməsinə Bakının namizədliyinin təqdimat mərasimi təşkil olunmuşdu. Bu mərasimdə çıxış edən Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva ölkə əhalisinin 2020-ci il Olimpiya oyunlarının Bakıda keçirilməsi arzusundan danışaraq bildirmişdir ki, Bakı izdihamlı, tolerant şəhərdir, burada köhnəliklə yenilik üzvi şəkildə birləşir.Bizim çox zəngin tarixi irsimiz vardır. Məhz burada Şərq ilə Qərb görüşür, müxtəlif millətlərarası dözümlülük ab-havası bizim identikliyimizin özəyinə çevrilib. Birinci xanım həmçinin Forum iştirakçılarının diqqətini Azərbaycanın zəngin idman tarixinə cəlb edərək, ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan artıq idman ölkəsidir" kəlamını önə çəkmişdir. Heydər Əliyev Fondu təkcə Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da öz fəaliyyətini genişləndirir. ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə Fondun nümayəndəlikləri fəaliyyət göstərir. Həmin nümayəndəliklər, Fondun əsas məqsədlərinə uyğun olaraq, olduqca faydalı layihələr işləyib hazırlayırlar. Fond Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və Ulu Öndərin ideyalarının həyata keçirilməsi yolunda inamla addımlayır.

# "XXI ƏSRDƏ QADINLARA QARŞI ZORAKILIQ ƏLEYHİNƏ" LAYİHƏSİ

Heydər Əliyev Fondunun BMT-nin Əhali Fondu və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" Layihəsi 2008-2010-cu illər.

Bu gün qadınlara münasibətdə zorakılığın qarşısının alınması bütün dünyada narahatlıq doğuran aktual məsələlərdən biridir. Zorakılıq insan hüquqları və əsas azadlıqlarından istifadə edilməsinə, bərabərlik və inkişaf məqsədlərinə ciddi maneə yaradır.
Zorakılığın əsas səbəblərini qadının maddi və psixoloji asılılığı, ailədə münasibətlərin aşağı səviyyədə olması, erkən nikahlar, qadınların öz hüquqlarını bilməməsi, formalaşmış yanlış stereotiplər təşkil edir.
Bir məsələni qeyd etmək lazımdır ki, zorakılığın qarşısının alınması Ailə İnstitutunun möhkəmliyinə, bütövlükdə, həmin cəmiyyətin və dövlətin inkişafına gətirib çıxarır. Bu baxımdan, ailədə münasibətlər sisteminin düzgün qurulması mühüm əhəmiyyət kəsb edir. Əgər ailədə münasibətlər qarşılıqlı məhəbbət, hörmət, qayğı, ədalət üzərində qurularsa, belə ailənin yetişdirdiyi insanlar yaşadıqları cəmiyyətdə də eyni münasibətlərin olmasına çalışacaqlar. Əgər qarşılıqlı münasibətlərdə tarazlıq pozularsa, problemi törədən insanla bərabər, yaranmış problemdən əziyyət çəkən insanlar da (qadın, kişi, yaşlı, cavan, uşaq), cəmiyyətdə özlərini təsdiq etmək istərkən çətinliklərlə üzləşirlər. Məhz bu baxımdan, zorakılığa məruz qalan hər kəsə psixoloji, tibbi, hüquqi yardımın göstərilməsi və onların yenidən ailəyə, cəmiyyətə reinteqrasiya edilməsi çox vacibdir.
Cəmiyyətdə yaranan problemlərin həlli istiqamətində dövlət tərəfindən qəbul edilən qərarlar və görülən işlər sayəsində əldə edilən müsbət nəticələrə baxmayaraq, uşaqlara və qadınlara qarşı zorakılıq halları mövcuddur. Bu problemlər bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da mövcuddur. Lakin belə problemləri adət-ənənə və ya milli xüsusiyyətlərlə əlaqələndirmək olmaz. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Qadına qarşı zorakılığa haqq qazandırmaq üçün adət-ənənə və mentalitetdən istifadə etmək əxlaq qaydalarına ziddir" sözləri belə düşüncəyə malik olan insanlara birmənalı cavabdır: "Bu ciddi problemin qarşısının alınması və profilaktikası dövlət başçımızın və hökumətin diqqət mərkəzindədir. Bununla əlaqədar, Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "İyirmi birinci əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" birgə layihəsi bu məsələnin həllinə yönəlib. Bu çox mühüm məsələnin qanunvericilikdə tənzimlənməsi üçün, Mehriban Əliyevanın millət vəkili kimi təşəbbüsü ilə, Milli Məclisdə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul edilib və bu qanun ölkə Prezidenti tərəfindən imzalanıb.
Xüsusilə, Ailə Məcəlləsində qadınlar üçün nikah yaşı 1 yaş artırılaraq 18 yaş qəbul edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinə də dəyişiklik edilərək "Qadını nikaha daxil olmağa məcbur etmə" (176.1.) maddəsi qəbul olunmuşdur. Həmin maddəyə görə, qadını nikaha daxil olmağa məcbur edən şəxs iki min manatdan üç min manatadək cərimə və ya iki il müddətinədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır. (176-1.1.) Eyni əməlləri nikah yaşına çatmayan şəxs barəsində törədən isə üç min manatdan dörd min manatadək cərimə və ya dörd il müddətinədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır (176-1.2.).
Dövlətin erkən nikah və məişət zorakılığı ilə mübarizə tədbirlərinin ilk müsbət nəticələri artıq özünü göstərir.
Ana və uşaq ölümünün, küçə uşaqları, erkən nikah və uşaqlara qarşı zorakılıq faktlarının azalması dövlətin apardığı uğurlu siyasətin nəticəsidir.
Belə ki, ana ölümü 2008-ci ildə 40, 2012-ci ildə 26, 2013-cü ildə isə 25 olmuşdur. Rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı 2011-ci ildə 30 983, 2012-ci ildə 27 031, 2013-cü ildə isə 25 069-a qədər azalmışdır. 15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 2011-ci ildə 4392 nəfər olduğu halda, 2012-ci ildə 3236, 2013-cü ildə isə 2855 nəfərə enmişdir. Məişət zorakılığı zəminində zorakılıqla bağlı cinayətlər 2011-ci ildə 2043, 2012-ci ildə 1514, 2013-cü ildə 713 olmuşdur.
Azərbaycan qanunvericiliyi qadın hüquqları və gender bərabərliyi ilə bağlı dövlətimizin beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini əks etdirir. Zorakılığın qarşısını almaq üçün əsas şərtlər qadın hüquqlarının müdafiəsi, qadınlara öz bacarıqlarından istifadə etmələri üçün geniş imkanların yaradılması, qadın və kişilər arasında real bərabərliyə nail olunmasıdır.



# UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİNDƏ

Uşaqların əsl şəxsiyyət və vətəndaş kimi formalaşması üçün həm dövlət, həm cəmiyyət, həm də ailə məsuliyyət daşıyır. Çünki, ailənin davamçısı olan uşaq dövlətin gələcəyidir. Buna görə də, Azərbaycanda uşaqlarla əlaqədar bütün məsələlər dövlətin diqqətindədir və bu sahə hər zaman prioritet istiqamət təşkil edir.

Məhz bu səbəbdən, son illər uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması üçün lazımi şəraitin təmin edilməsinə yönəlmiş mühüm addımlar atılır. Təsadüfi deyil ki, qlobal iqtisadi böhran fonunda 2009-cu il möhtərəm Prezidentimiz tərəfindən «Uşaq ili» elan edilmişdi. Bu, uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açmaqla bərabər, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini bir daha uşaqların problemlərinə cəlb etmək baxımından, böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, 2009-2011-ci illər ərzində BMT-nin Əhali Fondu və Heydər Əliyev Fondu ilə birgə keçirdiyi Ümumrespublika Uşaq Forumları da, uşaqların hərtərəfli inkişafı, elmi-mədəni biliklərə yiyələnməsi, milli-mənəvi dəyərləri mənimsəməsi baxımından, diqqətəlayiqdir. Proses uğurla davam etdirilir və III Ümumrespublika Uşaq Forumunun keçirilməsi cari ilə təsadüf edir.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmışdır. Son illər uşaqların sağlamlıqlarının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təlim-tərbiyəsinin daha da yüksəldilməsi üçün lazımi şərait yaradılmış və bu istiqamətdə mühüm tədbirlər reallaşdırılmaqdadır. Azərbaycan Prezidenti cənab İlham Əliyev və ölkənin Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın uşaq məsələlərinə diqqəti və bu sahəyə göstərdikləri qayğı uşaq siyasətinin müvəffəqiyyətlə davam etdirilməsinin bariz nümunəsidir. Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafı, onların yüksək standartlara cavab verən təhsil və tibbi xidmətlərlə təmin olunması, uşaq problemlərinin həlli istiqamətində önəmli layihələr həyata keçirməkdədir. 10 illik fəaliyyəti ərzində Fondun ölkəmizdə ailələrin, qadınların və uşaqların həyat tərzinin yeni mühitə uyğunlaşması və transfer etməsi istiqamətində gördüyü işləri, verdiyi töhfələri xüsusi qeyd etmək lazımdır. Bu təşkilatın iştirakı ilə reallaşan təhsil, mədəniyyət, səhiyyə, humanitar, ekoloji layihə və aksiyaların hər birində uşaqlarla bağlı problemlərin həllinə dəstək olmaq ideyası önəmli yer tutur.

Erkən nikah və qız uşaqlarının təhsildən yayınması, uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılması aktual məsələlərdən biridir.

Dövlətin bu istiqamətdə apardığı davamlı siyasətin uğurlu nəticələrini izləmək sevindiricidir.

Komitənin Heydər Əliyev Fondu, BMT-nin Uşaq və Əhali Fondu ilə birgə həyata keçirdiyi layihələr davam etməkdədir.

Komitə, bu təşkilatlarla birgə ölkədə küçə uşaqlarının və nikahdan kənar doğumun qeydiyyatını, erkən nikah halları üzrə vəziyyəti araşdırmışdır. “Doğulan uşaqların cinsə görə nisbətinin pozulmasının səbəbləri: Mövcud vəziyyətin təhlili və problemin həlli yolları” mövzusunda sosioloji tədqiqat keçirilmişdir. Hər il otuz minə yaxın insan doğulmamış, ölümə məhkum olur. Bu məsələlərlə əlaqədar olaraq, təklif və tövsiyələr hazırlanmışdır.

Biz ölkə səviyyəsində deyil, beynəlxalq miqyasda da uşaq problemlərinin müzakirə və həll edilməsinə çalışırıq. 2013-cü ildə Bakıda İSESCO-ya üzv ölkələrin Uşaq Məsələləri üzrə Məsul Nazirlərinin “İslam dünyasında uşaqlar və urbanizasiya problemləri” mövzusunda IV Konfransı keçirildi. Həmin Konfransın nəticəsi kimi, Bakı Bəyannaməsi və Qətnamə qəbul edildi.

Bu gün biz əminliklə deyə bilərik ki, uşaqlarımızın gələcəyi etibarlı əllərdədir. Və onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə layiqli mövqe tutması üçün Azərbaycan dövləti bütün imkan və şəraiti yaratmışdır. Ümummilli Lider Heydər Əliyev deyirdi ki, “Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, evladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, oz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim mustəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz”. Gələn hamılıqla bu binanın sağlam və dayanıqlı olması üçün səylərimizi birləşdirək.



# Mehriban Əliyeva




## TƏRƏQQİ VƏ YÜKSƏLİŞ YOLLARI İLƏ

Birinci xanım Mehriban Əliyeva həm ictimai-siyasi, xeyriyyəçilik fəaliyyəti, həm də elmi yaradıcılığı ilə müasir dövrdə Azərbaycan qadınlarına nümunədir"- Bu fikir iki cilddən ibarət "Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə" kitabının təqdimat mərasimində səslənib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər. Kitabın elmi redaktoru və ideya müəllifi Azərbaycan Müəllimlər İnstitutunun rektoru, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı, elmi məsləhətçisi isə Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor Kamilə Əliyevadır. İkicildlikdə birinci xanım Mehriban Əliyevanın Azərbaycan təhsilinin və mədəniyyətinin inkişafı sahəsində gördüyü işlər, onun ölkəmizi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı materiallar toplanıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbiri açaraq bildirib ki, Azərbaycanda hər zaman maarifçilik və xeyriyyəçilik ideyaları, milli mənəvi dəyərlər əsasında fəaliyyət göstərən, örnək kimi qəbul etdiyimiz qadınlar olub və indi də vardır. Onlar cəmiyyətimizin inkişafına öz töhfələrini veriblər. Bu baxımdan, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva həm ictimai-siyasi, xeyriyyəçilik fəaliyyəti, həm də elmi yaradıcılığı ilə müasir dövrdə Azərbaycan qadınlarına nümunədir. Komitə sədri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun milli mənəvi dəyərlərin qorunması, qadın və uşaq hüquqlarının müdafiəsi, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və s. sahələrdə həyata keçirdiyi layihələrdən danışıb. O, kitabda Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktları ilə bağlı həqiqətlərin dünyaya çatdırılması istiqamətində Fond tərəfindən görülmüş işlərin də yer aldığını diqqətə çatdırıb.

H.Hüseynova bu dəyərli ikicildliyin Azərbaycanın müasir inkişafının gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət daşıdığını söyləyib. Baş nazirin müavini, Xalq Yazıçısı Elçin Əfəndiyev bildirib ki, bu ikicildliyi oxumaqla hər kəs Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətində, bir tərəfdən milli dəyərlərin qiymətləndirilməsinə, milli sənətin inkişaf etdirilməsinə, digər tərəfdən isə bəşəri dəyərlərə ehtiramının şahidi olacaq, həmçinin birinci xanımın xeyriyyəçilik fəaliyyətinin, mədəniyyətimizin inkişafı naminə gördüyü işlərin miqyasını təsəvvür edəcək.

Elçin Əfəndiyev qeyd edib ki, Azərbaycanın birinci xanımının səyləri nəticəsində bu gün Avropanın müxtəlif ölkələrinin mədəniyyət mərkəzlərində, ən böyük teatr, konsert salonlarında incəsənət ustalarımızın ifaları səslənir, rəssamlarımızın əsərləri sərgilənir, mədəni irsimizin qədim və müasir nümunələri nümayiş etdirilir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd edib. Baş nazirin müavini diqqətə çatdırıb ki, Heydər Əliyev Fondunun müxtəlif sahələrdə həyata keçirdiyi layihələr beynəlxalq nüfuz qazanıb. Azərbaycanın dünya birliyində zəngin mədəniyyətə, qədim tarixə, tolerantlıq ənənələrinə malik bir dövlət kimi özünəməxsus yer tutması baxımından, bu nüfuz böyük rol oynayır. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində görülən işlərdən, bu sahədə həyata keçirilən proqramlardan danışıb, çoxlu sayda məktəb binaları və uşaq bağçalarının tikildiyini xatırladıb. Akademik qeyd edib ki, Mehriban Əliyeva bütün xarici səfərlərində, keçirdiyi görüşlərdə Dağlıq Qarabağ münaqişəsini, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərində maddi-mədəniyyət abidələrini vəhşicəsinə dağıtmasını diqqət mərkəzində saxlayır, xoşməramlı səfir kimi, bəşəriyyəti dialoqa və qarşılıqlı anlaşmaya çağırır.

Dinlərarası və sivilizasiyalararası dialoqa töhfələri, milli mənəvi dəyərlərə ehtiramı ilə birinci xanım həm də yeni minillikdə qədim dəyərlərin hamisidir. Sivilizasiyalararası dialoqda gənclərin, elm və mədəniyyət xadimlərinin roluna hər zaman önəm verən Heydər Əliyev Fondunun prezidenti Azərbaycanda bu mövzularda beynəlxalq konfranslar, forumlar, sammitlər, simpozium və festivallar təşkil edir.

Bakı Dövlət Universitetinin sosial və pedaqoji psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor Kamilə Əliyeva çıxışında bildirib ki, "Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə" kitabının nəşri ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisədir. Çünki bu kitab oxuculara Azərbaycanın keçdiyi şərəfli inkişaf yoluna fərqli rakursdan nəzər salmağa, eyni zamanda, qazanılmış uğurların miqyasını təsəvvür etməyə imkan verir. Bu ikicildlikdə toplanmış materiallarla tanışlıq hər bir oxucuda inam yaradır ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin ideyaları yaşayır və yaşayacaqdır. Professor Kamilə Əliyeva vurğulayıb ki, Azərbaycanın dövlətçilik tarixində yeni bir institutun – birinci xanım institutunun formalaşması Mehriban Əliyevanın adı ilə bağlıdır. Məhz Mehriban Əliyevanın fəaliyyəti sayəsində bu institut dövlət və cəmiyyət həyatının mühüm elementinə çevrilib. Alim deyib ki, Azərbaycanda mərhəmət, qayğı və xeyriyyəçilik ənənələrinin dirçəldilməsi də Heydər Əliyev Fondunun prezidentinin adı ilə bağlıdır. Azərbaycanın birinci xanımının fəaliyyətinin əsas istiqamətlərindən biri də dövlət və cəmiyyət üçün strateji əhəmiyyət kəsb edən məsələlərin üzə çıxarılması və lazımi tədbirlərin görülməsidir.

Mehriban Əliyevanın həm də güclü təşkilatçılıq bacarığına malik olduğunu deyən kafedra müdiri K.Əliyeva bildirib ki, Bakıda "Eurovision-2012" mahnı müsabiqəsinin yüksək səviyyədə hazırlanıb keçirilməsinə Azərbaycanın birinci xanımı rəhbərlik etmişdir. Bildiyiniz kimi, Mehriban Əliyeva həm də Avropa Oyunları üzrə Təşkilat Komitəsinin sədridir. Heç bir şübhə yoxdur ki, gələn il Azərbaycanda keçiriləcək ilk Avropa Oyunları da yüksək səviyyədə təşkilatçılığı ilə tarixdə qalacaqdır. Təbii ki, bütün bunlar Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin müəyyən məqamlarıdır. Mehriban Əliyevanın olduqca zəngin fəaliyyətini əks etdirmək üçün bir və ya iki cild kifayət deyil və bundan sonra da neçə-neçə kitablar nəşr olunmalıdır. Kitab hazırlanan zaman Azərbaycanın birinci xanımının fəaliyyətinə konseptual yanaşmaya, mühüm elmi nəticələr çıxarmağa kömək edən materiallara üstünlük verilib. Professor Kamilə Əliyeva vurğulayıb ki, bu kitab oxucularda həm də ölkəmizin müasir tarixi barədə təsəvvür yaradacaq.

Milli Məclisin deputatı, AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov deyib ki, Mehriban Əliyeva sadəcə Prezidentin həyat yoldaşı kimi deyil, həm də gündəlik xeyirxah fəaliyyəti, nəcib əməlləri ilə Azərbaycanın birinci xanımı olduğunu təsdiqləyib. Mehriban Əliyevanın yaratdığı Azərbaycan Mədəniyyəti Fondunun gördüyü işlərdən söhbət açan R.Hüseynov bu qurumun mədəniyyətimizin böyük simalarına dayaq olduğunu, onların rifahının yaxşılaşması üçün çoxlu layihələrə imza atdığını bildirib. O, qeyd edib ki, son illərdə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin inkişafı və dünyada təbliği sahəsində misilsiz işlər görüb və bu özünü, təqdimatına toplaşdığımız ikicildlikdə bir daha təsdiq edir. R.Hüseynov bildirib ki, Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın müxtəlif yerlərində möhtəşəm tədbirlər keçirməklə kifayətlənmir, həm də yeni nəşrlərlə Azərbaycanı, onun dəyərlərini təbliğ edir. Heydər Əliyev Fondunun prezidenti musiqi irsimizə sahib çıxdı, muğamı bütün dünyada şöhrətləndirdi. Bunun özündə də azərbaycançılıq ideyası dayanır ki, bu ideya ətrafında minlərlə, milyonlarla insan bir araya gəlir.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor Firəngiz Əlizadə Mehriban Əliyevanın milli musiqimizin inkişafı istiqamətində gördüyü mühüm işlərdən danışıb və bildirib ki, bu sahədə reallaşdırılan layihələr Azərbaycan musiqisini beynəlxalq səviyyəyə qaldırıb. Son illər keçirilən mədəniyyət günləri, konsertlər, təqdimatlar musiqimizin bəşəri olduğunu, insanlar arasında ünsiyyət yaratdığını sübut edir. Birinci xanımın təşəbbüsü, diqqəti və dəstəyi sayəsində artıq muğam böyük bir simfoniya kimi bütün dünyaya yayılıb. Məhz bunun nəticəsidir ki, beynəlxalq muğam festivallarında dünyanın ayrı-ayrı ölkələrindən tanınmış musiqiçilər böyük həvəslə iştirak edirlər. Bu gün Azərbaycan musiqisinin çox böyük sürətlə inkişaf etdiyini söyləyən F.Əlizadə qeyd edib ki, bu, təkcə muğamla bağlı deyil. Bildirib ki, Heydər Əliyev Fondunun rəhbərliyi ilə "Üzeyir dünyası" adlı möhtəşəm layihə artıq yekunlaşıb. Hazırda digər belə mühüm layihələr üzərində iş gedir.

Azərbaycan Müəllimlər İnstitutunun rektoru, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlı kitab haqqında məlumat verərək bildirib ki, 11 fəsildən ibarət toplunun birinci cildində Mehriban Əliyevanın çıxışları, nitqləri, çoxşaxəli fəaliyyətinin bəzi məqamları, Azərbaycan təhsilinin və səhiyyəsinin inkişafındakı rolu öz əksini tapıb. İkinci cilddə isə, Azərbaycan qadınının diplomatik fəaliyyətinin bəzi cizgiləri, birinci xanımın Azərbaycan xalqının mədəniyyət və incəsənətinin inkişafında və təbliğindəki rolu, onun xeyriyyəçilik fəaliyyətindən söhbət açılır. Bu cilddə, Mehriban Əliyeva haqqında yazılan məqalələrin də bir qismi toplanıb. Kitabda Azərbaycanın birinci xanımının müxtəlif görüşlərdə, konfrans və forumlarda iştirakını əks etdirən fotoşəkillərin də yer alması kitabın dəyərini daha da artırır.

Aqiyə Naxçıvanlı deyib: "Kitab üzərində işləyərkən Mehriban Əliyevanın fəal, zəngin, çoxşaxəli ictimai-siyasi fəaliyyətinin yeni-yeni yüksəklikləri fəth etdiyinə bir daha əmin olduq. Heydər Əliyev Fondunun prezidentinin bütün çıxışlarının əsas qayəsi Azərbaycandır, Azərbaycan xalqıdır, azərbaycançılıq məfkurəsidir. Azərbaycan qadınının liderlik tarixində ən layiqli yer tutan Mehriban Əliyeva haqqında hələ çox kitablar yazılacaq. Biz də təqdim edilən kitabın növbəti nəşrlərini hazırlayacağıq. Bu kitablarda qədimlərin əfsanəsi yox, xalqın gözü qarşısında yazılan tarixin canlı əfsanəsi, təkcə ölkəmizdə deyil, dünyada böyük nüfuz sahibi olan Mehriban Əliyevanın zəngin fəaliyyəti işıqlandırılacaq".

Tədbirə yekun vuran Hicran Hüseynova kitabın əhəmiyyətini bir daha vurğulayaraq bildirib ki, Azərbaycanın birinci xanımının genişmiqyaslı fəaliyyəti, onun humanist missiyası ilə yaxından tanış olmaq üçün bu nəşr çox dəyərli mənbədir.

# QADINLARIN SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ KONFRANS

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatı üzrə Xüsusi Proqram (SPECA) çərçivəsində qadın sahibkarlığının inkişafı üzrə beynəlxalq konfrans keçirilmişdir. Konfransda Bolqarıstan, Belarus, Gürcüstan, Rusiya, Almaniya, Türkiyə, İordaniya, Latviya, Litva, Fransa, Mərakeş, Qətər, Əfqanıstan, Türkmənistan dövlətlərinin və Ərəb Sahibkar Qadınlar Şurasının nümayəndələri iştirak etmişlər.

Konfransın açılışında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış etmişdir. O, bildirmişdir ki, konfransın məqsədi beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qadın sahibkarların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır. SPECA çərçivəsində bir neçə konfrans və forumlar keçirilmişdir. Azərbaycan bu tədbirlərdə fəal iştirak etmişdir. SPECA-ya sədrlik edən ölkəmiz regionda qadın sahibkarlığının inkişafı məsələlərini xüsusi diqqətdə saxlayır.

H.Hüseynova demişdir: “Beynəlxalq konfransın Bakıda keçirilməsi bir daha təsdiq edir ki, bu gün Azərbaycan dünyanın inkişaf etmiş nüfuzlu dövlətlərindəndir. Son 10 il ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılmışdır. Yoxsulluq isə təxminən 10 dəfə azalmışdır. Son 20 il ərzində əhalinin sayı artaraq 9 milyon 500 min nəfərə çatmışdır”.

Komitə sədri diqqətə çatdırmışdır ki, qadınların ictimai fəallığının yüksəldilməsi, iqtisadi və sosial həyatda iştirakının təşviqi Azərbaycan hökumətinin daim diqqətindədir. Sahibkarlığın inkişafı qadınlarda özünə inam hissini artırır. Qadınların həm iqtisadi cəhətdən güclü olması, həm də zorakılığa məruz qalmaması üçün hökumət tərəfindən sistemli şəkildə iş aparılır, layihələr hazırlanır, milli qanunvericilik bazası gücləndirilir. Azərbaycanda hər bir ailənin sosial rifahını yüksəltmək, xüsusilə qadınların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün qəbul olunmuş bir sıra dövlət proqramları ölkədə sahibkarlığın inkişafına təkan verir. Bu sənədlərdə qadınların məşğulluğunun artırılmasına xüsusi diqqət yetirilir. Xüsusilə, 400 minə yaxın qaçqın və məcburi köçkün qadının da sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi vacib məsələlərdəndir.

H.Hüseynova bildirmişdir ki, bu gün qadınlarımızın 50 faizə qədəri fəal əməklə məşğuldur. Hazırda qadınlar ölkə iqtisadiyyatının demək olar ki, bütün sahələrində çalışırlar. Ümumi sahibkarlar arasında qadın sahibkarların xüsusi çəkisi 17 faizə çatmışdır. Qadın sahibkarlığının inkişafı yoxsulluğun azalmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir.

Qadınların peşə hazırlığı kurslarına cəlb olunmalarının, onların bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübə qazanmaları üçün maarifləndirici tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti vardır.

Qadınların ictimai həyatda və biznesdə rolunun artırılmasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük xidmətlərinin olduğunu vurğulayan H.Hüseynova demişdir ki, sahibkar qadınların fəaliyyətini gücləndirmək üçün Heydər Əliyev Fondu tərəfindən müxtəlif layihələr həyata keçirilir. Bu layihələr qadınların kiçik və orta biznes müəssisələri açmasına şərait yaradır. Nisbətən aztəminatlı, əlil, qaçqın və məcburi köçkün qadınların sahibkarlıqla məşğul olmasında belə layihələr mühüm əhəmiyyətə malikdir. Rayon və kənd yerlərində infrastrukturu yaxşılaşdırmaqla, mədəni-intellektual mühit formalaşdırmaqla sahibkarlığı inkişaf etdirmək olar. Komitə sədri bildirmişdir ki, ötən illər ərzində ölkədə qadın sahibkarlığının inkişafı istiqamətində müxtəlif tədbirlər həyata keçirilmiş, bir sıra mexanizmlər yaradılmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi qadın sahibkarlığının gücləndirilməsi üçün maarifləndirici tədbirlər həyata keçirir, xüsusilə kənd yerlərində qadın sahibkarlığının inkişafı ilə bağlı işlər aparır. Bu məqsədlə komitə BMT-nin İnkişaf Proqramı ilə birgə “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqi” ilə bağlı ikiillik texniki yardım layihəsi həyata keçirir. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası regionlarda dövlət qurumları ilə birgə qadın sahibkarların fəaliyyətinin daha da möhkəmləndirilməsi üzrə iş aparır. Ölkədə Biznes Tədris Mərkəzi yaradılmışdır. Mərkəz sahibkarlar üçün məsləhət, marketinq, təlim xidmətlərini və informasiya təminatını sistemli və daimi qaydada həyata keçirən regional şəbəkələrə malikdir.



Bu gün, hər bir dövlətin qarşısında duran vacib məsələlərdən biri cəmiyyətdə gender amilinin nəzərə alınması və qadının sosial-iqtisadi inkişafın təmin edilməsindəki rolunun daha da artırılmasıdır. Bu baxımdan qadın sahibkarlığının gələcəkdə də inkişaf etdirilməsi üçün xüsusi sənədlər qəbul edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş və ölkəmizin uzunmüddətli inkişafının əsas prioritetlərini müəyyənləşdirən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gender bərabərliyinin təmin edilməsi, o cümlədən qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların yaradılması məsələsi də öz əksini tapmışdır. Milli Məclisin sədr müavini Bahar Muradova çıxış edərək bildirmişdir ki, Mərkəzi Asiya ölkələrində ümumilikdə insan inkişafının və kapitalının formalaşmasında mühüm amil olan qadın sahibkarlığının, qadın iştirakçılığının təmin edilməsi çox vacib məsələdir. Bu, regionun inkişafına töhfə verəcək çox ciddi amildir. Həyatın bütün sahələrində qadın fəallığının və iştirakçılığının artırılması və şəraitin yaradılması vacibdir. Azərbaycanda qadın sahibkarlığının inkişafı üçün dövlət tərəfindən çox gözəl mühit yaradılmışdır. Regionda bu sahədə təcrübələri bölüşmək, birgə layihələr həyata keçirmək imkanları vardır. Buna görə də bu konfrans çox əhəmiyyətlidir. Qadın sahibkarlığının inkişafı üçün maarifləndirici tədbirlərin keçirilməsi mühüm məsələdir. Bu sahədə həyata keçirilən layihələri dəstəkləməyə ehtiyac vardır. Bu sahədə dünya təcrübəsini ölkəmizə gətirməklə qadınlarımızı biznes işinə həvəsləndirə və stimullaşdıra bilərik. İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova ölkə iqtisadiyyatının inkişafından, sahibkarlığın tərəqqisi üçün həyata keçirilən tədbirlərdən, qadın sahibkarlığının dəstəklənməsindən danışmışdır. Bildirilmişdir ki, ölkədə həyata keçirilən tədbirlər nəticəsində, son illərdə qadın sahibkarların sayı artmışdır. Fərdi sahibkar kimi fəaliyyət göstərən qadınların 60 faizi regionlarda, 40 faizi isə Bakıda fəaliyyət göstərir. Azərbaycanda fəaliyyət göstərən qadın sahibkarlar əsasən yüngül sənaye, tikiş sənayesi, xalçaçılıq, tətbiqi incəsənət, xalq sənətkarlığı, elm və təhsil, yeyinti sənayesi, kənd təsərrüfatı, ticarət və xidmət sahələrində çalışırlar. S.Həsənova vurğulamışdır ki, 2002-2013-cü illər ərzində 2070 qadın sahibkara 60 milyon dollaradək, o cümlədən 2013-cü ildə 430 qadın sahibkara 12 milyon dollaradək güzəştli kredit verilmişdir. Onlara verilən bu kreditlərin hesabına 2002-2013-cü illər ərzində 3 minədək yeni iş yeri açılmışdır.





Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə bildirmişdir ki, müstəqil Azərbaycanda sahibkarlıq Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra inkişaf etməyə başlamışdır. Sahibkarlıq dövlətin strateji resursudur. Cəmiyyət inkişaf etdikcə qadınların bu sahədə iştirakı da artır. Prezident İlham Əliyev Azərbaycanda qadınların bütün sahələrdə iştirakının fəallaşdırılmasını zəruri bir istiqamət kimi qiymətləndirmişdir. Sahibkarlıq fəaliyyəti ilə bağlı ölkəmizdə mükəmməl qanunvericilik bazası yaradılmışdır. Ziyad Səmədzadə qadın sahibkarlığının inkişafında mövcud problemlərdən və onların həlli yollarından da danışmışdır. Daha sonra Nazirlər Kabinetinin humanitar məsələlər şöbəsinin müdir müavini Qurban Əmirov, BMT-nin Avropa İqtisadi Komissiyasının İcraçı Komitəsinin gender və sosial məsələlər üzrə məsul şəxsi xanım Malinka Koparanova və Dünya Moda Təşkilatının xoşməramlı səfiri xanım Şeyxa Hend Al-Qasemi çıxış edərək konfransın əhəmiyyətindən, qadın sahibkarlığının inkişafının vacibliyindən, Azərbaycanda bu sahədə görülən işlərdən bəhs etmiş, ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradıldığını söyləmişlər.

Sonra konfrans işini sessiyalarla davam etdirmişdir. "Qadın sahibkarlar və biznes razılaşmaları: müxtəlif istiqamətlər" adlı birinci sessiyada Milli Televiziya və Radio Şurasının üzvü, "Kaspi" Təhsil Mərkəzinin və "Kaspi" qəzetinin təsisçisi, tanınmış şairə, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva çıxış edərək qadın sahibkarlığının inkişafının vacibliyindən, konfransın əhəmiyyətindən, bu sahənin tərəqqisində innovativ metodların tətbiqinin zəruriliyindən danışmışdır. O, bildirmişdir ki, Azərbaycanın müstəqillik dövründə sahibkarlıq yeni bir terminalogiya, iqtisadiyyatda yeni bir məzmun kimi ortaya çıxmışdır. Bu mənada "sahibkar qadın" ifadəsi cəmiyyət üçün yeni bir termindir. Sona Vəliyeva vurğulamışdır ki, qadın sahibkarlığının inkişafında innovativ metodların tətbiqi, yüksək və keyfiyyətli təhsil vacib məsələdir. Azərbaycanda bu istiqamətdə mühüm layihələr həyata keçirilir, qadın sahibkarlığının inkişafı dövlət səviyyəsində dəstəklənir. Sahibkarlıq vərdişlərinin formalaşmasında təhsilin rolundan danışan S.Vəliyeva "Kaspi" Təhsil Mərkəzində bu istiqamətdə görülən işləri diqqətə çatdırmışdır. Konfransın digər sessiyalarında da mövzu ilə əlaqədar çıxışlar olmuş, müzakirələr aparılmış, təkliflər səsləndirilmişdir.

# Milli Məclisdə "Dayaq" mentorluq proqramı çərçivəsində tədbir

Azərbaycan Respublikasının Milli Məclisində, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə, bələdiyyələrdə təmsil olunan qadın üzvlərlə görüş keçirilmişdir. Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında oynadığı roldan danışmışdır. O demişdir ki, gündən-günə yerli siyasətdə qadınların təmsilçiliyi daha da artır və bu, bizi çox sevindirir. Sonra, Milli Məclisin sədr müavini Bahar Muradova "Qadınlar idarəetmədə" mövzusunda məruzə ilə çıxış etmişdir. O, Azərbaycanda qadınlara göstərilən dövlət qayğısından danışmış, Azərbaycan qadınlarının ölkənin yerli idarəetmə orqanlarında fəaliyyəti haqqında məlumat vermişdir. Cənubi Qafqazda Yerli Özünüidarəetmə Proqramının Azərbaycan üzrə qrup rəhbəri Katarina Lampe Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) və proqram haqqında ümumi məlumat vermişdir. Bugünkü görüşün əsas məqsədi, bələdiyyələrdə təmsil olunan qadınların yerli siyasətdə fəallığını gücləndirmək üçün "Dayaq" mentorluq proqramını təqdim və təşviq etməkdir. Tədbirdə millət vəkilləri Məlahət Həsənqızı, Sevinc Hüseynova çıxış edərək, bu proqramın qadın iştirakçılığının artırılmasında əhəmiyyətili rol oynadığını bildirdilər. Tədbir mövzu ətrafında müzakirələrlə davam etmişdir.

# Azərbaycan və Macarıstan qadınları arasında əməkdaşlıq görüşü

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə, Macarıstan Biznes Liderləri Forumunun tərkibinə daxil olan, Qadın Biznes Liderləri Forumunun təsisçisi Barbola Çakonun rəhbərliyi altında nümayəndə heyəti Bakıda işgüzar səfərdə olmuş və onların iştirakı ilə "dəyirmi masa" keçirilmişdir. Qonaqları salamlayan Komitə sədri Hicran Hüseynova tədbirin əhəmiyyətindən danışmış, Azərbaycan və Macarıstan arasında mövcud əlaqələrin məhz qadınlar vasitəsilə daha da inkişaf etdirilməsinin sevindirici hal olduğunu bildirmişdir. Gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin mühüm prioritetlərindəndir və bu, bütün istiqamətləri əhatə edir. O, Azərbaycan qadınlarının yalnız ənənəvi sahələrdə deyil, eyni zamanda, hərbi qüvvələr, milli təhlükəsizlik, hüquq mühafizə orqanları, neft sektoru kimi bir sıra ağır sahələrdə də fəallıq göstərdiklərini qonaqların diqqətinə çatdırmışdır. Qadın Biznes Liderləri Forumunun təsisçisi Barbola Çako bildirmişdir ki, səfərin məqsədi Azərbaycan ilə daha yaxından tanış olmaq, gender məsələlərini öyrənmək, eyni zamanda, yerli qadın biznesmenləri ilə işgüzar əlaqələr qurmaqdır. Dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirak etdikləri tədbirdə mövzu ilə bağlı çıxışlar dinlənilmiş, müzakirələr aparılmışdır.

# Almaniyanın Berlin şəhərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) təşkilatçılığı ilə Cənubi Qafqaz hüquqşünaslarının 3-cü regional konfransı

"Avrointeqrasiya dəyişikliklər üçün əsasdırmı?!" başlığı altında keçirilən tədbirdə Cənubi Qafqazdan olan hüquqşünaslar iştirak etmişlər. Tədbir çərçivəsində müxtəlif tematik mövzuları əhatə edən təlimlər keçirilmişdir. Belə ki, "Xarici məhkəmə qərarlarının icrası", "Beynəlxalq qanunvericiliyin milli səviyyədə implementasiyası", "Krizis vəziyyətində qərarların verilməsi" və s. mövzularda keçirilən təlimlər iştirakçılar tərəfindən maraqla qarşılanmış, onların tədbirlərdə qrup şəklində iştirakı təmin edilmişdir. Tədbirdə ölkəmizi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Konstitusiya Məhkəməsi, Milli Məclis, Nazirlər Kabineti, Ali Məhkəmə, Ədliyyə Nazirliyi və qeyri-hökumət təşkilatlarının əməkdaşları təmsil etmişlər.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ATƏT-in nümayəndə heyəti ilə görüş keçirilmişdir

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ATƏT-in nümayəndə heyəti ilə görüş keçirilmişdir.Görüşdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova, Beynəlxalq Əlaqələr və Xarici Protokol şöbəsinin müdiri Səbinə Manafova, ATƏT-in Bakı Layihə Əlaqələndiricisi cənab Aleksis Şahtaxtinski və Qanunun Aliliyi şöbəsinin rəhbər əvəzi Jalə Əzizova iştirak etmişdilər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ATƏT təşkilatı ilə əməkdaşlığının əsas istiqamətləri müzakirə olunmuş və qadın, uşaq məsələləri üzrə layihələrin həyata keçirilməsi barədə danışıqlar aparılmışdır.Tərəflər həmin məsələlər üzrə razılığa gəlmiş və ikitərəfli əlaqələrin genişləndirilməsi sahəsində işlərin davam etdirilməsini təsdiqləmişlər.

# Rusiya Federasiyası Prezidenti yanında olan Uşaq hüquqları üzrə Müvəkkil cənab Pavel Astaxovla görüş

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova Rusiya Federarasiyası Prezidenti yanında olan Uşaq hüquqları üzrə Müvəkkil cənab Pavel Astaxovla görüş keçirmişdir. Görüş zamanı uşaq hüquqlarının müdafiəsi və ölkələrarası övladlığa götürmə sahələri üzrə ikitərəfli təcrübə mübadiləsi haqqında müzakirələr aparılmışdır. Xanım Hicran Hüseynova övladlığa götürmə sahəsində Azərbaycan Respublikasının təcrübəsi, mexanizmi, məsuliyyət məsələlərinə toxunmuşdur. Cənab Pavel Astaxov Rusiya Federasiyasının bu sahədə nailiyyətləri, təcrübəsi və qanunvericiliyi haqqında məlumat vermişdi. Eyni zamanda, Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında sosial xarakterli layihələrin keçirilməsi müzakirə edilmişdi.

# BMT- nin Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin 25 illiyinə həsr edilmiş “Cismani cəzasız uşaqlıq-siyasət və qanunvericilikdə dəyişiklik” mövzusunda konfrans

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva Isveçin Səhiyyə və Sosial məsələləri üzrə Nazirliyinin dəvəti ilə Stokholm şəhərində “Cismani cəzasız uşaqlıq-siyasət və qanunvericilikdə dəyişiklik” mövzusunda konfransda iştirak məqsədilə rəsmi səfərdə olmuşdur. Konfransın məqsədi, Uşaq hüquqları sahəsində daha böyük irəliləyişlərə nail olmaq üçün ölkələri bir araya gətirmək və 2008- ci ilin sentyabr ayında Stokholm şəhərində keçirilmiş konfransdan sonra ölkələrdə uşaqlara qarşı cismani cəzaların ləğvi haqqında qanunvericilikdə olan dəyişikliklər və bu mövzuya olan münasibətlərdəki dəyişiklikləri qiymətləndirmək idi. Plenar iclasını giriş sözü ilə İsveçin Uşaq və Gənclər naziri xanım Maria Larsson acaraq qonaqları salamladı və ölkəsində uşaq hüquqlarının yerinə yetirilməsi sahəsində uğurlar və növbəti illər üçün qarşıda duran məsələlərdən danışdı. Konfrans müddətində Uşaqlara qarşı zorakılıq üzrə 2013-cü ildə BMT-nin uşaq hüquqları komitəsi tərəfindən keçirilmiş ümümdünya sorğusu, insan hüquqları standartları çərçivəsində uşaqlara qarşı cismani cəzaların ləğvi istiqamətində əsas siyasət dəyişiklikləri və təhsil və qeyri -hökümət təşkilatlarının siyasət quruculuğunda resurs kimi istifadəsi mövzuları müzakirə olundu.

Müzakirələrdə çıxış edən Aynur Sofiyeva Azərbaycanda uşaq hüquqlarının təmin edilməsi sahəsində dövlət strategiyasının əsas istiqamətləri, bununla bağlı reallaşdırılan tədbirlər və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan layihələr haqqında ətraflı məlumat vermişdir. O, bu tədbirlərdən biri olan Uşaq və Ailələrə Dəstək mərkəzləri modelinin tətbiqi haqqında danışaraq Azərbaycanın 11 rayonunda fəaliyyət göstərən, Dövlət Komitəsinin tabeliyində olan, mərkəzlərin fəaliyyəti barədə məlumat verdi və bildirdi, ki bu mərkəzlər risk qruplu ailələrin bütün üzvlərinə fərdi yanaşma tətbiq edərək, ailələrin qiymətləndirmə sistemi üzərində qurulmuş xidmətləri əhatə edir. Sədr müavini bildirmişdir ki, Azərbaycan hökuməti uşaqların problemlərinin həlli, uşaq hüquqlarının tam həcmdə təmin edilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərir. Ölkə Prezidentinin sərəncamı ilə, 2012-ci ildə qəbul olunmuş “Uşaq Hüquqlarının yerinə yetirilməsinə Nəzarət Qaydaları”-nın təsdiq edilməsi dövlətin bu sahəyə xüsusi diqqətini bir daha təsdiqləyir. A.Sofiyeva çıxışında Uşaq Hüquqları sahəsində gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan işlərdən danışaraq, “Azərbaycan 2020- Gələcəyə baxış strategiyası” -çərçivəsində Azərbaycanın ailə və uşaq strategiyasının və ailə psixoloqu institutunun formalaşdırılması, məişət zorakılığı qurbanları üçün sığınacaqların yaradılmasının nəzərdə tutulduğunu qeyd etdi. Konfrans iştirakçıları Azərbaycanda uşaq hüquqlarının təmin edilməsi sahəsində həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişlər.

# Fransa Respublikasının paytaxtı Parisdə Ümumdünya Qadın Sammiti

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Fransa Respublikasının paytaxtı Parisdə keçirilən Ümumdünya Qadın Sammitində iştirak etmişdir. Ümumdünya Qadın Sammiti, qadınların iqtisadi inkişaf sahəsində mövcud olan praktik strategiyaları və ən yaxşı təcrübəni araşdırmaq məqsədilə keçirilən, biznes və hökümət liderlərinin beynəlxalq forumudur. 24-cü ilini qeyd edən forumun əsas iştirakçılarını biznes, hökümət və vətəndaş cəmiyyətinin nümayəndələri təşkil edir. Sammitdə Fransa Respublikasının Qadın, Gənclər, Şəhər və İdman naziri xanım Najat Vallaud Belkacem,Kosova prezidenti xanım Atifete Jahjaga,Vyetnamın vitse prezidenti xanım Nguyen Thi Doan, Malaziyanın birinci xanımı Datin Paduka Seri Rosmah binti Mansor, Kanadanın Əmək və Qadınların Statusu üzrə naziri xanım Kellie Leitch, İslandiyanın Daxili İşlər naziri xanım Hanna Birna Kristjansdottir,Yeni Zelandiyanın Sosial İnkişaf naziri xanım Tariana Turia, Mərakeş Krallığının Həmrəylik, Qadın, Ailə və Sosial İnkişaf naziri xanım Bassima Hakkaoui və digər ölkə liderləri iştirak edir. Sammit zamanı Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasında qadın sahibkarlığının genişləndirilməsi və ölkəmizin bu sahədə əldə etdiyi nailliyyətlər mövzusunda çıxış etmişdir.Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf üzrə Dövlət Proqramı və Sahibkarlığa Kömək Milli Fondunun qadın sahibkarlara ayırdığı maliyyə kreditləri, eləcə də Mərkəzi Asiya Ölkələrinin iqtisadiyyatı üzrə Xüsusi Proqram (SPECA) çərçivəsində qadın sahibkarlığının inkişafı üzrə keçirlən beynəlxalq konfransların verdiyi müsbət nəticələr barədə statistik məlumatlar qonaqların diqqətinə çatdırılmışdır. Eyni zamanda, komitə sədri Hicran Hüseynova Böyük Britaniyanın Məşğulluq naziri xanım Esther Mcvey, Qadın Məsələləri üzrə naziri xanım Nicky Morgan, Qazaxıstan Respublikasının Qadın və Ailə Məsələləri üzrə Milli Kommisiyasının sədri xanım Mahabbat Bekbosynovaa, Sloveniya Respublikasının Əmək, Ailə, Sosial Məsələlər və Bərabər İmkanlar naziri xanım Anja Mrak, Polşa Respublikasinin Bərabər Imkanlar üzrə Dövlət Katibi xanım Agnieszka Kozlowska–Rajewicz, Mərakeş Krallığının Həmrəylik, Qadın, Ailə və Sosial İnkişaf naziri xanım Bassima Hakkaoui, BƏƏ-in dövlət naziri xanım Maitha Salem Al Shamsi, ÇXR-ın Qadınlar Federasiyasının vitse prezidenti xanım Meng Xiaosi, Vyetnamın vitse prezidenti xanım Nguyen Thi Doan və bir sıra digər ölkə rəsmiləri ilə ikitərfli görüşlər keçirmiş və tərəflər gələcək əməkdaşlıq üçün fikir mübadiləsi aparmışlar.

# "Münaqişələr zamanı cinsi zorakılığa son qoyulması" mövzusunda qlobal sammit

Londonda keçirilən "Cinsi zorakılığa son" mövzusunda beynəlxalq sammit keçirilmişdir. Açılış mərasimində sammitin həmsədrləri – Böyük Britaniyanın xarici işlər naziri Uilyam Heyq və BMT-nin qaçqınlar üzrə ali komissarının xüsusi elçisi Ancelina Coli çıxış edərək, seçilmiş mövzu ilə bağlı beynəlxalq səviyyədə ciddi addımlar atılmasının vacib olduğunu, artıq bu istiqamətdə aparılan müzakirələrin, görüşlərin nəticə verməsinin, qəbul edilmiş qərarların icrasının vaxtının çoxdan çatdığını diqqətə çatdırmışlar. Sammit çərçivəsində "Nazirlər günü" adlı sessiya təşkil olunmuşdur. Azərbaycanı sessiyada Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın başçılığı ilə nümayəndə heyəti təmsil etmişdir. Sessiyada müxtəlif ölkələrdən gəlmiş nazirlərin, QHT rəhbərlərinin, mütəxəssislərin və başqa mövzu ilə əlaqədar rəhbər şəxslərin cinsi zorakılığın mahiyyəti və təsiri haqqında fikirlər dinlənilmişdir. Bundan başqa, sessiya müxtəlif ölkə təmsilçilərinə öz milli perspektivlərini və mövzu ilə bağlı problemlərini müzakirə etmək imkanı yaratmışdır.

Plenar iclasda Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək, bu sahədə Azərbaycanın mövcud vəziyyəti, dövlətin həyata keçiridiyi layihələrlə bağlı ətraflı məlumat vermişdir. Sammit çərçivəsində təşkil edilmiş iclasda çıxışlar dinlənilmiş, audiovizual təqdimatlar olmuşdur.

Eyni zamanda, beynəlxalq sammitdə Azərbaycan həqiqətlərindən bəhs edən müxtəlif kitab və digər materiallar nümayiş etdirilmişdir. Sammitdə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə nümayiş etdirilən materiallarda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun qurbanları, əsir və itkin düşən həmvətənlərimizdən bəhs edilmişdir. Materiallar sammitin ayrılmaz hissəsi hesab edilən "Fringe" adlı tədbirlər toplusu proqramında nümayiş etdirilmişdir. Azərbaycan həqiqətlərindən bəhs edən nəşrlər iştirakçılarda böyük maraq doğurmuşdur.

# Avstriyanın Vyana şəhərində ATƏT-in "Gender Bərabərliyinə Nəzər" mövzusu üzrə beynəlxalq konfrans

Avstriyanın Vyana şəhərində ATƏT-in Gender Bərabərliyinə Nəzər mövzusu üzrə beynəlxalq konfrans keçirilmişdir. Konfransda 50-dən çox dövlətin nümayəndəsi iştirak etmişdir. Bu tədbirin məqsədi gender aspektinin idarəedilməsi, böhran vəziyyətdə qadınların ictimai-siyasi həyatda iştirakı, iqtisadi hüquqlarının və imkanlarının genişləndirilməsində gender aspekti, qadınlara qarşı zorakılıqla mübarizə, gender bərabərliyinin təmin edilməsində institusional mexanizmlər olmuşdur. Konfransda Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovanın başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransın açılışında dövlətlərin ATƏT yanında nümayəndəliklərinin səfirləri, gender bərabərliyinin təmin edilməsi istiqamətində görülən işlərlə bağlı müxtəlif dövlətlərin nazirləri çıxış etdilər. Xanım Hicran Hüseynova konfransın açılış yığıncağında Azərbaycan Respublikasında qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahəsində qəbul edilmiş qanunvericilk aktları və dövlət proqramları haqqında ətraflı məlumat vermişdir. Bu sahədə Azərbaycan Hökumətinin, xüsusilə də, ölkə prezidenti İlham Əliyevin həyata keçirdiyi davamlı siyasətdən bəhs etmişdir. Eyni zamanda, xanım Hicran Hüseynova Ermənistanın işğalçılıq siyasəti nəticəsində 450 mindən çox qaçqın və məcburi köçkün qadınların taleyi və dövlət tərəfindən keçirilən reabilitasiya proqramları və cəmiyyətə reinteqrasiyası sahəsində həyata keçirilən layihələrdən danışmışdır. Tədbirin "İctimai-siyasi həyatda qadınların iştirakı" adlı sessiyasında xanm Hicran Hüseynova çıxış etmiş, siyasi və ictimai sahələrdə gender bərabərliyinin təmin edilməsinin vacibliyi, qadın hüquqlarının müdafiəsi sahəsində sosial araşdırmaların və islahatların rolu haqqında tədbir iştirkçılarına məlumatı təqdim etmişdi. O, çıxışında Azərbaycan Respublikasının gender bərabərliyiniin təmin olunması, məişət zorakılığı ilə mübarizə, qadın sahibkarlığının inkişaf etdirilməsi və qadın hüquqlarının müdafiəsi sahəsində qazandığı müsbət təcrübə və nailiyyətlərini konfrans iştirakçılarının nəzərinə çatdırdı. Sessiya iştirakçıları tərəfindən xanım Hicran Hüseynovaya suallar verilmiş və Azərbaycan Respublikasının qadın hüquqlarının müdafiəsi sahəsindəki islahatları və nailiyyətləri müsbət qiymətləndirilmişdir. Konfrans zamanı, Amerika Birləşmiş Ştatlarının, Serbiyanın, Rusiya Federasiyasının nümayəndələri Azərbaycan Respublikası ilə qadın hüquqlarının müdafiə edilməsi sahəsində ikitərəfli sazişlərin bağlanılması haqqında maraqlarını bildirmişlər. Konfrans zamanı Hicran Hüseynova, ATƏT tərəfindən hazırlanmış "Siyasi partiyalarda qadınların iştirakının dəstək edilməsinə dair bələdçi" kitabının təqdimatında iştirak etmişdi. Dəyirmi Masada, siyasi və ictimai birləşmələrdə qadınların iştirakının artırılması məqsədilə, dövlətlər öz təcrübələrini bölüşmüş və kitabın aktuallığı haqqında müzakirə aparmışlar. Tədbir çərçivəsində, Azərbaycan Respubliaksnının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, qadın hüquqlarının müdafiəsi, erkən nikahlarla və qadınlara qarşı zorakılıqla mübarizə, insan alverinin qarşısının alınması, reabilitasiya mərkəzləri haqqında çap məhsulları tədbir iştirakçıları arasında paylanılmışdır.

# "Ailə, məktəb və cəmiyyət" layihəsi çərçivəsində tədbirlər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə, Bakı şəhərinin orta məktəblərində valideyn-məktəb-şagird münasibətlərini gücləndirmək, ailə mühitinin və məktəbin uşaqların psixoloji durumlarına təsirini öyrənmək məqsədilə, 18 fevral 2014-cü il tarixində "Ailə, məktəb və cəmiyyət" adlı geniş miqyaslı maarifləndirmə layihəsinə start verilmişdir.
Layihə çərçivəsində orta məktəb psixoloqları üçün, Valideynlər Şurasının nümayəndələrinin iştirakı ilə, ekspertlər tərəfindən:
* Ailə dəyərlərinin qorunub saxlanılması, ailədə sülh və dözümlülük (tolerantlıq) mədəniyyətinin təbliği;
* Ailənin psixoloji iqliminə təsir edən amillər (ailədaxili münasibətlərin və ailə zorakılığının uşaqların təlim fəaliyyətinə, davranışına, psixoloji durumuna təsiri, ailədə yaranan problemlər və onların həlli yolları);
* Valideyn-məktəb-şagird münasibətlərinin qarşılıqlı əlaqəsinin düzgün qurulması;
* Sağlam həyat tərzi və reproduktiv sağlamlıq (qan qohumluğunun, erkən nikahın yaratdığı fəsadlar, nikahdan əvvəl tibbi müayinənin əhəmiyyəti, ziyanlı vərdişlərdən imtina) kimi, aktual mövzular ətrafında Bakı şəhərinin orta məktəblərində müzakirələrin aparılması nəzərdə tutulmuş və artıq, Xətai, Səbael, Binəqədi, Nəsimi, Yasamal rayonlarında belə müzakirələr aparılmışdır.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "YARAT" qeyri-kommersiya təşkilatının birgə layihəsi

Uşaqlar üçün bərabər imkanlar yaratmaq və onların iştirak hüququnun təmin edilməsi məqsədi ilə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "YARAT" qeyri-kommersiya təşkilatı aztəminatlı ailələrdən olan və valideyn himayəsindən məhrum olunmuş uşaqların yaradıcılıq bacarıqlarının dəstəklənməsinə yönəlmiş "BACARART" layihəsini birgə həyata keçirirlər. "BACARART" layihəsinin əsas məqsədi Azərbaycanın müxtəlif regionlarından olan istedadlı uşaqların yaradıcı potensialının inkişaf etdirilməsidir. Keçirilən ilk layihənin uğuru "YARAT" qeyri-kommersiya təşkilatını və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini əməkdaşlığın davam etdirilməsinə ruhlandırdı. Belə ki, 2014-cü il iyun ayının 9-14-də Saatlı və 17-21-də Göygöl rayonlarında "BACARART" layihəsinin birinci mərhələsi həyata keçirilməyə başlanılmışdır. Layihəyə ölkənin 10 bölgəsindən (Bakıının Xəzər rayonu, Göygöl, Sabirabad, İsmayıllı, Zərdab, Hacıqabul, Zaqatala, Saatlı, Goranboy və Ağdam) 50 istedadlı uşaq və yeniyetmə cəlb olunmuşdur. Layihə çərçivəsində müəllim vəzifələrini Vüsal Rəhim, Sitarə İbrahimova, Ramal Kazımov və Rəza Xəzari kimi peşəkar rəssamlar icra etmişlər. Layihənin ikinci mərhələsində layihə iştirakçıları və peşəkarlar tədris prosesini, Azərbaycanın ecazkar guşələrinin birində təşkil olunması nəzərdə tutulan, yay art-məktəbində davam etdirəcəklər. Əsrarəngiz mənzərələr, şəhər təlaşından uzaq məkanlar və sərbəst ünsiyyət hesabına hər bir uşağın mövcud potensialını maksimum dərəcədə aşkar etmək mümkündür. 2014-cü ilin noyabrında, BMT-nin Uşaq Hüquqları Konvensiyasının yaranmasının 25 illiyi münasibəti ilə, keçiriləcək tədbirlərdən biri də layihə ərzində yaradılan əsərlərin yekun sərgisinin təşkil olunmasıdır. Bu sərgi, iştirakçıların əksəriyyəti üçün yaradıcılıq debütu rolunu oynayacaq, onların təhsilinin davam etdirilməsi və rəssamlıq fəaliyyətinin genişləndirilməsinə kömək edəcəkdir.

# 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş "İstedadlı uşaqlar festivalı-2014"

30 may 2014-cü ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "YARAT" Müasir İncəsənət Məkanı ilə birgə, Beynəlxalq Muğam Mərkəzində, 1 iyun–Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş "İstedadlı uşaqlar festivalı-2014" adlı tədbir keçirmişdir. Tədbirdə dövlət qurumları, qeyri-hökumət təşkilatları və media nümayəndələri, həmçinin 2013-2014-cü illərdə Azərbaycanın bütün şəhər və rayonlarından beynəlxalq müsabiqə və yarışmalarda yüksək nailiyyətlər əldə edərək uğur qazanmış 200-dən çox uşaq iştirak etmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova uşaqları təbrik etmiş, ölkəmizdə həyata keçirilən dövlət uşaq siyasətinin uğurlu nəticələrindən danışmış, bu istiqamətdə mükəmməl qanunvericilik bazasının yaradıldığını və müvafiq beynəlxalq sənədlərin qəbul olunduğunu diqqətə çatdırmışdır. Sədr vurğuladı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmaqdadır. Azərbaycan dövlətinin başçısı İlham Əliyev və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu sahəyə diqqəti mühüm əhəmiyyət daşıyır.
Heydər Əliyev Fondunun bu sahədə fəaliyyətini qeyd edən Sədr bildirdi ki, Fond uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunmaları və uşaq problemlərinin həlli istiqamətində önəmli layihələr həyata keçirməkdədir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara, eyni zamanda, aztəminatlı, çoxuşaqlı, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara qayğı daim diqqət mərkəzindədir. Daha sonra UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mark Herevard çıxış edərək uşaqları təbrik etdi, Azərbaycanda ənənə halını almış bu bayramın yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi, həmçinin festivalda iştirak edən istedadlı uşaqların yaradıcılıq uğurlarını yüksək qiymətləndirərək onlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.
Tədbirdə uşaqların rəsm əsərləri nümayiş etdirilmiş, həmçinin 2013-2014-cü illərdə uğur qazanmış uşaqların fəaliyyətini əks etdirən "İstedadlı uşaqlar-2014" mövzusunda qısa filmin təqdimatı keçirilmiçdir. Sonra, elm-təhsil, yaradıcılıq və idman sahələrində Azərbaycanı beynəlxalq müsabiqələrdə və yarışlarda təmsil edərək qalib olan, yüksək nailiyyətlər qazanan uşaqlar mükafatlandırılmış, "Azərbaycanın gələcəyi" kuboku ilə təltif olunmuşlar. Tədbir konsert proqramı ilə davam etmişdir.

# "Bizi qoruyun" adı altında flaşmob

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hər il 1 İyun–Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə silsilə tədbirlər təşkil olunur. Təşkil edilən tədbirlərdə uşaq hüquqlarının müdafiəsi, cəmiyyətin diqqətinin bu istiqamətə yönləndirilməsi əsas məqsəd daşıyır. Silsilə tədbirlərin bir qismi QHT-lərlə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Dənizkənarı Milli Parkda Komitə "Hüquq Dünyası Hüquqi Təbliğat" İctimai Birliyi ilə 1 İyun-Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilmiş flashmob təşkil etmişdir. Flashmobun təşkil edilməsində məqsəd, bir daha, uşaqların hüquqları ilə bağlı mesajların cəmiyyətə çatdırılması, xüsusilə valideyn məsuliyyətinin artırılmasına yönəlmişdir. Flashmobda uşaqlar "Bizi qoruyun", "Hüquqlarımızı bilək", "İmkanlardan yararlanaq", "Biz gələcəyik" adlı şüarlar səsləndirmişlər. Sonda, uşaqlara və valideynlərə, Komitənin Fövqəladə Hallar Nazirliyi ilə birgə əməkdaşlığı çərçivəsində hazırladığı, "Valideyn qayğısı–uşaqların təhlükəsizliyi" adlı kiçik kitabçalar paylanılmışdır.

# Ombudsmanların XII Bakı beynəlxalq kanfransı

Bakıda "Qadın hüquqlarının təmin edilməsində milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların XII beynəlxalq konfransı işə başlamışdır. UNESCO-nun dəstəyi ilə keçirilən bu tədbirdə Avropa, Asiya və Amerikanın 15-dən çox ölkəsindən 30-dan artıq ombudsman və onların nümayəndələri, insan hüquqları sahəsində ekspertlər, beynəlxalq təşkilatların təmsilçiləri, hüquqşünas alimlər iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan Azərbaycanın insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova bildirmişdir ki, artıq ənənəvi olaraq keçirilən bu konfransın məqsədi insan hüquqlarının qorunması sahəsində əldə edilmiş təcrübənin bölüşdürülməsi, mövcud problemlərin müzakirəsi, bu istiqamətdə müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsidir.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, UNESCO üzrə Azərbaycan Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva ölkəmizdə qadın hüquqlarının qorunması ilə bağlı görülən işlər barədə məlumat vermişlər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova konfransın əhəmiyyətindən danışaraq bildirmişdir ki, Azərbaycanda qadın hüquqlarının qorunması istiqamətində güclü hüquqi baza mövcuddur. Ölkəmizdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan qadın siyasəti hazırda uğurla davam etdirilir. Milli Məclis sədrinin müavini Bahar Muradova Azərbaycanda qadın hüquqlarının qorunması və gender bərabərliyinin təmini istiqamətində görülən mühüm işlərdən danışmışdır. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Antonius Bruk ölkəmizdə insan hüquqları sahəsində görülən işləri yüksək qiymətləndirmişdir. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı Ofisinin Milli İnsan Hüquqları İnstitutları və Regional Mexanizmlər bölməsi rəhbərinin müavini xanım Afərin Şərifzadə təəssüflə demişdir ki, müasir dövrdə dünyada hələ də qadınlara qarşı zorakılıq halları müşahidə olunmaqdadır. O, dünyada münaqişələrin həlli, sülhün əldə olunması prosesində qadınların rolunun artırılmasının vacibliyini qeyd etmişdir. Konfransda "Azərbaycan-UNESCO: İnsan hüquqlarına əsaslanan tərəfdaşlıq" adlı kitab təqdim olunmuşdur. Bu nəşrdə, qurumun fəaliyyəti və prioritet istiqamətləri, Ombudsman ilə əməkdaşlığa dair mövzular yer almışdır. Konfransın yekununda Bakı Bəyannaməsi qəbul edilmişdir.

# KİV nümayəndələri üçün "Ailə dəyərlərinin KİV-də işıqlandırılması" mövzusunda təlim keçirilmişdir

Təlimin əsas məqsədi, KİV-də dərc və nümayiş olunan məlumatların uşaqlara, gənclərə və ümumilikdə ailələrə mənəvi və əxlaqi təsirinin yaratdığı actual problemlərin öyrənilməsi, bu problemlərin həlli yollarının araşdırılmasıdır. Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri də ailə siyasətidir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq, dövlət ailə siyasətinin həyata keçirilməsi məqsədi ilə, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilir. Bu tədbirlərin bir hissəsi kimi, KİV-in ailə məsələlərinin təbliğindəki rolunu nəzərə alaraq, Komitənin təşkilatçılığı və müvafiq sahələr üzrə ekspertlərin və KİV nümayəndələrinin iştirakı ilə "Ailə dəyərlərinin KİV-də işıqlandırılması" mövzusunda təlim keçirilmişdir. Təlimi giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva KİV nümayəndələrini salamlayaraq, müasir dövrdə onların üzərində böyük məsuliyyətin olduğundan bəhs etmiş, mediada əksini tapan materialların cəmiyyətə birbaşa mənfi və müsbət təsirlərini vurğulayaraq, KİV nümayəndələrinin işinin vacibliyindən söz açmışdır. Hər kəsə təlimdə uğurlar arzulayan A.Sofiyeva KİV nümayəndələrini hər zaman Komitə ilə fəal əməkdaşlığa dəvət etmişdir. Təlimdə ekspert qismində Komitənin İnformasiya və Sosial Analitik Araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov, Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova, İnformasiya və Sosial Analitik Araşdırmalar şöbəsinin baş məsləhətçisi Aynur Veysəlova, BDU-nun Jurnalistika fakültəsinin Televiziya və Radio jurnalistikası kafedrasının müəllimi Turac Qəhrəmanova iştirak etmiş, təlim iştirakçılarına "Azərbaycan ailəsi modelinin KİV vasitəsilə düzgün tanıdılmasının əhəmiyyəti", "KİV-də gender əsaslı zorakılıq məsələlərinin işıqlandırılmasının prinsip və standartları", "Jurnalistlərin hazırlanması" mövzularında təqdimatlar etmişlər. Təlimdə 15-ə yaxın KİV nümayəndəsi iştirak etmiş, sonda təlim iştirakçılarına, təlimdə fəal iştirak etdiklərinə görə, sertifikatlar və Komitə tərəfindən çap olunmuş maarifləndirmə materialları təqdim edilmişdir. Mühüm əhəmiyyət kəsb edən təlimin gələcəkdə davam etdirilməsi nəzərdə tutulmuşdur.

# İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi tərəfindən ölkənin regionlarını təmsil edən vətəndaş cəmiyyəti üzvləri üçün təlim

Təlim, İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin Avropa Birliyi və Böyük Britaniyanın Oksfam təşkilatının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycanda Milli Strategiya və kiçik istehsal vasitəsi ilə ərzaq təhlükəsizliyinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində təşkil edilib. "Regionlarda ərzaq təhlükəsizliyi problemlərinin qiymətləndirilməsi və monitorinqi sahəsində vətəndaş cəmiyyətinin bacarıqlarının artırılması" adlı təlimin keçirilməsində məqsəd region QHT-lərinin və mətbuatının diqqətini ərzaq təhlükəsizliyi problemlərinə yönəltmək, problemlərin qiymətləndirilməsi və monitorinqi sahəsində onların bilik və bacarıqlarını artırmaq olub. Təlimə Mingəçevir, Balakən, Zaqatala, Qazax, İmişli, Neftçala, Şəki, Ağdam, Bərdə, Masallı rayonlarını təmsil edən 15 vətəndaş cəmiyyəti üzvü–QHT nümayəndələri və media təmsilçiləri qatılıb. Təlimin 1-ci sessiyası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ekspertləri tərəfindən aparılıb. Komitənin ekspertləri "Gender sahəsindəki elmi araşdırmalar", "Gender bərabərliyi və məişət zorakılığı sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq öhdəlikləri" və "Gender bərabərliyi. Ərzaq təhlükəsizliyinin yaxşılaşdırılması və kənd təsərrüfatı sahəsində gender aspekti"mövzularında təqdimat etmişlər.

# Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın anadan olmasının 91-ci ildönümü münasibətilə "Qələbəyə doğru" intelektual bilik oyunu

Komitə tərəfindən hər il, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, akademik, oftalmoloq alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş tədbirlər keçirilir. Bu il, Zərifə xanım Əliyevanın 91 illik yubileyi ilə əlaqədar olaraq, Komitə tərəfindn 28 aprel 2014-cü il saat 15:00-da Park Inn otelində, Azərbaycan İntellektual Oyunlar Klubu ilə birgə, uşaqlar arasında "Qələbəyə doğru" intellektual bilik oyunu keçirilmişdir. Tədbir, Zərifə xanım Əliyevanın xatirəsinə həsr həsr olunmuş "Nur dolu ömür" adlı filmin nümayişi ilə başlamış, daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova tədbiri giriş sözü ilə açaraq, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolundan danışmışdır. Qeyd olunmuşdur ki, Azərbaycanın həyatında əvəzsiz xidmətləri olan ziyalılar həmişə yad olunur, xatirələrdə yaşayırlar. Ölkəmizin gələcəyi olan gənc nəsl belə ziyalıların, alim və ictimai xadimlərin həyat və yaradıcılıqlarını öyrənməli, onlardan nümunə götürməlidirlər. Rəsmi hissədən sonra yarışa start verildi. Yarış Bakı şəhərinin 12 rayonunu (Səbail, Nizami, Yasamal, Xətai, Xəzər, Suraxanı, Sabunçu, Binəqədi, Qaradağ, Nəsimi, Nərimanov, Pirallahı) təmsil edən məktəblilər arasında keçirilmişdir. Hər rayonun komandasında 6 nəfər iştirakçı və 4 nəfər dəstək qrupu iştirak etmişdir. Yarışda I yerin qalibi Nizami rayonunu, II yerin qalibi Xəzər rayonunu və III yerin qalibi Pirallahı rayonunu təmsil edən məktəblilər olmuşlar. I yerin qaliblərinə planşet, II yerin qaliblərinə "Swatch" saatı, III yerin qaliblərinə fləşkart və həmçinin, Komitə tərəfindən diplomlar təqdim edilmişdir. Eyni zamanda I, II və III yerin qalibi olmuş rayonların İcra Hakimiyyətlərinə diplomlar, 1-ci yerin qalibi olmuş Nizami rayonunun məktəblilərinə "Qələbəyə doğru" kuboku hədiyyə edilmişdir.

# "Yaşlı nəslin təcrübəsindən faydalanaq" adlı layihənin yekun konfransı keçirilmişdir

Layihə, 2013-cü ilin oktyabr ayından etibarən, Komitə tərəfindən Dövlət ailə siyasətinin dəstəklənməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, yaşlılara hörmət kimi ənənələrin davam etdirilməsi məqsədi ilə, Bakı şəhərinin bütün rayonlarında həyata keçirilmişdir. Yekun tədbiri giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbir iştirakçılarını salamlamış, layihənin məqsəd və önəmindən bəhs etmişdir. Komitə tərəfindən mütəmadi olaraq bu cür maarifləndirmə tədbirlərinin keçirildiyini vurğulayan Hicran Hüseynova, Azərbaycan xalqının öz tarixi köklərinə, mənəvi dəyərlərinə bağlı bir xalq olduğunu qeyd etmişdir. Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında ailənin böyük rol oynadığını söyləyən H.Hüseynova, son dövrlərdə, ölkə başçısı tərəfindən imzalanan fərmanlarda ailə siyasətinə böyük önəm verildiyini vurğulamış, qloballaşan dünyada milli dəyərlərin daha çox qorunmasına ehtiyac olduğunu söyləyərək, sağlam cəmiyyətin əsasında sağlam ailələrin qurulduğunu qeyd etmişdir. Daha sonra çıxış edən Millət vəkili, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva, Millət vəkili, Milli Məclisin Sosial Siyasət Komitəsinin sədri Hadı Rəcəbli, Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Məmmədova, Ağbirçək Sündüz Babayeva, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmər Cavadlı layihə barəsində fikirlərini bildirmiş, dəyərli tövsiyyələrini tədbir iştirakçıları ilə bölüşmüşlər. Tədbirdə yekunlaşmış layihənin və RİH-ləri tərəfindən layihə çərçivəsində keçirilmiş silsilə tədbirlərin qısa təqdimatı olmuşdur.

# "Gender bərabərliyi, qadın hüquqları və məişət zorakılığı" mövzusunda təlim

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Gender bərabərliyi, qadın hüquqları və məişət zorakılığı" mövzusunda təlim keçirmişdir. Təlimin məqsədi müfaviq sahələr üzrə mövcud qanunvericiliyin tətbiqi mexanizmləri barədə maarifləndirmə işinin gücləndirilməsidir. Təlimdə, Bakı Dövlət Universitetinin müəllim və tələbələri, həmin universitetin nəzdində vətəndaşlara hüquqi yardım göstərən "Hüquq klinikası"nın üzvləri, habelə məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət mərkəzlərinin hüquqşünasları iştirak etmişdilər. "Məişət zorakılığı sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi" mövzusunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova və "Azərbaycanda Gender bərabərliyi və qadın hüquqları sahəsində vəziyyət, beynəlxalq və milli qanunvericilik" mövzusunda həmin şöbənin müdir müavini Vəsilə Mohsümova çıxış etmişlər. Təlimdə praktik iş, müzakirələr aparılmış, sonda iştirakçılara Komitənin sertifikatları təqdim edilmişdir.

# Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin sosial işçiləri üçün təlim

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərində çalışan əməkdaşların bilik və bacarıqlarının, peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədi ilə, Komitə, Kontrapakt İnternational təşkilatı ilə birlikdə, Mərkəzlərin sosial işçiləri üçün "Ailələrin qiymətləndirilməsi və fəaliyyət Planının tərtibi" mövzusunda təlim təşkil etmişdir. Təlim Saatlı Uşaq və Ailələrə Dəstək Mərkəzində keçirilmişdir.Təlimdə Şüvələn, Sabirabad, Hacıqabul, Zərdab və Goranboy Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin sosial işçiləri iştirak etmişlər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin əməkdaşları üçün "Sosial işin təşkili" mövzusunda təlim Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Kontrapakt İnternational" təşkilatı ilə birgə, "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram» çərçivəsində, Göygöl rayonunda "Sosial işin təşkili" mövzusunda təlim təşkil etmişdir. Uşaq və Ailələrə Dəstək Mərkəzlərində, ailə əsaslı sosial iş aparan mütəxəssislərin peşəkarlığının artırılması məqsədilə, keçirilən təlimdə Göygöl, Qəbələ, Zaqatala və Ağdam rayonlarında fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin 12 nəfər əməkdaşı–psixoloq və sosial işçilər iştirak etmişlər. Göygöl Uşaq və Ailələrə Dəstək Mərkəzində təşkil edilmiş təlimdə iştirakçılar nəzəri biliklər əldə etməklə yanaşı, praktik bacarıqlara da yiyələnmişlər. Təlim iştirakçılarının əldə etdikləri biliklər qiymətləndirildikdən sonra onlara sertifikat verilməsi nəzərdə tutulmuşdur.

# Uşaq əməyi ilə bağlı növbəti regional tədbir Gəncə şəhərində keçirilmişdir

Komitə tərəfindən uşaq əməyi ilə bağlı Dövlət Əmək Müfəttişliyinin regional nümayəndələri, yetkinlik yaşına çatmayanlarla işləyən polis müfəttişləri, yerli icra hakimiyyəti orqanlarının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyalarının əməkdaşları üçün Bakı (Nizami rayonu), Quba, Gəncə, Yevlax, Bərdə və Lənkəranda təlimlər keçirilmişdir. Təlimdə şəhər və ətraf rayonlar üzrə əmək müfəttişləri, polis müfəttişləri, icra hakimiyyəti orqanlarının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyalarının əməkdaşları, həmçinin psixoloqlar iştirak etmişlər.

Təlim zamanı Komitə əməkdaşları uşaq əməyinin istismarı ilə mübarizədə beynəlxalq konvensiyalar, ölkə qanunvericiliyi, həmçinin problemin aradan qaldırılması istiqamətində beynəlxalq təcrübə ilə bağlı təqdimatlar etmiş, problemlə bağlı müzakirələr aparılmış, təklif və tövsiyələr dinlənilmişdir.

# İsmayıllı rayonunda "Öyrən, İdarə et Lider ol" mövzusunda təlim

Cari ilin noyabr ayında keçiriləcək Azərbaycan Uşaqlarının III Forumuna hazırlıq məqsədilə, Bakı şəhəri Sabunçu və İsmayıllı rayonlarında, Olimpiya İdman komplekslərində, Komitə və UNİCEF tərəfindən Bakı və respublikanın digər şəhər və rayonlarını təmsil edən uşaqların (Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumuna seçimlər zamanı xüsusi fərqlənmiş, eləcə də xüsusi kateqoriyadan, digər millətlərdən olan uşaqlar) iştirakı ilə «Öyrən, İdarə et, Lider ol"mövzusunda təlim keçirilmişdir. Təlim zamanı, cari ilin noyabr ayında keçirilməsi nəzərdə tutulan III Ümumrespublika Uşaq Forumunda müzakirə ediləcək müxtəlif mövzulara dair müvafiq məlumatlar uşaqlara çatdırılmış, eləcə də, uşaqların komanda ilə iş bacarığı, özünü ifadə etmə və liderlik keyfiyyətlərinin inkişaf etdirilməsinə yönəlmiş qrup işləri, müzakirələr aparılmış, müxtəlif intellektual oyunlar təşkil edilmişdir. Təlimlər Komitənin Uşaq Problemləri şöbəsinin əməkdaşları tərəfindən aparılmışdır. Təlim proqramı çərçivəsində uşaqlar xüsusi köynəklərlə təmin edilmiş, eləcə də onların bütün xərcləri Komitə və UNİCEF tərəfindən qarşılanmışdır. Sonda, uşaqlar təlimlərdə fəal iştiraka görə sertifikatla təltif olunmuşlar.

# Region qadınlarının ictimai-siyasi fəallığının daha da artırılması istiqamətində iş aparılır

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Yeni Azərbaycan Partiyası (YAP) ilə birgə, Azərbaycan Respublikasının regionlarında, bələdiyyə seçkiləri ərəfəsində qadınların ictimai-siyasi fəallığının daha da artırılması məqsədilə, regional görüşlər keçirməyə başlamışdır. Artıq Gədəbəy, Siyəzən, İmişli, Yardımlı, Ağstafa və onlara yaxın olan şəhər və rayonları təmsil edən fəal qadınlarla tədbirlər keşirilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və sədr müavini Sədaqət Qəhrəmanova tədbirdə qarşıdan gələn bələdiyyə seçkilərində qadınların fəallığının artırılması və dövlət qadın siyasətinin əsas istiqamətləri haqqında ətraflı məlumat vermişlər. Belə tədbirlər bələdiyyə seçkilərində qadınların elektoral fəallığının yüksəlməsi, onların bələdiyyə üzvü olmaq üçün seçkilərə namizəd kimi qatılması dövlət qadın siyasətinin əsas istiqamətlərindən birinə-qərar qəbulu səviyyəsində qadınların təmsilçiliyinin artırılmasına və gender bərabərliyinin təmin olunmasına xidmət edir. Görüşlərdə Yeni Azərbaycan Partiyası rayon təşkilatı qadınlar şurasının, müxtəlif sahələr üzrə Həmkarlar İttifaqlarının, kənd bələdiyyələrinin sədrləri, regionlarda fəaliyyət göstərən Heydər Əliyev Mərkəzlərinin, kənd və rayon məktəblərinin direktorları, sahibkar qadınlar, QHT-rəhbərləri və digərləri çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşdülər.

# "Yaşlı nəslin təcrübəsində faydalanaq" layihəsinin davamı

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Dövlət ailə siyasətinin dəstəklənməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, yaşlılara hörmət kimi ənənələrin davam etdirilməsi məqsədilə, mütəmadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir. Maarifləndirmə işlərinin davam etdirilməsi məqsədilə, 2013-cü ilin oktyabr ayında Komitə tərəfindən, Bakı şəhərinin rayon icra hakimiyyətləri ilə birgə, “Yaşlı nəslin təcrübəsindən faydalanaq” adlı genişmiqyaslı layihəyə start verilmiş, 2014-cü ildə layihə uğurla başa çatmışdır. Rayon İcra Hakimiyyətlərinin dəstəyi ilə, rayon Ağsaqqallar, Ağbirçəklər şurası üzvlərinin, yaşlı nəslin nümayəndələrinin, veteranların, gənclərin iştirakı ilə keçirilmiş tədbirlərdə:

* Milli-mənəvi dəyərlərin qorunub-saxlanılması, ailədə sülh və dözümlülük mədəniyyətinin təbliği;
* Sağlam həyat tərzinin təbliği (qan qohumluğunun, erkən nikahın yaratdığı fəsadlar, nikahdan əvvəl tibbi müayinənin əhəmiyyəti, ziyanlı vərdişlərdən imtina);
* Hüquqi maarifləndirmə (insan alveri hallarının qarşısının alınması, məişət zorakılığının ailədaxili münasibətlərə təsiri, nikah müqaviləsinin əhəmiyyəti) kimi aktual mövzular ətrafında müzakirələr təşkil olunmuşdur.

Tədbirlərin əhəmiyyətini, gənclərin marağını və əldə edilmiş nəticələri nəzərə alaraq, layihənin Respublikamızın bölgələrində də davam etdirilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə Gədəbəy, İmişli, Yardımlı, Ağstafa rayonlarında görüşlər keçirilir.

# "Sağlam ailə, sağlam gələcəyin təminatıdır"

Gənclərin Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərinə hörmət ruhunda tərbiyə olunması dövlət ailə siyasətinin prioritet istiqamətini təşkil edir. Bu məqsədlə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən, müxtəlif sahələr üzrə, ekspertlərin iştirakı ilə, gənc nəsl arasında ailə dəyərlərinin qorunub saxlanılması, onlara sağlam həyat tərzinin aşılanması istiqamətində “Sağlam ailə sağlam gələcəyin təminatıdır ” adlı genişmiqyaslı maarifləndirmə layihəsi həyata keçirilir. Layihə çərçivəsində Şəmkir, Beyləqan, Lənkəran və Qazax rayonlarında yerləşən N saylı hərbi hissələrin şəxsi heyəti və ekspertlərin iştirakı ilə görüşlər keçirilmişdir. Tədbirlərdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova milli mənəvi dəyərlərin qorunub saxlanmasından, ailədə qadın və kişinin üzərinə düşən məsuliyyətdən, ailə həyatı qurarkən düzgün seçimin vacibliyindən, zərərli vərdişlərin insan sağlamlığında yaratdığı fəsadlardan bəhs etmiş və bu tip tədbirlərin keçirilməsində əsas məqsədin gənclərə sağlam həyat tərzinin təbliği olduğunu vurğulamışdır. Çıxışlardan sonra tədbir iştirakçıları arasında mövzu ətrafında müzakirələr aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır. Mərkəzin kitabxanasına Komitə tərəfindən hazırlanmış çap materialları təqdim olunmuşdur.

# Komitə sədri Gəncə, Salyan, Göyçay, Goranboy, Yevlax, Şəki və Siyəzən rayonlarında vətəndaşların qəbulunu keçirmişdir

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müxtəlif problemlərinin həllinə dair tədbirlər həyata keçirirlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Gəncə, Salyan, Göyçay, Goranboy, Yevlax, Şəki və Siyəzən rayonlarında vətəndaşları qəbul etmişdir. Qəbulda adları çəkilən və onlara yaxın olan ətraf rayonların 160 vətəndaşı öz problemləri ilə bağlı müraciət etmişlər. Ailələri daha çox narahat edən məsələlər, xüsusilə, qızların təhsildən yayınmaları, erkən nikah və boşanmaların yaratdığı problemlər, qadın sahibkarlara dəstək, işlə təminat, alimentlərin ödənilməsindəki çətinliklər və digər məsələlərlə bağlı müraciətlər dinlənilmişdir. Bu müraciətlər arasında qadın hüquqlarının müdafiəsi, məşğulluq, sağlamlıq və digər məsələlər yer tutmuşdur.

Vətəndaşları qəbul edən Komitə sədri onların problemlərini dinləyərək, bir çoxunun elə yerindəcə həll edilməsinə nail olmuşdur. Eyni zamanda, Komitənin fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərə də baxılmış, onların araşdırılması üçün aidiyyəti üzrə göndərilmişdir. Qəbul zamanı vətəndaşları narahat edən bir sıra məsələlərə münasibət bildirilmiş, eləcə də yerlərdəki müvafiq icra strukturlarına yönləndirilmiş, həmin regionlardakı Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin rəhbərlərinə məsələlərin nəzarətdə saxlanılması tapşırılmışdır.





# "Azərbaycan Ailəsi" film festivalı

Festival 2009-cu ildən etibarən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə keçirilir. Yaranmış ənənəyə uyğun olaraq, bu il də, kinematoqrafiyanın və incəsənətin digər növlərindən istifadə etməklə, dövlət ailə siyasətinin həyata keçirilməsi, milli-mənəvi dəyərlərin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin təbliği və cəmiyyətdə mövcud olan problemlərin bu vasitələrin köməyi ilə işıqlandırılması məqsədilə, 03.02.2014-cü il tarixində "Azərbaycan ailəsi-2014" adlı film festivalına start verilmişdir. İlk dəfə olaraq, bu il, 6-cı festival çərçivəsində film müsabiqəsi ilə yanaşı foto müsabiqə də elan olunmuşdur. Festivala 3 ay ərzində 30-dan çox film və 20-dən çox fotoşəkil təqdim edilmişdir. İctimaiyyətin tanınmış nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən seçilmiş filmlər və fotolar, 22 may 2014-cü il tarixində, Nizami Kino Mərkəzində keçirilən Festivalın bağlanış mərasimində mükafatlandırılmışlar. İlk öncə tədbirdə festivala təqdim olunmuş film və fotolardan ibarət videoçarx nümayiş etdirilmiş, daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bütün qonaqları salamlamış, festival iştirakçılarını əvvəlcədən təbrik etmişdir. Artıq festivalın ənənə halını aldığını diqqətə çatdıran komitə sədri bu mötəbər yarışmanın ildən-ilə ölkənin hüdudlarından kənara çıxdığını söyləmişdir. Komitə sədri Hicran Hüseynova festivalın yüksək səviyyədə keçirilməsinə dəstək göstərən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya, həmçinin BMT-nin Əhali Fonduna, Mədəniyyət və Turizm Nazirliyinə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə minnətdarlığını bildirmişdir. O, qeyd etmişdir ki, bu gün dövlətimiz milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük səylər göstərir. Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət ailə siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan Prezidentinin ailələrin inkişafı və sosial vəziyyətlərinin daha da yaxşılaşdırılması istiqamətində imzaladığı müvafiq fərman və sərəncamlar, təsdiq etdiyi proqramlar bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Komitə sədri həmçinin qeyd etmişdir ki, ötən illər ərzində təşkilat komitəsinə, 13 xarici rejissor da daxil olmaqla, 170-ə yaxın film təqdim edilmiş və bu filmlərdən müxtəlif tədbirlərdə maarifləndirmə məqsədilə istifadə edilmişdir. Tədbirdə BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyinin baş müşaviri Fərid Babayev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru, əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək festivalın əsas məqsədinin cəmiyyətdə ailə institutunu və mənəvi dəyərləri möhkəmlətməkdən, eyni zamanda, milli ailə ənənələrini təbliğ edib yaşatmaqdan ibarət olduğunu bildirmişlər. Onlar milli kino sənətimizin təbliği və inkişafı üçün belə festivalların əhəmiyyətini qeyd etmiş, bu sahədə AQUPDK-nın fəaliyyətini yüksək qiymətləndirən məruzəçilər festivalın yüksək səviyyədə təşkil olunmasına görə Komitənin rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər. Mükafatlandırma mərasimində Milli Televiziya və Radio Yayımları Şurası tərəfindən, xüsusi fərqlənən TV layihəsi kimi, "Unudulmaz insan-Zərifə Əliyeva", Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən, sosial şəbəkədə ən çox izlənilən film nominasiyası üzrə, "Qeybdən məktublar", Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən, xüsusi fərqlənən TV layihəsi kimi, "Bu bizik", Gənclər və İdman Nazirliyi tərəfindən, xüsusi fərqlənən tələbə filmi kimi, "Ailədaxili münasibətlərin iş prosesinə təsiri", Mədəniyyət və Turizm Nazirliyi tərəfindən, xüsusi fərqlənən social çarx kimi, "Ana üçün ağla", Daxili İşlər Nazirliyi tərəfindən, xüsusi fərqlənən sosial çarx kimi, "Hər uşaq öz ailəsini əks etdirir", Səbail RİH tərəfindən, xüsusi fərqlənən sənədli film kimi, "İvanovka", Xətai RİH tərəfindən, xüsusi fərqlənən sənədli film kimi, "Şəxsiyyətin böyüklüyü", Qaradağ RİH tərəfindən, xüsusi fərqlənən TV layihə kimi, "Tarixdən gələn izlər", Nizami RİH tərəfindən, xüsusi fərqlənən TV layihə kimi, "12 Duod Ecimus", Sabunçu, Nəsimi, Binəqədi RİH tərəfindən xüsusi fərqlənən fotoşəkil blokları mükafatlandırılmışlar. "Ən yaxşı tələbə filmi" nominasiyası üzrə "Əlvida mənim dostum", "Ən yaxşı TV filmi" nominasiyası üzrə "Qağayı", "Ən yaxşı uşaq roluna görə" İlkin Yusifzadə, "Ən yaxşı fotoşəkil" nominasiyası üzrə Mirnaib Həsənoğlu, "Ən yaxşı xarici film" nominasiyası üzrə İran filmi "Ağ göl"və "Ən yaxşı idea" nominasiyası üzrə "Fəridin dünyası" filmi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun Azərbaycan Nümayəndəliyi tərəfindən mükafatlandırılmışlar. Tədbirdə tanınmış müğənnilərin ifasında Azərbaycan kinolarından musiqilər səsləndirilmişdir.

# "Ailə bayramı" 2014

BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-cü il qətnaməsinə müvafiq olaraq, hər il 15 may tarixi bütün dünyada "Beynəlxalq Ailə günü" kimi qeyd olunur. Bu münasibətlə may ayının 15-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) və Abşeron Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bayram tədbiri keçirilmişdir. 2006-cı ildən etibarən, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq 15 may "Beynəlxalq Ailə günü" ərəfəsində silsilə tədbirlər və yekun olaraq "Ailə Bayramı" keçirilir. Əvvəlki illərdə bayram Bakı şəhərində, Qax, Lənkəran, Şamaxı, Xaçmaz, İsmayıllı rayonlarında və Şəki şəhərində keçirilmişdir. Hər il olduğu kimi, bu il də, təntənəli şəkildə qeyd olunan "Ailə Bayramı"nda Respublikamızın bütün bölgələrindən 4 nominasiya üzrə ("Bacarıqlı əllər", "Yaradıcı ailə", "Milli mətbəx", "Nümunəvi ailə") 78 ailə iştirak etmişdir. Bayram tədbirində Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Abşeron rayonundakı bütün qonaqları salamlamış, Azərbaycan ailələrini bu gözəl bayram münasibətilə təbrik etmiş, bütün ailələrə cansağlığı, firavan həyat arzulamışdır. Belə tədbirlərin keçirilməsini dövlətin öz vətəndaşlarına verdiyi yüksək qiymətin bariz nümunəsi kimi dəyərləndirən RİH başçısı, Respublikamızda uğurla həyata keçirilən dövlət ailə siyasətinə görə, ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. Tədbirin əhəmiyyətini qeyd edən Ailə, Qadın və Uşaq Poblemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirmişdir ki, Beynəlxalq Ailə gününün keçirilməsinin əsas məqsədi cəmiyyətin diqqətinin ailə məsələlərinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin ailə həyatına hazırlığı, milli azlıqları təmsil edən ailələrin adət-ənənələrinin nümayişi, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin, nümunəvi çoxuşaqlı ailələrin, sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyasının təbliğidir. Statistik göstəricilərə toxunaraq, hal-hazırda Azərbaycanda 2.000.000 ailənin mövcudluğu haqqında məlumat verən Hicran Hüseynova, dövlətin əsasının məhz güclü və sağlam ailələr tərəfindən təşkil olunduğunu vurğulamışdır. Qeyd olunmuşdur ki, dövlətimizin başçısının gündəlik diqqət və qayğısı sayəsində Dağlıq Qarabağ münaqişəsi nəticəsində ciddi sosial-psixoloji çətinliklərlə qarşılaşan qaçqın və məcburi köçkünlərin, həmçinin aztəminatlı və çoxuşaqlı ailələrin bir çox problemləri artıq həll olunmuşdur. Bu sahədə dövlətin güclü və təkmil qanunvericilik bazası mövcuddur. Hicran Hüseynova, ailələrin qorunması üzrə həyata keçirilən layihələr çərçivəsində, əhalinin sağlamlığı sahəsində görülən işlərdən danışaraq demişdir ki, bu ilin əvvəlində Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yarım milyondan çox insan dispanserləşmədən keçmişdir. Bu isə dövlətin, xüsusilə Azərbaycan Prezidentinin ailələrin sağlamlığına olan diqqət və qayğısının əyani sübutudur. Bayram tədbirində çıxış edən Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov bildirmişdir ki, bütün nailiyyətlərin əsasında ailə səadəti durur. Ailə bütün zamanlarda cəmiyyətin ən müqəddəs təməl daşı hesab olunur. Azərbaycan xalqının dərin ailə ənənələri mövcuddur. Cəmiyyətimizdə ailə həmişə müqəddəs sayılmışdır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlət ailə siyasətinin təməli qoyulmuşdur. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün ailə məsələləri həm dövlətin, həm də cəmiyyətin önəm verdiyi ən əsas məsələlərdən, prioritet istiqamətlərdən biridir. Diqqətə çatdırılmışdır ki, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva beynəlxalq aləmdə Azərbaycan qadınının mənəvi zənginliyini, vətənpərvərliyini, ailə dəyərlərini uğurla təmsil edir. Artıq 7-ci dəfə keçirilən bayramda, ilk dəfə bu il, müxtəlif mövzuları əks etdirən guşələr tədbir iştirakçılarının istifadəsinə verilmişdir. Guşələrdə iştirakçı ailələr müxtəlif mövzular üzrə ekspertlərin mühazirələrini (hüquqşünas, həkim, psixoloq), faydalı məsləhətlərini (yaşlı nəslin nümayəndələrinin), dinləyə onları maraqlandıran sualları ekspertlərə ünvanlaya bilərdilər. Eyni zamanda, bayramda müxtəlif sərgilər təqdim edilmiş, bölgələrin mətbəxini əks etdirən milli xörəklərin, qədim peşə sahələrindən olan əl işlərinin hazırlanması nümayiş olunmuşdur. Hər il olduğu kimi, bu il də, bayram şənliyində Azərbaycan xalqının toy adət-ənənələri nümayiş olunmuş, bir gənc cütlüyün nikahı rəsmiləşdirilmiş, digər gənc cütlük üçün xınayaxdı mərasimi keçirilmişdir. Bundan əlavə, bayramda Rusiya, Belarus, Latviya dövlətlərinin ölkəmizdə olan fövqəladə və səlahiyyətli səfirləri, İordaniya Krallığının ölkəmizdə olan səfirliyinin səlahiyyətli nümayəndəsi iştirak etmişdir. Həmçinin, Rusiya və Belarus səfirliklərinin nümayəndələri, öz ölkələrinin adət-ənənələrini nümayiş etdirmək məqsədilə, bayram iştirakçılarına əl işlərindən, adətlərini əks etdirən atributlardan, milli mətbəx nümunələrindən ibarət sərgi nümayiş etdirmiş, rəqs nümunələri ilə bayrama şən əhval-ruhiyyə qatmışlar. Bayram tədbiri müxtəlif bölgələrdən gəlmiş yaradıcı ailələrin ifaları ilə davam etdirilmiş, sonda bütün tədbir iştikçıları, həmçinin tədbirdə Abşeron rayonunu təmsil edən uzunömürlü və çoxuşaqlı ailələr Ailə, Qadın və Uşaq Poblemləri üzrə Dövlət Komitəsi və Abşeron RİH tərəfindən diplomlar, qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.






# VALİDƏ TUTAYUQ

Keçən əsrdə Qarabağda məşhur olan Tutayuqlar ailəsinin adı gələndə ilk olaraq görkəmli alim, biologiya elmləri doktoru Validə xanım Tutayuq xatırlanır. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olan Validə xanım təkcə Azərbaycanda deyil, ölkəmizdən kənarda da tanınmış, nüfuzlu beynəlxalq elmi konfransların iştirakçısı olmuşdur. Onun atası Xaspolad Tutayuq Şuşanın məşhur və nüfuzlu şəxsiyyətlərindən biri olub. O, 1892-ci ildə Peterburq Universitetinin təbiət-riyaziyyat fakültəsini bitirmiş və bir müddət Rusiyanın müxtəlif şəhərlərində çalışmışdır. XX əsrin əvvəllərində isə Şuşaya qayıtmışdır. Onun anası məşhur Qacarlar və Mirzəyevlər nəslindən olub. Tutayuq ailəsinin ilk övladı olan Murad 1920-ci ildə Şuşa Realnı Məktəbini bitirmiş, sonra şəhərdəki ibtidai təhsil ocaqlarında hesab və rus dili müəllimi işləmişdir. Sonradan, Azərbaycan Ali Pedaqoji Institutunun fizika-riyaziyyat şöbəsində təhsil alan Murad Tutayuq, təyinatla, Naxçıvan Müəllimlər Seminariyasına göndərilmiş və uzun müddət Naxçıvan şəhərində müəllim işləmişdir. Murad Tutayuq qabaqcıl maarif xadimi, Naxçıvanın əməkdar müəllimi kimi fəxri adlara da layiq görülmüşdür. Naxçıvan Dövlət Iki illik Müəllimlər Institutuna dəvət edilən Murad Tutayuq burada müəllim, tədris işləri üzrə direktor müavini olmuş, sonra Azərbaycan Elmlər Akademiyasının Naxçıvanda yaradılan elmi bazasının direktoru təyin edilmişdir. Ömrünün sonuna qədər Naxçıvanda yaşayan Murad Tutayuq burada da vəfat etmişdir. Validə xanımın bacısı Fatma Tutayuq da respublikamızın ilk ali təhsilli qadın pedaqoqlarından biri olub. O, ilk təhsilini Şuşada almış, elə pedaqoji fəaliyyətinə də doğma şəhərdə başlamışdır. 1922-ci ildə, Şuşa qəza maarif şöbəsi tərəfindən, Bakıda yeni açılan Azərbaycan Ali Pedaqoji Qızlar Institutuna oxumağa göndərilən Fatma xanım təhsilini başa çatdıraraq, yenidən Şuşaya qayıtmış və burada vaxtilə işlədiyi məktəbə müdir təyin edilmişdir. Gənc pedaqoq 1926-cı ildə, həyat yoldaşı Haşım Feyzullayevin iş yerinin dəyişilməsi ilə əlaqədar, Salyana köçmüş və əri ilə birlikdə pambıqçılıq texnikumunda müəllim işləmişdir. Validə xanımın digər bacısı Zinyət xanım Azərbaycanın tanınmış səhiyyə təşkilatçısı və əməkdar həkim olub. O, ibtidai təhsilini Şuşada alıb, sonra Bakı Pedaqoji Texnikumunu bitirərək, Ağdam rayonunun Muradbəyli kənd məktəbində müəllim kimi fəaliyyətə başlayıb, bir müddət bu məktəbin direktoru olub. Sonralar ailə vəziyyəti ilə əlaqədar Göyçaya köçüb, bir müddət pambıq tədarükü birliyində çalışıb.

1932-1933-cü illərdə Quba şəhərindəki bir nömrəli uşaq evinin direktoru olub. 1935-ci ildə Azərbaycan Dövlət Tibb Institutunun müalicə-profilaktika fakültəsinə daxil olan Zinyət xanım təhsili başa çatdıqdan sonra təyinatla doğma Şuşaya qayıdıb və burada mərkəzi xəstəxanada həkim, səhiyyə şöbəsinin müdiri, baş həkim işləmişdir. Ikinci Dünya müharibəsi illərində göstərdiyi fədakarlığa görə medallar, “Səhiyyə əlaçısı” döş nişanları ilə təltif edilmişdir. 1980-ci ildə 79 yaşında Şuşada vəfat etmişdir. Validə Tutayuqun kiçik bacısı Ənvər Tutayuq repressiya illərinin ağırlığına tuş gələn ziyalılardan olub. O, 1910-cu ildə anadan olub. 1925-ci ildə orta məktəbi bitirdikdən sonra pedaqoji fəaliyyətə başlayıb. Bir müddət Şuşadakı “Nərimaniyyə” məktəbində dərs deyib. 1937-ci ildə Azərbaycan Dövlət Tibb Institutuna daxil olub. Lakin həmin vaxt həyat yoldaşı, Şuşa Pedaqoji Texnikumunun müəllimi Əyyub Hacıyev müsavatçı kimi həbs edilib. Onu əksinqilabçılıqda, antisovet təbliğat aparmaqda təqsirləndiriblər. Ərinin antisovet təşkilatının üzvü olduğu barədə çıxarılan hökmə görə Ənvər xanımı da, xalq düşməninin arvadı kimi, həbs edərək Bayıl həbsxanasına göndəriblər. 1938-ci ilin aprelində Ənvər xanıma səkkiz il iş kəsilib və cəzasını çəkmək üçün Mordova Muxtar Sovet Sosialist Respublikasının Temnikov şəhər islah-əmək düşərgəsinə göndərilib. Tutayuq ailəsinin sonbeşiyi olan Validə Tutayuq 1914-cü ildə Şuşada anadan olub. 1930-cu ildə Azərbaycan Kənd Təsərrüfatı Institutunun “Bağçılıq və bostançılıq” fakültəsinə daxil olan Validə xanım 1932-ci ildə həmin institutda preparator vəzifəsinə qəbul edilərək əmək fəaliyyətinə başlamış və burada axşam şöbəsində təhsilini davam etdirmişdir. 1934-cü ildə aspiranturaya qəbul olunan Validə Tutayuq K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasına ezam edilir, sonralar doğma institutuna qayıdaraq, 1939-cu ildən botanika kafedrasına başçılıq edir. 1949-cu ildə doktorluq dissertasiyası müdafiə edir. Validə xanım 35 yaşında biologiya elmləri doktoru elmi dərəcəsini alır və bu sahədə ilk azərbaycanlı qadın elmlər doktoru olur. Validə Tutayuq 1957-ci ildə Azərbaycan EA Botanika Institutuna direktor təyin olunur. O, geniş profilli botanika və biologiya üzrə milli kadrların hazırlanması üçün Azərbaycan dilində ilk dərsliklərin müəllifidir. 1968 -1972-ci illərdə V.Tutayuqun rəhbərliyi ilə Azərbaycanın qış və yay otlaqlarının geniş geobotaniki tədqiqi aparılmışdır. Q, 250-dən artıq elmi əsərin, o cümlədən, 10 dərsliyin, 9 monoqrafiyanın müəllifidir. V.Tutayuq, eyni zamanda, Azərbaycan KP MK-nın üzvü olmuşdur. 1974-cü ildə Azərbaycan SSR Ali Sovetinin fərmanı ilə Validə xanım “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Validə Tutayuqun elmi tədqiqatı, əsasən, Azərbaycan dendroflorasının, çiçəyin teratologiyasının öyrənilməsinə həsr edilmişdir. O, 1959-cu ildə, Kanadanın Monreal şəhərində, dünyanın 72 ölkəsindən gəlmiş 6 mindən çox alimin iştirak etdiyi botaniklərin IX beynəlxalq konqresində məruzə ilə çıxış etmişdir. Həmin ərəfədə Validə Tutayuqun “Çoxləçəkli çiçəklərin quruluşu” monoqrafiyası təzəcə çap edilmişdi. Bu nəşr təkcə keçmiş sovetlər birliyində deyil, həm də bir çox xarici ölkələrdə böyük əks-səda doğurmuşdu. Konqresdə bu məsələ də gündəmə gətirilmiş və Validə Tutayuqun bu sahədəki xidmətləri yüksək dəyərləndirilmişdir. Bu andan etibarən, dünyanın 20-dən çox ölkəsində onun təcrübəsini öyrənməyə başlamışlar. Validə Tutayuq həm bəzək, bağçılıq və yaşıllaşdırma sahəsində mütəxəssis idi, həm də respublikanın müxtəlif rayonlarında bir sıra ekspedisiyalar həyata keçirərək anatomik tədqiqatlar aparırdı. Onun rəhbərliyi ilə ötən əsrin 70-ci illərində respublika otlaqlarının geobotanik cəhətdən öyrənilməsi dövlət əhəmiyyətli iş kimi dəyərləndirilmişdi. Validə Tutayuqun rəhbərliyi ilə təşkil olunan ekspedisiyalarda 100-dən artıq adam iştirak edirdi. O, 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdi. 1974-cü ildə Validə xanımın 60 illik yubileyi respublikanın elmi ictimaiyyəti tərəfindən yüksək səviyyədə qeyd edildi və həmin günlərdə görkəmli alim “əməkdar elm xadimi” adına layiq görüldü. Validə xanımın rəhbərliyi ilə onlarca elmlər doktoru və namizədlər yetişmişdi. Cəmi 66 il ömür sürən Validə Tutayuq 12 noyabr 1980-ci ildə Gəncədə vəfat etmişdi.




# ŞƏFİQƏ AXUNDOVA

Şəfiqə Qulam qızı Axundova 1924-cü il yanvarın 21-də Şəkidə, ziyali ailəsində anadan olub. Atası, Axundov Qulam Bağır oğlu, dövlət işçisi idi. Şəfiqə xanımın anası, Züleyxa Səməd qızı isə, evdar qadın idi. Onların ailəsində Şəfiqə xanımdan savayı İsmət, Tahir, Nəriman Zümrüd və Rəfiqə kimi övladları böyüyürdü. Bacısı Zümrüdün Şəfiqə xanımın həyatında çox mühüm əvəzedilməz xidmətləri olmuşdur. Qədim tarixi, şirin, məzəli söhbətləri, duzlu zarafatları, gözəl mənzərəsi, füsunkar təbiəti olan Şəki torpağında gələcəyin böyük sənətkarı böyüyürdü. Amma, onun parlaq gələcəyi hələ heç kimə bəlli deyildi. Balaca Şəfiqə adi körpələrdən biri idi. Axı, Axundovlar ailəsi nə biləydi ki, bu körpə gələcəyin görkəmli sənətkarı olacaq. Əksinə, anası Züleyxa xanım qızının məhz həmin gün dünyaya gəlməsindən bir qədər məyus olmuşdu. Şəfiqə xanım bu haqda anasının dilindən eşitdiklərini belə xatırlayırdı: "Mən doğulandan sonra anam gözlərini açıb ki, yanında heç kəs yoxdur. Yalnız bir qadın var idi. Soruşub ki, bəs bu camaat necə oldu? Cavabında o, qohumumuz qadın deyib ki, ay Züleyxa, bilirsən V.I.Lenin vəfat eləyib. Buna görə də hamı mitinqə gedib. Bu ölüm xəbərini eşidən anam çevrilib mənə baxır və deyir – Can bala, nə pis gündə doğuldun." Görünür bu da bir qismətdir, sənətkarın həyatında bu da bir fövqəladəlikdir. Şəfiqə xanım həmişə öz doğum günündə tarixdə adı əbədiləşən bir şəxsiyyətin vəfatını da xatırlayırdı. Bəlkə də bu tarixi zərurətdən doğan bir haldır ki, həmin gün bir məşhur şəxsiyyət dünyadan gedib, digəri isə dünyaya gəlib. Gələcəyin görkəmli simalarından olan bir insan bu işıqlı dünyanın işığını daha da artırıb. Beləcə, Şəki mahalının sayılıb-seçilən Axundovlar ailəsində Şəfiqə adlı balaca bir qız böyüyürdü. Lakin bu balaca qızın xislətində böyük bir həyat eşqi varmış. Onda bu həyat eşqini yaradan ən ümdə cəhət isə, istedadı idi. Elə Şəfiqəni yaşıdlarından fərqləndirən də onun istedadı olub, o, başqa uşaqlar kimi vaxtını boş yerə sərf etməyib, dünya gözəlliyinə adi gözlə baxmayıb. İlk təhsilinə Şəki şəhərindəki 6 saylı orta məktəbdən başlayan Şəfiqə, atasının işi ilə əlaqədar olaraq, ailəsi ilə birgə Bakıya köçür və təhsilini Bakıda, 6 saylı orta məktəbdə, davam etdirir. Şəfiqə xanımın həyatında, sənətə gəlişi ilə bağlı, maraqlı faktlar çox olub, xeyirxah insanlarla görüşlər, ona sanki ruh verib. Amma, bu yolda Şəfiqə xanıma mane olan, onu musiqiçi olmaqdan çəkindirən atası Qulam Axundov da vardı. Şəfiqə xanımın söhbətlərindən aydın olur ki, atası onu həkim görmək istəyirmiş. Musiqiçi olmasına qətiyyən razı deyilmiş. Hətta musiqi sənətini seçdiyini biləndə o, qızı Şəfiqəyə bəzi cəzalar da veribmiş. Atası çox ciddi adam idi, çox danışıb-gülməyi xoşlamazdı. Musiqiyə bir o qədər də aludə deyildi. Evlərində bir piano olmasına baxmayaraq, həmişə onu qıfıllı saxlayardı ki, balaca Şəfiqə çalmasın. Qızının musiqiçi olmağını heç istəmirdi. Deyirdi: "O sənət gələcəkdə sənə çörək qazandırmayacaq." Bütün bunlara baxmayaraq, Şəfiqə musiqidən ayrıla bilmirdi və bu yolda anası ona çox kömək edirdi. Şəfiqə Axundova atası ilə bağlı xatırlayırdı: "Atam qəzəbindən mənə bəzi cəzalar da verirdi. Yadımdadır ki, o, bir dəfə mənim konservatoriyaya getdiyimdən xəbər tutanda məni hətta evə buraxmadı və mən qonşuda gecələməli oldum. Dəfələrlə qarlı, soyuqlu havalarda o, mənə belə cəzalar verirdi. Anama da acıqlanır və deyirdi ki, qoy onun ağlı başına gəlsin və özünə düz-əməlli bir sənət seçsin.

Bəlkə də, elə qarlı-soyuqlu havaların təsirindən mənim hətta böyrəyim zədələndi və professor Cavadzadə cərrahiyyə yolu ilə mənim bir böyrəyimi çıxartdı. Bax, o düzdür ki, sənət qurban tələb edir. Mənim də ilk qurbanım elə bu xəstəliyim oldu. Amma şükürlər olsun ki, mən xeyirxah insanların sayəsində öz sənət ideallarıma qovuşdum". Və Şəfiqə xanım 1943-1944-cü illərdə A.Zeynallı adına Bakı Musiqi Məktəbində oxuyarkən Üzeyir Hacıbəyovdan dərs alır. 1956-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq ixtisası üzrə B. Zeydmanın sinfini bitirir. Şəfiqə xanım, 1972-ci ildə «Gəlin qayası» operasını yazmaqla, Şərqin ilk opera yazan qadın bəstəkarı olmuşdur. O, "Ev bizim, sirr bizim» operettasının, simli kvartet üçün pyeslərin, dramatik teatr «Aydın», «Əlvida Hindistan!», «Nə üçün yaşayırsan?» və digərlərinin, uşaq tamaşalarına yazılan musiqinin «Təlxəyin nağılı», «Dovşanın ad günü» və s. müəllifidir. Onun Azərbaycan şairlərinin şeirlərinə bəstələdiyi 300-ə yaxın gözəl lirik mahnıları və romansları xalq arasında çox populyardır. Şəfiqə xanım 1998-ci ildə Azərbaycan Respublikasının xalq artisti adına layiq görülüb. 2004-cü ildə isə «Şöhrət» ordeni ilə təltif edilib. Şərəfli, lakin məşəqqətli həyat yaşayan Şəfiqə Axundova, uzunsürən xəstəlikdən sonra, 26 iyul 2013-cü ildə 1 saylı Şəhər Kliniki Xəstəxanasında dünyasını dəyişdi. Bəzən belə olur, öz fəaliyyəti və yaradıcılığı ilə ilkə imza atan, tarix yaradan İnsan şəxsi xoşbəxtliyini, həyatını qura bilmir, qurban verir. İlk dəfə sağlamlığını qurban verən Şəfiqə xanım çox sınaqlardan keçərək, bir həqiqəti dərk etdi, onun missiyasi daha vacibdir. Və o bu missiyanı ləyaqətlə yerinə yetirdi.



**70 il**

# HACIBALA ABUTALIBOV

Azərbaycan Respublikası Bakı şəhər İcra hakimiyyətinin başçısı

Hörmətli Hacıbala müəllim,
Sizi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.
70 yaş ömrün müdriklik çağıdır. İnsan ömrünün dəyəri sadəcə yaşadığı illərlə deyil, gördüyü işlərlə, xeyirxah əməllərlə ölçülür. Bu baxımdan Siz kamil bir həyat yaşamı¬sınız. Uzun illərdən bəri müxtəlif dövlət vəzifələrində ləyaqətlə fəaliyyət göstərirsiniz. Siz bütün həyatınız boyu Azərbaycan xalqına sədaqət göstərmiş, yüksək peşəkarlığınız və insanlara həssas münasibətinizlə, cəmiyyətdə dərin nüfuz qazanmısınız. Görkəmli dövlət xadimi kimi milli dövlətçi¬liyimizin daha da möhkəmləndirilməsinə əvəzsiz töhfələrinizi verirsiniz.
Bakı şəhər İcra hakimiyyətinin başçısı olaraq möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının müəyyən etdiyi siyasətin həyata keçirilməsi, xalqımızın ümdə problemlərinin həlli üçün əlinizdən gələni əsirgəmirsiniz. Azərbaycanın inkişafı yolunda böyük xidmətlər göstərir, yorulmadan çalışırsı¬nız.
Respublikamızın paytaxtı Bakı şəhərinin abadlaşması, bununla yanaşı, tarixiliyinin qorunması və müasir elementlərin xüsusi sənətkarlıqla işlədilməsi istiqamətində apardığınız işlər vətəndaşlarımızın və qonaqlarımızın zövqünü oxşayır.
Siz, eyni zamanda, yüksək key¬fiy¬¬yətlərə malik, milli-mənəvi dəyərləri yaşadan vətənpərvər ziyalısınız. Fizika-riyaziyyat sahəsində apardığınız tədqiqatlar özünəməxsus yer tutur. Qədirbilən xalqımız Sizin Vətən qarşısındakı xidmətlərinizi yüksək dəyərlən¬dirir. Sizi bir daha yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, möhkəm can sağlığı, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.



**80 il**

# AKIF ƏLİZADƏ

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik, əməkdar elm xadimi

Hörmətli Akif müəllim,
Sizi əlamətdar və şərəfli yubleyiniz münasibəti ilə ürəkdən təbrik edirik.
Mənalı ömür yolu keçərək, həyatınızı Azərbaycan elminə həsr etmişsiniz. Azərbaycanda geologiya və geofizika elmi sahəsində Sizin uğurlu fəaliyyətinizin nəticəsi kimi elmin bu mühüm sahəsinə öz töhfələrinizi vermişsiniz. Təsadüfi deyil ki, elmi ədəbiyyatda bu dövr, yəni 1960-70-ci illər Azərbaycan geologiya elminin qızıl dövrü adlandırılır.
Orijinal tədqiqatlarınızın nəticələri yüksək qiymətləndirilmiş, onların çox hissəsi dərslik və dərs vəsaitlərinə daxil edilmişdir. Məhz Sizin rəhbərliyinizlə yaradılmış və nəşr edilmiş səkkiz cildlik unikal fundamental əsərlər-"Azərbaycan geologiyası", habelə ensiklopedik "Azərbaycanın mineralları" atlası öz elmi və maarifləndirici əhəmiyyətini illərlə qoruyub saxlayacaqdır. Sizin araşdırmalarınız dünya elmi ictimaiyyəti tərəfindən də qəbul edilir və təcrübədən keçirilir.
Bundan əlavə Siz uzun illərdir ki, Geologiya İnstitutunda direktor kimi fəaliyyət göstərir, burada elmi nailiyyətlərin həyata keçirilməsi və elmi kadrların hazırlanması işinə bilavasitə başçılıq edirsiniz. Heç şübhəsiz ki, Azərbaycanda geologiya elminin qorunmasında və zənginləşdirməsində Sizin rolunuz danılmazdır.
Məhz ölkə Prezidenti İlham Əliyev cənablarının diqqət və qayğısı sayəsində Azərbaycan elmi özünün parlaq inkişaf dövrünü keçirir. Azərbaycan ziyalılarının elmin bu və ya digər sahəsinin inkişafındakı xidmətləri xalqımız və dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Sizin Əməkdar elm xadimi adına, habelə Respublika Dövlət Mükafatı Laureatına və "Şərəf" oredeninə layiq görülməyiniz, eləcə də Milli Elmlər Akademiyasının Prezidenti seçilməyiniz buna əyani sübutdur.
Sizi özümün bir daha səmimi qəlbdən təbrik edir, Sizə can sağlığı, səmərəli və gərgin elmi fəaliyyətinizdə uğurlar arzulayırıq.

Hörmətli Rəna xanım,
Ömrünüzün dəyərli, mənalı və səmərəli dövrü olan yubileyiniz münasibətilə Sizi təbrik edirik.
Müstəqil Azərbaycan Respublikasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil və elmə dövlət qayğısı siyasəti by gün möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında uğurla davam etdirilir. Azərbaycan elminin və təhsilinin inkişafı, ölkəmizin tərəqqisi yolunda fədakar əməyiniz yüksək qiymətə layiqdir. Azərbaycan elm tarixində, xüsusilə, gender siyasəti və probleminin tədqiq olunmasında ilklərə imza atan cəsarətli qadın ziyalılarımızdan biri olaraq, digər qadın tədqiqatçılara daim stimul vermisiniz. Siz fəlsəfə, politologiya və gender sahəsində gənc mütəxəssislərin, istedadlı kadrların formalaşdırılmasına böyük zəhmət sərf edirsiniz. Apardığınız tədqiqat işləri gender və fəlsəfə tariximizin öyrənilməsinə dəyərli töhfədir.
Siz təcrübəli pedaqoq, alim, gözəl insan, fəal ictimai xadimsiniz. Elm və gender araşdırmaları istiqamətində Belçika-Azərbaycan Dostluq Cəmiyyətində, Türkiyə-Azərbaycan Qadınları Assosiasiyasında elmi qrupun üzvü kimi fəaliyyətiniz danılmazdır. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasındakı fəaliyyətiniz, ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında aktiv iştirakınızın göstəricisidir. Respublikanın qadın hərəkatında fəal mövqe tutursunuz və böyük nüfuz qazanmısınız. Demokratik, hüquqi dövlət quruculuğunda Sizin kimi ziyalı qadınlara həmişə ehtiyacı var. Sizin prinsipial və davamlı fəaliyyətiniz xalqımız və dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilməyiniz isə bunun bariz nümunəsidir.
Sizi bir daha yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.




## RƏNA MİRZƏZADƏ

AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Politologiya və Siyasi Sosiologiya şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru




## ASYA HACIYEVA

Bakı Dövlət Universitetinin dosenti, tarix elmləri namizədi

Hörmətli Asya xanım,
Əlamətdar yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edirik.
Sizin alim, pedaqoq və şəxsiyyət kimi keçdiyiniz şərəfli həyat yolu gənc nəsil üçün parlaq nümunədir.
Uzun illərdən bəri göstərdiyiniz səmərəli fəaliyyətiniz sayəsində Siz elmi ictimaiyyət arasında çox böyük nüfuz qazanmısınız. Respublikamızı dəfələrlə elmi forumlarda layiqincə təmsil edərək, siyasi tarixin ən aktual problemlərinə dair dəyərli elmi araşdırmalar apararaq, ölkəmiz üçün yüksək səviyyəli mütəxəssislər hazırlayaraq pedaqoq kimi cəmiyyətdə qazandığınız nüfuz danılmazdır.
Xüsusilə qeyd etmək lazımdır ki, Bakı Dövlət Universitetində çalışdığınız illər boyunca peşəkar kadrların yetişdirilməsində yaxından iştirak etmiş, diplomatik elitanın formalaşdırılması prosesinə mühüm töhfələr vermisiniz.
Özünüzün fəal ictimai mövqeyinizlə seçilirsiniz. Qadınların ictimai həyatda geniş iştirakının təmin edilməsi istiqamətində ardıcıl fəaliyyət göstərirsiniz. Siz həm də, milli ailə dəyərlərinin layiqli qoruyucusu, fədakar ana, gözəl xanım, yüksək mənəvi keyfiyyətlərə malik alicənab insan kimi dərin hörmət qazanmısınız.
Bir daha sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı, səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

# Rəhilə Terequlova (Hacıbababəyova)

# 132 il



Ölkəmizdə qadınların təhsilə cəlb edilməsi, qadınlar arasında savadsızlığın və geriliyin aradan qaldırılması sahəsində əhəmiyyətli rolu olmuş ziyalı qadın müəllimlərindən biri də müsəlman qızlar üçün ilk qız məktəbinin müəllimməsi Rəhilə xanım Terequlova (Hacıbababəyova) olmuşdur. Qeyd edək ki, Rəhilə xanım Terequlova tanınmış xeyriyyəçi H.Z.Tağıyevin çağırışına səs verərək Bakıya gəlmiş və bir müddət Aleksandriyski məktəbinin aparıcı müəllimlərindən biri olmuşdur.

Rəhilə xanım Terequlova 1882-ci il avqustun 29-da Tiflisdə anadan olmuşdur. O, 1900-cü ildə Tiflis şəhərində "Müqəddəs Nina" qadınlar məktəbində təhsilini başa vuraraq VIII əlavə sinfə daxil olmuş və təhsilini bitirdikdən sonra ev müəllimməsi adına layiq görülmüşdür. Rəhilə xanım Terequlova pedaqoji fəaliyyətinə 1901-ci ildən etibarən Tiflis şəhərində başlamışdır. O, 1901-1902-ci illərdə Tiflisdə müəllimlik etmişdir.

Tanınmış xeyriyyəçi-mesenat H.Z.Tağıyev 1902-ci ildə Rəhilə xanım İbrahim qızı Terequlovanı müsəlman qızlar üçün təşkil etdiyi İmperatrisa Aleksandra Fyodorovnanın adını daşıyan qız məktəbində işləməsi üçün Bakıya dəvət etmişdir. Rəhilə xanım Terequlova 1902-ci il oktyabrın 20-də Bakıda Aleksandriyski qadın məktəbində müəllimə vəzifəsinə qəbul edilmiş və 1902-1907-ci illər ərzində həmin məktəbdə müəllimə vəzifəsində çalışmışdır.

Rəhilə xanım Terequlova 1907-ci il mayın 9-da Mehdi bəy Hacı bəy oğlu Hacıbabayovla nikaha girərək ailə həyatı qurmuşdur. 1910-cu il fevralın 14-də onların oğlu İbrahim bəy anadan olmuşdur.

1908-ci il dekabrın 20-də Bakı şəhər III rus-tatar (rus-azərbaycan) qadın məktəbinə müdir təyin edilmişdir.

Qeyd edək ki, Rəhilə xanım Hacıbababəyova məktəb komissiyasının 12 yanvar 1909-cu il tarixli iclasının qərarı ilə məktəbin müdiri vəzifəsinə seçilməsinə baxmayaraq, ümumi qaydalarla tutduğu vəzifəsinə təsdiq olunması mümkün olmamışdır. Çünki Rəhilə xanım Hacıbababəyova vaxtı ilə Tiflis şəhərində "Müqəddəs Nina" qadınlar məktəbində təhsilini başa vuraraq ali-ibtidai məktəb müəllimməsi adına deyil, ev müəllimməsi adına layiq görülmüşdür. Bakı 3-cü qadın ali-ibtidai məktəbin müdiri Rəhilə xanım Terequlova sonralar Qafqaz Təhsil Dairəsinin Popeçitelinə ünvanladığı 28 noyabr 1916-cı il tarixli raportunda bu məsələyə də toxunaraq qeyd edirdi: "Təxminən 1906-cı ildə kazan tatarları öz şəxsi vəsaitləri hesabına Bakı şəhərində oğlan və qızların birlikdə təhsil aldıqları ibtidai məktəb açmışdılar. Vəsaitin və hazırlıqlı pedaqoji heyətin yoxluğu ucbatından bu məktəb öz mövcudluğunu güclə qoruyub saxlaya bilirdi. Nəhayət ki, 1908-ci ilin dekabrında Bakı Şəhər Muxtariyyatı bu məktəbi onu açanların xahişi ilə öz sərəncamına götürərək həmin təhsil ocağını 10-cu rus-tatar məktəbi adlandırmış və mən bu məktəbə müdir təyin edilmişdim".

Öz dövrünün bir neçə görkəmli qadın pedaqoqları kimi Rəhilə xanım İbrahim qızı Hacıbababayovanın da Azərbaycanda qadınların təhsilə cəlb edilməsi, qadınlar arasında savadsızlığın aradan qaldırılması, onların maarifləndirilməsi sahəsində əhəmiyyətli xidmətləri olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Rəhilə xanım pedaqoji fəaliyyətindəki xidmətlərinə görə vaxtilə Qafqaz tədris dairəsi tərəfindən mükafatlandırılmışdır.

Rəhilə Hacıbababəyova xeyriyyəçilik sahəsində də fəaliyyət göstərmişdir. O, valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım etmək məqsədilə 1914-cü il noyabrın 21-də yaradılmış Bakı müsəlman qadın xeyriyyə cəmiyyətinin təsisçisi olmuşdur.

Bundan başqa Bakıda şəhərində yaşayan bir çox ziyalı insanların birgə səyi ilə yaradılan məktəblər bəşəriyyətin səmimi dostudur, insanların rahat yaşaması üçün onları müvafiq şəraitlə əhatə edən bir mühitdir. Xarakterik haldır ki, ziyalı müsəlman qadınları tərəfindən sərbəstliyə doğru ilk addım peşə məktəblərinə doğru atılmışdır.

Məktəb Azərbaycanlı qızların savadlandırılmasında onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynamışdır. 1918-1920-ci illərdə məktəb-təhsil işinin milli mənafelərə uyğun olaraq yenidən qurulması, Azərbaycan dilinin bərpa edilməsi, məktəb islahatlarının həyata keçirilməsi, doğma ana dilimizin ölkənin təhsil, təlim-tərbiyə dilinə çevrilməsi, ana dilində tədris proqramlarının və dərsliklərin hazırlanmasında Azərbaycanın ziyalı xanımlarının böyük rolu olmuşdur.

Bu qadınların arasında isə Azərbaycanın tanınmış ziyalı xanımı, pedaqoq Rəhilə Terequlova (Hacıbababəyova) fədakar əməyini xüsusi ilə qeyd etmək lazımdır.

# Ölkələrarası övladlığa götürmə
# Hər bir uşağın ailə mühitində yaşamaq haqqı vardır

Azərbaycan Respublikasında son illər uşaq hüquqlarının müdafiəsi ilə bağlı fundamental qanunvericilik bazası yaradılmışdır. Ümumilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və hazırda Möhtərəm, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət uşaq siyasətinin uğurlu nəticəsi olaraq, bu gün ölkəmizdə uşaqlara diqqət və qayğı yüksək səviyyədə təmin edilmişdir. Xüsusilə də, ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla bağlı həyata keçirdiyi çoxsaylı layihələr məhz uşaqlarımızın rifahına yönəldilmişdir. Dövlətin uşaqlara, əsasən də valuideyn himayəsindən məhrum uşaqlara, göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, 2006-cı ildə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı ki, bu da dövlətin uşaq siyasətini həyata keçirən əsas orqan oldu. Komitə uşaq hüquqlarının qorunması kontekstində, eyni zamanda valideyn himayəsindən məhrum uşaqların ölkələrarası övladlığa verilməsi prosesində tənzimləyir. Məlumat üçün onu da bildirmək lazımdır ki, Azərbaycan Respublikası 30 mart 2004-cü il tarixindən "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında" Konvensiyaya qoşulmuşdur. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ("Ölkələrarası övladlığa götürmə və əməkdaşlıq haqqında" Haaqa Konvensiyasının 6.1-ci maddəsinə müvafiq olaraq) "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 20 oktyabr tarixli 168-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 547 saylı, 12 mart 2007-ci il tarixli Fərmanının 1-ci bəndi ilə Mərkəzi Orqan qismində müəyyən edilmişdir. Bundan əlavə, Komitə həmin Fərmanın 2-ci bəndinə əsasən, Konvensiyanın 23.2-ci maddəsi üzrə övladlığa götürməni təsdiqləyən səlahiyyətli orqan qismində müəyyən edilmişdir. Komitə Konvensiyadan irəli gələn vəzifələri yerinə yetirir və ölkələrarsı övladlığa götürmə ilə əlaqədar digər dövlət orqanları və təşkilatların fəaliyyətini əlaqələndirir. Ailə qanunvericiliyində xarici vətəndaşlara övladlığa verilən uşaqların səhhəti ilə bağlı heç bir məhdudiyyət qoyulmamışdır. Uşağın əcnəbilərə övladlığa verilməsi üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır:

- Uşağın Azərbaycanlı ailəsinə tərbiyəyə verilməsi mümkün olmadıqda;
- Qohumları tərəfindən övladlığa götürməkdən imtina edildikdə;
- Uşağın əcnəbilərə övladlığa verilməsinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin razılığı əsasında məhkəmə qətnaməsi ilə icazə verilir.

Ölkələrarası övladlığa götürmə məsələləri ilə bağlı Azərbaycan Respublikasının qanunvericilik aktları:

Ölkəmizdə uşaq hüquqlarının qorunması, ölkələrarası övladlığa götürmə məsələləri Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Mülki Prosessual Məcəllə ilə müvafiq qaydada tənzimlənir. Bundan əlavə, "Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydası"nın təsdiq edilməsi haqqında, Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydalarının, uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydasının və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot Qaydasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları bu sahə ilə bağlı dövlət siyasətini tənzimləyir.

Azərbaycan Respublikasında ölkələrarası övladlığa götürmə prosesinin həyata keçirilməsi:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 20 sentyabr tarixli, 172 nömrəli qərarı ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olan və övladlığa götürülən uşaqların uçot Qaydaları, uşaqları övladlığa götürməyi arzu edən şəxslərin uçot Qaydası və Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların övladlığa götürülməsini arzu edən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçot qaydası"nın II-ci fəslinin 1.1-ci maddəsinə əsasən valideyn himayəsindən məhrum olan uşaqların ilkin uçotunu yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları (bundan sonra-qəyyumluq və himayə orqanları), mərkəzləşdirilmiş uçotunu 3 yaşına qədər uşaqlar üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 3 yaşdan yuxarı uşaqlar üzrə isə Azərbaycan Respublikasının Təhsil Nazirliyi aparır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 iyul tarixli 166 nömrəli qərarı ilə «Ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi yardım göstərən orqanların akkreditasiya Qaydaları» təsdiq edilmişdir. Bu Qayda, ölkələrarası övladlığa götürmə ilə bağlı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşayan uşağın övladlığa götürülməsi sahəsində hüquqi yardım göstərən orqanların akkreditasiya qaydasını, övladlığa götürmə ilə bağlı həmin orqanların hüquq və vəzifələrini, Azərbaycan Respublikasının vətəndaşı olan uşaqları övladlığa götürən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşayan uşağın övladlığa götürülməsi sahəsində hüquqi yardımın göstərilməsi şərtlərini müəyyən edir. Həmçinin, övladlığa götürülmüş uşaqların həyatı ilə bağlı, Azərbaycan Respublikasının dövlət orqanlarının məlumatlandırılması qaydasını, bu sahədə akkredite edilmiş hüquqi şəxslərin fəaliyyətinə dövlət nəzarəti ilə bağlı məsələləri tənzimləyir.

Xaricilər tərəfindən uşaqların övladlığa götürülməsi prosedurası:

Qeyd etdiyimiz kimi, övladlığa götürmə prosedurası yerli övlalığa götürməyə nisbətən ağır prosedurdur. Əgər şəxs tərəfindən təqdim edilən sənədlər, qanunvericiliyə uyğun olaraq təqdim edilmişsə və heç bir çatışmamazlıq yoxdursa əsasən övladlığa götürən valideynlər övladlığa götürüləcək uşağı müəyyən etmişlərsə, bu halda bu proses 5-6 ay, əks halda 10 və ya 12 aya başa çatır. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 350-ci maddəsinə əsasən məhkəmələr, uşağı övladlığa verən zaman, məhkəmə qətnamələrində uşağın sonrakı həyat tərzinə nəzarət edilməsi ilə bağlı müəyyən tələb qoyurlar. Belə ki, uşağı övladlığa götürən ailə, Komitənin tələbi ilə, 3 il ərzində, 6 aydan bir olmaqla, ildə iki dəfə uşağın, həyat və şəraiti, inkişafı, təhsili və s. barəsində məlumatları hesabat formasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim edirlər. Bu hesabatlara həmin uşaqların həyat tərzini, yaşayışını özündə əks etdirən foto şəkillər, video görüntülər və rəsmi orqanların bu uşaqların sağlamlığı, həyatı və s haqqında sənədləri daxil olur ki, bununla da biz uşaqların çox rahat şəkildə yaşadığını görürük. Əsasən xəstə uşaqları övladlığa götürən belə ailələr sonra onların normal həyata davam etməsi üçün müalicə də etdirirlər. Yəni xəstə, və problemli uşaqların övladlığa verilməsi onların normal həyata qaytarılmasına imkan aldığı üçün, çox xeyirxah bir işdir.




# "Family Futures" jurnalında Azərbaycan ailəsi modeli

Böyük Britaniyanın "Family Futures" jurnalında Azərbaycanda ailələrin rifahının və sosial inkişafının gücləndirilməsi haqqında məqalə nəşr edilmişdir. "Beynəlxalq ailə Günu" nün qeyd olunmasının 20 illiyi ilə əlaqədar olaraq Böyük Britaniyada, "Family Futures" jurnalında, "Azərbaycan ailə modeli" haqqında geniş məqalə dərc olunmuşdur. Məqalədə Azərbaycan adət-ənənələri, mədəniyyəti əks etdirilir. Hər bir millətin özünəməxsus ailə modeli formalaşmışdır. Azərbaycan xalqının çox gözəl və zəngin ailə ənənələri var. Həmin ailə ənənələri sədaqət, qarşılıqlı məhəbbət, dürüstlük, valideynə, böyüyə hörmət, tolerantlıq kimi zəngin və çoxşaxəli xüsusiyyətlərə malikdir. Azərbaycan ailələri uzunömürlüyü və möhkəmliyi ilə seçilir. Həmçinin, məqalədə Azərbaycanın çoxmillətli ölkə olduğu və burada insanların sülh və əmin-amanlıqda yaşaması da qeyd olunur. Burada yaşayan azsaylı xalqlar, milli etnik qruplar və milli azlıqlar yerli Azərbaycan xalqı ilə sıx münasibətdədirlər. Onların ailə dəyərlərinə hörmətlə yanaşılır və bu dəyərlər geniş şəkildə tətbiq olunur. Öz ailə mədəniyyətlərini qoruyub saxlamaqla yanaşı, qarışıq nikahlar da qurulur. Xüsusilə, Azərbaycan ailəsində çoxəsrlik tarixə malik olan "ağsaqqal" və "ağbirçək" institutunun fəaliyyəti ailə üzvləri, eləcə də ailələr arasında ünsiyyətin formalaşmasında, ailə xüsusiyyətlərinin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır. Bu yazıda Azərbaycan qadınının ailədəki roluna xüsusi diqqət ayrılır. Qeyd edilir ki, Azərbaycan qadınları istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və vətənə layiqli, milli-mənəvi dəyərlərə sadiq olan vətəndaşlar yetişdirməyi bacarırlar. Məqalədə Azərbaycan Respublikasında ailə məsələlərinin dövlət siyasətinin prioritet istiqaməti olduğu bildirilir. Dövlətin güclü və təkmil qanunvericilik bazası mövcuddur. Dərc olunan yazıda Azərbaycanda "Ailə günü" ilə bağlı Respublikanın şəhər və rayonlarında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, gənc nəslin tərbiyəsi, sağlam həyat tərzinin təbliğinə istiqamətləndirilmiş müxtəlif tədbirlərin həyata keçirilməsindən bəhs olunur. Bundan başqa, uğurla həyata keçirilən layihələrdən olan, "Azərbaycan ailəsi" adlı film festivalı haqqında da qeyd olunur. Eləcə də, Azərbaycan ailələrinin rifahının yaxşılaşdırılması və ailə institutunun möhkəmləndirilməsi sahəsində respublikanın prezidenti cənab İlham Əliyevin böyük diqqət və qayğısından, Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın ailə siyasətinin gücləndirilməsindəki rolundan da ətraflı bəhs edilir.



# MÜASİR DÖVRÜN AKTUAL PROBLEMİ:

# İNTİHAR

Hər gün bu və ya digər xəbər saytlarında, telekanallarda, radio dalğalarında eşidirik: "İnsan özünə qəsd etmişdir" o zaman belə bir sual yaranır: "nə üçün?" Bu sual hamımızı düşündürməli, bir daha belə hadisənin baş verməməsi üçün bütün imkanlarımızdan istifadə etməliyik. İntihar hadisəsi hazırda bütün dünyanı narahat edir. Yerli və beynəlxalq təşkilatlar bu istiqamətdə müəyyən işlər görür.
Artıq bir neçə ildir ki, sentyabrın 10-u bir qayda olaraq Ümumdünya Səhiyyə Təşkilatının (DST) qərarı ilə intiharlara qarşı mübarizə günü kimi qeyd edilir. Rəsmi statistikaya görə hər il 1 100 000 insan özünə qəsd edir, 19 milyon insanın özünəqəsdi isə uğursuz alınır. Məhkəmə ekspertlərinin fikrincə, "bədbəxt hadisələrdən ölənlər də" (dərman aparatlarından dozadan artıq istifadə, yollarda qəza, hündürlükdən düşmə) bunlar da suisid hesab olunur.

Ümumdünya Səhiyyə Təşkilatı bütün ölkələr üzrə suisid göstəricilərini 3 qrupa ayırır:

> Özünəqəsdin yüksək və ən yüksək səviyyəsi-əhalinin 100 min nəfərinə 20 və 20-dən çox intihar;
> Özünəqəsdin orta səviyyəsi-əhalinin hər 100 min nəfərinə 10-20-yə qədər intihar;
> Özünəqəsdin aşağı səviyyəsi-əhalinin hər 100 min nəfərinə 10-na qədər intihar. Ən az özünəqəsd halları-Misirdə, Haitidə və Yamaykada demək olar ki, 0-a yaxındır.

### Possovet ölkələrində əhalinin hər 100 min nəfərinə olan intihar halları:

| Ölkə | Ümumi | Kişilər | Qadınlar |
|---|---|---|---|
| Azərbaycan | 0.6 | 1.0 | 0.3 |
| Ermənistan | 1.9 | 2.8 | 1.1 |
| Belarusiya | 25.3 | x | x |
| Gürcüstan | 4.3 | 7.1 | 1.7 |
| Qazaxıstan | 25.6 | 43.0 | 9.4 |
| Qırğızıstan | 8.8 | 14.1 | 3.6 |
| Latviya | 22.9 | 44.0 | 8.2 |
| Litva | 34.1 | 61.3 | 10.4 |
| Moldova | 17.4 | 30.1 | 5.6 |
| Rusiya | 21.4 | x | x |

| | | | |
|---|---|---|---|
| Tacikistan | 2.6 | 2.9 | 2.3 |
| Türkmənistan | 8.6 | 13.8 | 3.5 |
| Özbəkistan | 4.7 | 7.0 | 2.3 |
| Ukrayna | 21.2 | 37.8 | 7.0 |
| Estoniya | 18.1 | 20.6 | 7.3 |

Tədqiqatçılar qeyd edirlər ki, intihar (suisid) hallarının 60%-i yaz-yay aylarında baş verir və intiharın əsas səbəbini (70%-ni) depresiya təşkil edir. Ümumiyyətlə,depresiya keçirən insanların 15-%-i intihar edir. Dünya Səhiyyə Təşkilatının məlumatları göstərir ki, intiharların daha çox iqtisadi və sosial baxımdan yoxsul ölkələrdə baş verməsinə baxmayaraq, istisnalar da mövcuddur. Məsələn, Latın Amerikasının və Yaxın Şərqin bir çox «yoxsul» ölkələrində intiharların səviyyəsi Qərbi Avropanın «zəngin» dövlətlərinə nisbətən yetərincə aşağıdır. İqtisadi baxımdan inkişaf səviyyəsi ilə öyünə biləcək Baltikyanı ölkələrdə, Finlandiya və Macarıstanda intihar səviyyəsi ümumi Avropa göstəricisindən xeyli yüksəkdir. Ada dövlətlərində, məsələn, Kubada, Yaponiyada, Şri-Lankda, Mavrikidə və digərlərində intiharların səviyəsi inanılmaz dərəcədə yüksəkdir.

İintiharla din arasında bir asılılıq da var. Əksər islam ölkələrində intihar sayı, demək olar ki, sıfıra bərabərdir, təxminən, 100 min adama 0,1 intihar sayı düşür.

Əhalisinin daha çox hissəsi xristianlığa və ya induizmə tapınan ölkələrdə intihar səviyyəsi yetərincə yüksəkdir. Xristian dövlətlərindən hər 100 min əhaliyə 11,2 intihar, Hindistanda isə uyğun olaraq 9,6 intihar halı düşür.

Buddist ölkələrdə bu göstərici daha yüksəkdir - 100 min adama 17,6 intihar halı qeydə alınır. Maraqlıdır ki, Çin kimi ateist dövlətdə bu göstərici 25,6-ya bərabərdir. Xristian və buddistlər arasında özünü öldürən kişilərin sayı özünü öldürən qadınlardan 3,5 dəfə çoxdur, müsəlman və induistlərdə isə bu fərq 3 dəfə aşağıdır. Ancaq dini inanclar heç də mütləq meyar deyil. Katolik İrlandiyada intihar halı katolik İtaliyaya nisbətən üç dəfə çoxdur. Protestantların çox olduğu Böyük Britaniyada isə intihar halı keçmiş müstəmləkəsi Avstraliyaya nisbətən iki dəfə yüksəkdir. Bütün bu ölkələr həyat səviyyəsinə və başqa göstəricilərinə görə bərabərdirlər.

## Possovet ölkələrində əhalinin hər 100 min nəfərinə olan intihar halları:



Ümumdünya Səhiyyə Təşkilatı intiharın (suisidin) 800 səbəbini göstərmişdir. Bunlardan 41%-i "məlum deyil", 19%-i "cəzalanmanın qorxusuna", 18%-I "ruhi xəstəliyə", 18%-i "evdəki məhrumiyyətlərə", 6%-i "ehtirasa", 3%-i "pul itkisinə", 1,4%-i "həyatdan doyduğuna", 1,2%-i "fiziki xəstəliyə" görə intiharları qeyd etmək olar. Bu göstərilənlər səbəblərin hamısını əks etdirmir və nəzərə almaq lazımdır ki, insanların yaşına görə də onların özünü öldürmə səbəbləri müxtəlifdir. Məsələn, 16 və 16 yaşa qədər olan insanlar arasında öz məhəbbətinə cavab almadığı və ya xəyanətlə üzləşdiyi səbəbindən intihar halları daha çoxluq təşkil etdiyi halda, 25 yaşdan sonra bu səbəbdən intihar edən insanların sayı çox azdır.

Azərbaycanda uşaqlar arasında intihar halları:




İntihar edənlər arasında müxtəlif təbəqələrin nümayəndələrinin statistikası da xeyli diqqət çəkir. Belə ki, özünü öldürənlərin arasında məktəbli və yeniyetmə, ailədə məişət zorakılığının qurbanları (bunların arasında qadın, uşaq, hətta kişilər də var), əlil, təqaüdçü, ruhi xəstə, hərbçi, məhbus və digərləri vardır.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda da intihar hallarına rast gəlinir. Son zamanlar isə intihar hallarının gəncləşməsi, yəni uşaqlar və gənclər arasında suisid hallarının daha çox baş verməsi narahatedici məsələlərdəndir. Belə ki, 2008-ci ildə 58, 2009-cu ildə 54, 2010-cu ildə 51, 2011-ci ildə 28, 2012-ci ildə 60, 2013-cü ildə isə 71 uşaq intihar etmişdir.

Biz bu yazının əvvəlində suisidin səbəblərinin göstərmişdik. Sözsüz ki, insanın harada yaşamasından asılı olmayaraq, onun üzləşdiyi problemlər, xüsusilə, sosial–psixoloji problemlər demək olar ki, eynidir. Mütəxəssislər bu fikirdədir ki, 10-11 yaşlı uşaq hələ ölümlə həyatı bir-birindən tam ayıra bilmir, bu iki anlayışın sərhədlərini müəyyən etmək qabiliyyətində deyil. Onlar ölümü tam mənası ilə dərk etmədikləri üeçün bəzən intihara ətrafındakıların, ona diqqət yetirməyənlərin diqqətini cəlb etmək üçün əl atırlar. Buna görə də, 10-11 yaşlı uşaqların intiharı bir çox hallarda, birmənalı şəkildə, ölümə cəhd kimi qiymətləndirilmir. Əksər hallarda, 13 yaşına qədər olan uşaqların özünəqəsdə əl atmasının əsas səbəbi yaxınlarının ona hansı hisslər bəslədiklərini bilmək marağıdır. Anası tərəfindən aldığı hansısa bir kiçik töhmətə görə uşaq yalnız anasını qorxutmaq və ya azacıq cəzalandırmaq naminə, atdığı addımın sonunun nə ilə bitəcəyini tam dərk etməyərək, intihara əl ata bilər. Buna görə də, uşaqlara qarşı davranışlarda həmişə çox ehtiyatlı olmaq lazımdır.

Bu yaşa qədər olan uşaqlar arasında intiharın digər səbəbləri sırasında ailələrin dağılması, fiziki və seksual zorakılıq, komplekslər mühüm yer tutur. 14 yaşda intihara cəhdin səbəbləri də dəyişir. Bu yaş qrupunda artıq ilk cavabsız sevgi belə ölümə yol aça bilər. Qarşı tərəfə öz hisslərini bildirməyin bir yolunun da məhz özünəqəsddən keçdiyini düşünən uşaqlar az deyil.

16-20 yaş qrupunda olanlar arasında intihar o zaman seçilir ki, həyat mənasını itirmiş olsun. Qarşılaşdıqları çətinliklərlə mübarizə apara bilməyən, həyatının belə davam edəcəyindən qorxanlara ölüm ən asan çıxış yolu kimi görünür.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsi (özünüöldürmə həddinə çatdırma) ilə məsuliyyətə cəlb olunma nəzərdə tutulmuşdur. Lakin reallıqda belə məsələlərin nəticəsi bir qədər fərqli alınır. Belə ki, intihar hadisəsi qeydə alınan kimi, 125-ci maddə ilə cinayət işinə başlanılır. Lakin bu maddə ciddi sübuta yetirilməni tələb edir. Çox vaxt insanları özünüöldürmə cinayətinə sövq edən amillər onların əhatəsində - ailəsi, qohumları və ya iş yerləri ilə bağlı olur. Ona görə də, özünü öldürən insanın əhatəsi bu cinayətin üstünün açılmasına maraq göstərmir. Beləliklə də, 125-ci maddə ilə açılan cinayət işi sonradan iş prosesində digər maddələrlə əvəz olunur.

İntihar hallarının azalması üçün əsasən maarifləndirmə işləri aparılmalıdır. Burada, müxtəlif vasitələrdən istifadə oluna bilər. Fikrimizcə, ilk növbədə KİV-də zorakılıq və ölüm səhnələrini əks etdirən seriallara, verlişlərə qadağa qoyulmalıdır. Orta məktəblərdə "məktəb psixoloqu" sosial təsisatın fəaliyyəti gecləndirilməlidir. Bir çox ailələrdə ünsiyyət probleminin olması da keçid yaş dövrünü yaşayan uşaqlarda psixoloji çətinliklər yaradır. Bunun qarşısının alınması üçün "məktəb psixoloqu"nun valideynlərlə mütəmadi olaraq işləməsi zərurəti yaranır. Valideynlər üçün xüsusi maarifləndirici seminarların keçirilməsi, sosial çarxların hazırlanaraq telekanallarda yayımlanması məqsədəmüvafiq olardı. Digər bir məsələ isə insanların, xüsusilə, uşaq və gənclərin çox vaxt keçirdiyi internetdə "həyat", "ölüm" və s. ilə bağlı yazıların, video çarxların olmasıdır. Bəzən belə məlumatlar onların düşüncələrini alt-üst edir, həyatlarını arzuolunmaz istiqamətə yönəldiir, gələcəyə olan arzu və ümidlərini puç edir, həyat eşqlərini söndürür. Ən pis halda isə, bütün problemlərdən qurtulmaqda intiharın ən "düzgün" seçim olduğu beyinlərə həkk olur. Bu mənada uşaqların və gənclərin asudə vaxtının təşkil edilməsi çox önəmlidir. Onların hansı məşğuliyyətlərə maraq göstərməsini müəyyən etmək və ya belə maraqların yaranması üçün lazım olan  şərait və vasitələrdən istifadə etmək çox vacib işdir. Çünki, onların özlərini ifadə və təsdiq edə biləcəkləri məşğuliyyətlərə cəlb olunması yalnız mücbət nəticələr verə bilər.



# HAMİLƏ QADINLAR

Hamiləliyin normal cərəyan etməsi və əmələ gələ biləcək bir sıra mürəkkəbləşmə hallarının qarşısının alınması üçün əsas şərt rasional rejimə riayət edilməsidir. Hamiləlik dövründə qadın üçün həyata keçirilməsi zəruri olan bütün tədbirlər hər bir ayrı-ayrı halda fərdi olaraq tətbiq edilir. Hamiləliyin axırıncı aylarında qarnın düz əzələlərinin aralanmasının qarşısını almaq məqsədilə qarnın möhkəm saxlanması üçün bel bandajı tətbiq edilməlidir. Bandaj taxılması və bağlarının bağlanması arxa ü stə uzanma vəziyyətində keçirilir. Xüsusi olaraq, qarnın ölçü və həcminə görə seçilmiş bandaj hamiləlikdən sonrakı dövrdə də taxılmalıdır.

**Hamilə qadın:** Hamilələrdə venaların varikoz genəlməsi başlıca olaraq aşağı ətraflarda müşahidə edilir, lakin xarici cinsiyyət üzvləri və uşaqlıq yolu sahəsində də ola bilər. Bu xəstəlik baş verdikdə xəstə qıçlarında ağrı və ağırlıq hiss etməsindən, baldır əzələlərində gecələr qıcolmalar əmələ gəlməsindən, yeridikdə tez yorulmaqdan şikayətlənir. Venaların varikoz genəlməsi vena mənfəzlərinin qeyri-bərabər genəlməsi və nazikləşmiş vena divarlarında çıxıntılar (qabarıq) əmələ gəlməsi, damar yollarının qeyri-düzgün (əyri-üyrü) istiqamətlənməsi, damarlarda düyünşəkilli qıvrımların inkişafı, qapaqlarda funksional nöqsanlar və pozulmuş qan axını ilə xarakterizə olunur. Bu xəstəlikdə görülən tədbirlər kompleksinə həmişə elastik bint və ya corabdan istifadə edilməsi, müalicə və bədən tərbiyəsi aparılması, həmçinin venoz qan dövranını yaxşılaşdırıcı preparatların tətbiq edilməsi daxildir.

**Çəki:** Hamilə qadının hər dəfə məsləhətxanaya gəlişində (hamiləliyin birinci yarısında ayda bir dəfədən az olmayaraq və hamiləliyin ikinci yarısında hər iki həftə ərzində) çəkisi yoxlanılır. Bundan məqsəd mayenin orqanizmdə saxlanması və toplanmasını vaxtında aşkar etməkdir. Hamilə qadın qapanda çəkilən zaman bir köynəkdə dayanmalı və qabaqca siyiməlidir. Çəkisi yoxlanılan gün qarnı təmizlənməlidir. Hamiləliyin fizioloji cərəyanının birinci həftələrində bədənin çəkisi bir qayda olaraq, artmır. Artım hamiləliyin 16-cı həftəsindən etibarən qeyd edilir. 23-24-cü həftədən başlayaraq çəkidə artım hər həftə 200 q-a çatır, 29-cu həftədən etibarən isə çəkidə artım 300-350 q-dan çox olmamalıdır. Döldə ürək döyünməsinin dinlənməsi (auskultasiya) geniş borulu mama stetoskopu vasitəsilə aparılır. Ürək döyüntüləri ay təqvimi ilə hamiləliyin V ayından sonra eşidilir. Ürək tonlarını dinləməklə dölün vəziyyəti müəyyən edilir. Bunun isə doğuş üçün böyük əhəmiyyəti vardır. Ürək döyünməsi dölün başına yaxın yerdə və dölün arxasının yönəlmiş olduğu tərəfdən daha yaxşı eşidilir. Döl başı aşağı vəziyyətdə olduqda döyünmə göbəkdən aşağıda, çanaqda yerləşdikdə-göbəkdən yuxarıda, köndələn yerləşdikdə isə-göbək səviyyəsində başa yaxın sağ və sol tərəfdə eşidilir. Dölün ürək tonları orta hesabla dəqiqədə 130-140 dəfə təkrarlanan ritmik qoşa zərbələr şəklində eşidilir. İdman hamilə qadının ümumi vəziyyətini yaxşılaşdırır, onun sinir sisteminə yaxşı təsir göstərir, toksikozun azalmasına səbəb olur, doğum aktının gedişini yaxşılaşdırır, aralığın (perineumun) cırılması ehtimalını azaldır, habelə doğumdan sonrakı dövrün daha əlverişli cərəyan etməsinə səbəb olur. İdman qadın basması əzələlərinin möhkəmlənməsinə təsir edir, doğum zamanı gücənmə fəaliyyətini yaxşılaşdırır, çanaq dibi əzələlərinin elastikliyini yüksəldir ki, bu da daxili cinsiyyət üzvlərinin aşağı salınması və düşməsinin qarşısını alır. Bədən tərbiyəsi doğum zamanı tənəffüsü idarəetmə vərdişlərinin əldə edilməsinə, orqanizmdə dölün inkişafı üçün zəruri olan oksidləşmə proseslərinin gücləndirilməsindən ötrü xarici tənəffüs funksiyasının yaxşılaşmasına kömək edir. Qadın məsləhətxanası həkimi məşğələlərin keçirilməsi üzərində müntəzəm nəzarət aparır; o, ümumi yükün həcmini müəyyən edir və hamiləlik dövrü ərzində bu yükü dəyişib tənzim edir. Fiziki məşqlər hamiləliyi mürəkkəb olmayan bütün qadınlar, habelə ürək-damar sistemi xəstəlikləri kompensasiyası mərhələsində olan hamilə qadınlar üçün xeyirlidir, lakin bu qadınlar daima terapevtin nəzarəti altında olmalıdırlar. Sağlam hamilə qadınlar öz evlərində idmanla müstəqil məşğul ola bilərlər, lakin patronaj tibb bacısı hər dəfə patronaj apararkən bu qadınların səhhətini yoxlamalıdır. Qurd invaziyası hamilənin vəziyyətini və dölə pis (anemiya, ümumi halsızlıq) təsir edir: o, ciftdə patoloji dəyişikliklərə səbəb ola bilər ki, bu da anemiya ilə yanaşı, döldə oksigen aclığına və hamiləliyin vaxtından qabaq kəsilməsinə səbəb olur. Hamilə qadınlar məsləhətxanaya ilk gəlişlərində qurd yumurtacıqlarının olmasını müəyyən etmək üçün nəcisi tədqiq etdirməli və lazım gəldikdə müalicə olunmalıdırlar.

**Dişlər və ağız boşluğu:** Xəstə dişlərin və ağız boşluğunu vaxtlı-vaxtında müalicəsinin böyük əhəmiyyəti vardır, çünki ağız boşluğundakı infeksiya ocaqları orqanizmin daimi infeksiya və intoksikasiya mənbəyi olmaqla, doğumlar zamanı və doğumlardan sonrakı dövrdə infeksion mürəkkəbləşmələrin baş verməsinə səbəb ola bilər. Bəzən qadınlarda hamiləlik zamanı orqanizmin kalsium duzlarından kasadlaşması qeyd edilir, bu isə dişlərin vəziyyətinə təsir edərək, onların tez dağılmasına səbəb olur. Qadın məsləhətxanasına gəldikdə bütün hamilə qadınları stomatoloq-həkim müayinə edərək onlara lazımi müalicə yardımı göstərir.

**Qan:** Hamilə qadınlarda qanın klinik analizi hamiləlik ərzində, xüsusilə onun ikinci yarısında bir neçə dəfə aparılmalıdır. Qanın təkrar edilən tədqiqləri xüsusi müalicə tələb edən qan xəstəliklərinin vaxtında aşkar edilməsinə imkan verir. Bütün hamilə qadınlarda qanın Vasserman, Meynike, Zaks-Georgi reaksiyalarına görə seroloji tədqiqi üçün dirsək venasından iki dəfə (hamiləliyin birinci və ikinci yarısında) qan götürürlər.

Bu yolla aşkar edilmiş xəstələrin müalicəsinin veneroloji dispanserdə keçirirlər. Həm də müalicəyə mütləq gələcək uşağın atasını da cəlb edirlər. Bütün hamilə qadınların rezus-mənsubiyyəti də hökmən təyin edilməlidir, çünki ananın mənfi rezuslu qanı əksər halda yeni doğulan uşağın hemolitik xəstəliyinə səbəb olur. Hamilə qadının qanının rezus-mənfi olması aşkar edildikdə onun ərinin qanını da tədqiq etmək lazımdır. Əgər atanın qanı rezus-müsbətdirsə və dölə irsən atanın rezus mənsubiyyəti keçmişsə, bu cür hamiləlikdə ana ilə döl arasında rezus ixtilafı baş verir ki, bu səbəbə görə döl bətndaxili məhv ola bilər, yaxud vaxtından qabaq, ya da hemolitik xəstəlik əlamətləri ilə doğula bilər. Dölün rezus-anticisimlərin zərərli təsirinə müqavimətini artırmaq və ciftdə qan dövranını yaxşılaşdırmaq məqsədilə rezus mənfi qanlı bütün hamilə qadınların hökmən desensibilizəedici müalicəsi (hamiləliyin 12-14, 22-24, 32-34-cü həftələrində) keçirilməlidir. Müalicə-profilaktika tədbirlərində dölün inkişafı üçün ən əlverişli şəraitin yaradılması nəzərdə tutulur: qida zülallarla, C vitamini ilə zəngin olmalıdır (hamiləlik ərzində bu qida kiçik fasilələrlə, sutkada 1 q qədər qəbul edilməlidir). Kumbs sınağınanın qanında anticisimləri aşkar etmək üçün tətbiq edilir.

Hamiləlik zamanı ananın qanında anticisimlər peyda olduqda, hələ doğumdan çox əvvəl döldə ən ağır xəstəlik formaları baş verir. Belə ki, yeni doğulan uşaqların təxminən 30%-ə qədər qeyd olunan hemolitik xəstəlik hələ bətndaxili dövrdə əmələ gəlir. Hamiləliyin erkən müddətlərində qanaxma-döl yumurtasının uşaqlığın divarından aralanması ilə əlaqədar mürəkkəbləşmə olur hamiləliyin kəsilməsi təhlükəsini yaradır. Döl yumurtasının aralanmasını xassə və dərəcəsindən asılı olaraq mürəkkəbləşmənin müxtəlif variantları əmələ gələ bilər: uşaqsalma təhlükəsibaş verdikdə-hamilə qadınlar qarnın aşağısında zəif sancıyabənzər ağrılardan şikayət edirlər, uşaqsalma başlanğıcında sancıyabənzər ağrılar və qanaoxşar ifrazat olur; natamam uşaqsalma halında-xeyli miqdarda qanaxma qeyd edilir. Bütün bu hallarda xəstə təcili olaraq xəstəxanaya qoyulmalıdır. Hamiləliyin axırıncı aylarında qanaxma uşaqlığın aşağı hissəsində yerləşmiş bala yatağının aralanması, bala yatağının ön vəziyyətdə yerləşməsi (bu zaman qanaxma, adətən, doğum fəaliyyəti və sancılar olmadan başlayır) və ya uşaqlıqda normal yerləşmiş ciftin vaxtından qabaq aralanması (bu zaman, adətən, sancı tutmaları olur) nəticəsində baş verir.

**Süd vəziləri:** Hamiləlik dövründə uşağın süd əmməsi üçün süd vəzilərini elə hazırlayırlar ki, bu vəzilər düz inkişaf etsin, məmələr möhkəmlənsin, onlarda çatlar əmələ gəlməsin. Süd vəzilərini hər gün otaq temperaturu istiliyində su ilə, sabunla yuyub yumşaq (xovlu) dəsmalla silirlər. Məmələrin dərisi quru isə, onlara steril vazelin yağı çəkilməlidir. Məmələr yastı və uzunsov olduqda əlləri sabunlu su ilə diqqətlə yuduqdan və dırnaqları kəsib qısaltdıqdan sonra barmaqları steril talkla ovxalayır və məmələrə də azca steril talk səpirlər. Məməni iki barmaqla lap dibindən tutaraq məməyanı dairəcikdən məmə zirvəsinə doğru dartırlar və eyni zamanda yüngülcə masaj edirlər. Hər gün yatmazdan qabaq süd vəziləri üçün 10-15 dəqiqəlik hava vannası tətbiq edilməsi çox faydalıdır. Bu məməcikləri və dərini möhkəmlədir.

Sidik: Hamiləlik dövründə böyrəklər çox gərgin işləyir, çünki onlar həm qadının, həm də böyüməkdə olan dölün mübadilə məhsullarını orqanizmdən çıxardırlar. Buna görə də hamilə qadının hər dəfə məsləhətxanaya gəlişində onun sidiyi hökmən tədqiq edilməlidir. Hamilənin sidiyində zülal tapıldıqda hamilə qadını xüsusi qeydə alır və lazım gəldikdə onu xəstəxanaya qoyurlar.

**Doğumun ağrısızlaşdırılması və hamilə qadınların doğuma psixo-profilaktik hazırlanması:** Doğumların kütləvi surətdə ağrısızlaşdırılması yalnız böyük doğuma yardım müəssisələrində deyil, həmçinin kiçik müəssisələrdə də aparılır. Doğumun vaxtında ağrısızlaşdırılması doğumlarda baş verən bir sıra mürəkkəbləşmə hallarının qarşısını alır. Ağrısızlaşdırmaq üçün dərman vasitələri və psixo-profilaktik hazırlıq tədbirləri tətbiq edilir. Psixoprofilaktika metodu mərkəzi sinir sisteminin ali şöbələrinə müsbət təsir göstərməklə doğum ağrılarının aradan qaldırılmasına əsaslanır. Qadının doğuma psixoprofilaktika hazırlanmasından məqsəd-doğum ağrısının psixogen komponentini ləğv etməklə hamilə qadında labüd doğum ağrısından qorxu hissini aradan qaldırmaqdır. Bu hazırlıq prosesində qadında doğum zamanı sakitlik və rahatlıq vərdişi təlim edilir. Psixoprofilaktika hazırlıq zamanı qadının ona öyrədilən müəyyən üsulların yerinə yetirilməsini doğumun ağrısız keçməsinə və doğuş gücünün anomaliyaları kimi hamiləliyin axırıncı (gec) dövrlərində əmələ gələn toksikozların və s. mürəkkəbləşmələrin müəyyən dərəcədə qarşısının alınmasına kömək edir. Hamilə qadının geyimi rahat və gen olmalı, bərk sıxıcı kəmərlər, dəyirmi bağlar işlətməməlidir. Hamiləlik dövründə geyimin təmiz olmasının xüsusi əhəmiyyəti vardır. Hamilə qadınlara gen paltar və ya çiyin bağlı tuman (paltarın ağırlığı çiyinlərə düşsün deyə) alçaqdaban və rahat ayaqqabı geyməsi məsləhət görülür. Hamiləlik və doğum münasibətilə məzuniyyətlər doğuma qədər 56 və doğumdan sonra 56 təqvim günü müddətinə verilir və dövlət ictimai sığortası qaydalarına əsasən bu dövr üçün müavinət ödənilir.

Hamiləliyin və doğumun cərəyanı mürəkkəbləşdiyi, yaxud iki və daha artıq uşaq doğulduğu hallarda doğumdan sonra 70 təqvim günü müddətində məzuniyyət verilir.

Hamiləlik və doğum üzrə məzuniyyət təqvim günü ilə hesablandığına görə, bu məzuniyyət müddətinə ancaq iş günləri deyil, istirahət və bayram günləri də daxil edilir. Doğumdan sonrakı məzuniyyət doğum günündən başlayaraq hesablanır və doğum günü də bu hesaba daxil olur. Hamiləlik və doğum üzrə məzuniyyət müddəti ümumi və arasıkəsilmədən, həm də xüsusən illik məzuniyyətdən istifadə hüququ verən staja daxil edilir. Hamiləlik və doğum üzrə məzuniyyətdən qabaq və ya bilavasitə bu məzuniyyətdən sonra qadına, onun ərizəsinə görə, müəssisədəki iş stajından asılı olmayaraq illik əmək haqqı və tutduğu vəzifə saxlanılaraq 1 ilə qədər məzuniyyət verilir. Hamilə və döş əmizdirən qadınların əməyinin mühafizəsi. Hamilə qadına hamiləliyin V ayından etibarən və döş əmizdirən qadınlara (növbədən xaric və gecə işləri müstəsna olaraq) ancaq yüngül işlər tapşırıla bilər. Hamilə qadın daha yüngül işə keçirildiyi halda, onun axırıncı işinin 6 ayındakı orta əmək haqqı mühafizə olunur. Hamilə qadının razılığı olmadan onu ezamiyyətə göndərmək olmaz. Hamilə və ya döş əmizdirən qadını işdən çıxarmaq qadağandır. Döş əmizdirən analara və 1 yaşa qədər uşaqları olan qadınlara iş zamanı ümumi fasilə vaxtından başqa istirahət və uşağın yedizdirilməsi üçün əlavə fasilələr hər 3 saatdan bir, 30 dəqiqə davam edir. Ananın 1 yaşa qədər iki və ya daha artıq uşağı olursa hər dəfə azı 1 saatlıq fasilə verilir. Uşağın yedizdirməsi üçün verilən fasilə iş vaxtına daxil edilir və qazanılmış orta əmək haqqı hesabı ilə ödənilir. Fasilə və onun verilmə qaydası ananın arzusu nəzərə alınmaqla həmkarlar ittifaqının fabrik-zavod yerli komitəsi ilə birlikdə müdiriyyət tərəfindən müəyyən edilir. Hamilə qadınların patronajı onlara ev şəraitində müşahidə edilməsi məqsədilə aparılır.

**Patronaj vəzifələri:** Hamilə qadınlara və yeni doğanlara patronaj yardımı göstərildikdə onların qidalanmasını səmərəli olmasını və həkimin bütün məsləhətlərinə riayət edilməsinə xüsusi fikir verilməlidir.

**Müalicəvi mühafizə rejimi:** Hamilə qadınlara qulluq rejimində aseptika qaydalarına riayət edilməsindən əlavə, sakitlik rahatlıq vəziyyəti yaradılmasına, qulluqedici personalın işində vurnuxma və basırığa yol verilməsinə bütün təyinatın vaxtında yerinə yetirilməsinə, xəstə ilə söhbətin sakit tonla aparılmasına, palatalarda təmizliyə, camaşırın təmizliyinə, yeməklərin ləzzətli olmasına ciddi fikir verilməlidir.

**Hamilə qadının qidalanması:** Hamiləlik dövründə düzgün qidalanmanın qadının səhhətinin qorunması və dölün inkişafı üçün olduqca böyük əhəmiyyəti vardır. Hamiləliyin birinci yarısında xüsusi (pəhriz) saxlanması zəruri deyildir. Qida müxtəlif çeşidli, yaxşı hazırlanmış və ləzzətli olmalıdır. Hamiləliyin ikinci yarısındakı qidalanmada orqanizmin fizioloji xüsusiyyətləri nəzərə alınmalıdır. Rasiona sutkada hökmən 100-120 q zülal daxil edilməlidir. Tərkibində tam dəyərli zülallar olan qidalarda kefir, qatıq, süd, kəsmik, pendir, yavan ət (gündə 100-120 q), balıq (gündə 150-200 q) verilməsi məsləhət görülür. Rasionda karbohidratların miqdarı sutkada 500-dən, hamilə qadının çəkisi həddindən artıq isə, 300 q-dan çox olmamalıdır. Rasiona meyvələr, giləmeyvələr, tərəvəz və çörək də daxil edilməlidir. Yağlardan, sutkada 100-110 q miqdarında olmaqla, əksəriyyətlə şit yağ, xama və bitki yağları verilir. Rasionda içməli mayelər sutkada 1-1,2 l-ə qədər, xörək duzu isə, xüsusilə hamiləliyin ikinci yarısında, 8-9 q həddində olmalıdır. Hamiləlik zamanı qidanın tərkibində A, B, C, D, E vitaminləri olmalıdır.

Hamilə qadınların gündə dörd dəfə qidalanması məsləhət görülür. 1-ci səhər yeməyinə qida rasionunun 25-30%-i, ikinci səhər yeməyinə 10-15%-i, nahar yeməyinə 40-45%-i, şam yeməyinə 15-20%-i daxil edilməlidir.



# ÇAYLA GÖZƏLLİYİNİZİ TƏZƏLİYİN

Dəri yeniləyici maska
Bu maska dərinizdəki toksinlərin atılmasına köməkçi olacaq. Üç yemək qaşığı qatıqla bir şirin qaşığı bal və çayı qarışdırın. Gözlərinizi qoruyaraq üzünüzə çəkin və 20 dəqiqə gözlətdikdən sonra yuyun. Dərinizdəki yumşaqlıq və canlılıq hissini dərhal fərq edəcəksiniz.

Şiş gözlərdən xilas olun
Xüsusilə yorucu bir günün ardından ya da kompüter qarşısında uzun müddət qaldınızsa və ya axşam çox gec yatdınızsa, gözlərin şiş və yorğun görünə bilir. Lakin bu vəziyyət canınızı sıxmasın. Bir çox dərdə çarə olan çay şiş gözlər mövzusunda sizə köməkçi ola bilər. Bunun üçün iki paket çayı yarım çay fincanı qaynar suda 15 dəqiqə dəmləyin sonra soyuducunda bir az soyumasını gözləyin. Soyuducunda soyuduqdan sonra iki parça pambığı çaya batırın, sıxdıqdan sonra göz qapaqlarınızın üzərinə yerləşdirin və təxminən 10 dəqiqə qədər gözlədin. Gözlərinin çox daha yaxşı göründüyünü görəcəksiniz.

Saçlarınızı parladın
"Saçlara da çay çəkilərmi?" deyə soruşmayın. Əgər saçlarınız köhnəldiyi üçün cansız və mat görünürsə çay duşu kimisi yox. Saçlarınızı ilk olaraq normal şampununuzla yuyun və durulayın.

Sonrasında daha əvvəl demlediğiniz çayı saçınıza tökün və təxminən beş dəqiqə qədər saçınızda gözlədin.
Saçınızı duruladıqdan sonra qurutma maşını köməyi ilə deyil də öz-özünə qurumasını gözləyin. Ardından saçınıza istədiyiniz kimi şəkil verə bilərsiniz.
Çayın tərkibində olan tein adlı maddə həm xəbərdarlıqçı həm də susuzluğu aradan qaldırıcı xüsusiyyətlər ehtiva edir. E vitaminindən 20 qat daha güclü bir antioksidan olan polifenol adlı maddə isə qan dövranını sürətləndirərkən, hüceyrələrin oksidlənməsini önləyir və dərinin yaşlanmasını gecikdirərək möhkəmləşdirici bir təsir təmin edir.

Dərinizi canlandırın
Xüsusilə quru dərilər üçün qurtarıcı funksiyası yerinə yetirən çayı etibarla istifadə edə bilərsiniz. Nəmləndirici üz kreminizin içərisinə bir az çay əlavə edin və üzünüzə gecə yatmadan əvvəl çəkin. Sonra dərinizi ilıq suyla yuyun və qurudun. Dərinizin yumşaq olduğunu görəcəksiniz. Çayın tərkibində olan təbii astrinent adlı maddə təbii bir möhkəmləşdiricidir. Bu səbəblə dərinizi yalnız çayla yuma belə canlanmasına köməkçi olur.

# ÜZ ÜÇÜN YAY MASKALARI



Bir qayda olaraq, yay aylarında xanımlar kosmetikadan imkan daxilində az istifadə edirlər. Kosmetikadan az istifadə edəndə isə, təbii ki, sifətin bütün qüsurları daha aydın nəzərə çarpır. Eləcə də bu zaman sifət daha çox qulluq tələb edir. Ona görə də kosmetoloqlar məsləhət görürlər ki, yay aylarında xanımlar hər gün maska qoysunlar. Bu maskaları ev şəraitində hazırlaya bilərsiniz. Kosmetoloqlar yay üçün aşağıdakı maskaları məsləhət görürlər:

Pomidoru əzib üzərinə quru süd əlavə edin və üzünüzə yaxın. 20 dəqiqədən sonra ilıq su ilə yuyun. Bu maska dərini bir qədər dartır və ona xüsusi təravət verir;

Xiyarı ətçəkən maşından keçirib, üzərinə limon suyu və quru süd əlavə edin. Maskanı sifətinizdə yarım saata qədər saxlaya bilərsiniz. Bu maska qaralmış simalar üçün daha məsləhətlidir;

Cəfərini xırda-xırda doğrayıb, üzərinə sürtgəcdən keçirilmiş kələm və kök əlavə edin. Bu qarışığa bir qədər də bitki yağı qatın. Bu maska sifətdəki yorğunluğu götürmək baxımından əvəzsizdir.

Hər üç maskadan sonra sifətinizə qidalandırıcı krem çəkməyi unutmayın...

# Dəniz suyunun fantastik FAYDALARI



Tibbin atası Hipokrat balıqçıların əli tez-tez qarmaqla kəsilsə də, onların heç bir infeksiyaya yoluxmadığının fərqinə vararaq, bunun əsas səbəbinin dəniz suyu olduğunu müəyyən etmişdi. Fransız bioloqu Rene Quinton dəniz suyunun qan plazmasına faydalarını ortaya çıxararaq müalicəvi özəlliyini elmi olaraq təsdiqləmişdi.

Dəniz suyu qan plazması kimi 104 ana element və mineral tərkiblidir. Dərinin məsamələrindən daxil olan dəniz suyu orqanizmə daxil olaraq, bədən funksiyalarını nizamlayır. Buna görə dəniz suyuna girmək olduqca faydalıdır. Qızdırılmış dəniz suyu bu faydaları qat-qat artırar. Dəniz suyu sadəcə fiziki xəstəliklərə deyil, eyni zamanda bir çox psixoloji xəstəliklərə də şəfadır. Depressiya, stress, əsəbilik, həyəcanı tərkibində olan brom, maqnezium və litium maddələrinin köməyi ilə müalicə edir. Bu maddələr beyindəki melatonin və seratoninin səviyyəsini nizamlayır və beləliklə, insan rahat və xoşbəxt hiss edir. Saçların kəpəklənməsini əngəlləyir. Sızanaqların qurudulması və qara nöqtələrin yox edilməsində olduqca təsirlidir.

Dəri soyulmasına zəmin yaratdığı üçün yeni sağlam və gözəl cildə qovuşdurur. Buna görə estetik və gözəllik mərkəzlərində dəniz suyundan istifadə edilir. Göbələk xəstəliklərini yox edir. Kişilərin qorxulu kabusu olan tər qoxusu və ayaq qoxusunu yox edir. Diş ağrısı zamanı dəniz suyu ilə qarqara edilərsə, ağrı kəsər. Ağızda olan yaraların çox tez sağalmasına kömək edir. Kalsium karbonat, maqnezium xlor, sulfat, potasium xlor, maqnezium sulfat tərkibli olması şəfa özəlliyini artırır. Dəniz suyunda olan yod immuniteti gücləndirir və tiroit vəzin aktivliyini artırır. Antioksidant olan dəniz suyu, mikrob və bakteriyalara qarşı orqanizmin müqavimətini artırır. İnsan bədənində yer alan 84 maddəni özündə toplayan dəniz suyu, vitamin qaynağı hesab edilir. Mineral duzları, amino asitlərdən ibarət olan dəniz suyu, təbii müalicə üsuludur. Hər dəfə dəniz suyuna girmək insanın enerjisini artırır. Eyni zamanda dəniz sahilindəki hava, qan və toxumaların təmizlənməsinə kömək edən neqativ ionlarla zəngindir. Dənizdəki dalğa axıntısı və dalğaların ritmik rəqsinin, masaj kimi faydalı təsiri var.

# Arıqladan 7 qida - SİYAHI



Bəzi qidaları qəbul edərək həm vitamin yığa, həm də çəkinizi azalda bilərsiniz. Arıqlamağa kömək edən 7 məhsulun adını təqdim edirik.

Qara lobya:
Bu məhsul lif və proteinlə zəngindir. Lakin buna baxmayaraq tərkibində yağ yoxdur. Onun tərkibində flavonoid var. Bu maddə qarın bölgəsindəki yağ əriməsi prosesini sürətləndirir.

Partlayan qarğıdalı:
Nə qədər yağlı və duzlu olsa da partlamış qarğıdalı arıqlamağa kömək edir. Taxıllar tərkibindəki zəngin minerallar və faydalı maddələrə görə, sağlamlıq üçün faydalıdır.

Alma sirkəsi:
Alma sirkəsi yağ yandırmaqda əvəzolunmaz vasitədir. Amma həddindən artıq istifadəsi mədədə problem yarada bilər. Salat souslarında istifadəsi məsləhətdir.

Çərəzlər:
Çərəzlərin tərkibindəki yağlar doymamış yağlardır. Bunun üçün də çəki artımına yol açmırlar. Əksinə piylənmənin qarşısını alırlar.

Soyuq kartof:
Soyuq kartoflardan hazırlanmış salat mayonez istifadə edilməyəcəyi təqdirdə daha faydalıdır. Bu tərəvəz soyuyanda tərkibindəki liflər daha asan həzm edilir.

Armud:
Armudun bütün növləri liflərlə zəngin, kaloridən kasaddır. Bu meyvəni səhər, günorta, axşam yeməyində belə yeyə bilərsiniz. Tərkibindəki antioksidantlar sayəsində qarın bölgəsindəki yağları asanlıqla yandıracaqsınız.

Çay:
Çayın arıqladıcı xüsusiyyəti elmi araşdırmalarla təsdiqlənib. Xüsusilə yaşıl çayı bu sahədə faydası danılmazdır.



# RƏNGLƏMƏYİ BACAR

Əziz analar, əgər uşaqlarınız azyaşlıdırsa onda bu rubrikamız məhs sizlərə aiddir. Asudə vaxtlarınızda uşaqlarınızı rəng çalarlarına və onlarldan düzgün istifadə qaydalarına öyrədə bilərsiniz. Aşağıda göstərilən şəkilləri hazır şablondakı kimi rəngləyərək, uşaqlarınızın rəngləri qavrama qabiliyyətini artıra bilərsiniz.



*Şəkil – 1*



*Şəkil – 2*

# BİR YERDƏ TAPAQ



Əziz uşaqlar aşağıda göstərilən şəkillərdə təsvir olunan həşəratların adlarını düzgün taparaq altında yerləşən boş xanada qeyd edin.



























# ŞILTAQ SENDVİCLƏR

Əziz xanımlar, balaca uşaqlarınızı yedizdirməyə çətinlik çəkirsinizsə onda bizim sizlərə təqdim etdiyimiz şıltaq qəlyanaltılardan istifadə edə bilərsiniz. Bu sendviçləri çox asan və tez hazırlanmaq mümkündür, sadəcə azacıq səbr və çoxlu fantaziyanızdan istifadə etsez uşaqlarınızın şıltaq xasiyyətini ram edə bilərsiniz.





















# MƏDİNƏ GÜLGÜN

## SƏN ANAMIN ANASISAN

Sən aramasan, köməyimsən,
Sən çırpınan ürəyimsən,
Sən həmişə gərəyimsən,
Mən damlayam, sənsə ümman,
Ay ümidim Azərbaycan.

Sən anamın anasısan,
Şeir, sənət dünyasısan.
Həyatımın mənasısan
Sənə canım, gözüm qurban,
Ay ümidim Azərbaycan,

Arzularım dəniz-dəniz,
Nəğmələrim nəhayətsiz...
Öz balandır Bakı Təbriz,
Hər ikisi sənin arxan.
Ay ümidim Azərbaycan.

Sən dünyamsan, sən nurumsan,
Fikrim, zəkam, şüurumsan.
Sən yenilməz qürurmsan!
Günəş kimi nəğməmdə yan,
Ay ümidim Azərbaycan.

# MƏMMƏD ARAZ

## AZƏRBAYCAN-DÜNYAM MƏNİM

Azərbaycan - qayalarda bitən bir çiçək,
Azərbaycan - çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan - mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" - deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin bəbəklərində
Qütb ulduzu, dan ulduzu gözəlləridir.

İllər olub - kürrələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od göləndə, buz çöləndə gəmi olmuşuq,
Biz Bakının ilk səadət carçılarıyıq.

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası,
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca Şərqin duman dünyası.

Azərbaycan - mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

# ÖZÜN YARAT

Əziz xanımlar “Özün yarat” rubrikamızı davam etdiririk. Bu dəfə evinizdə olan adi əşyalardan, eyni zamanda çox asan hazırlanan maraqlı gül qabı düzəldə bilərsiniz. Bunun üçün hər bir xanımın evində olan karton kağızdan, kətan kəndirdən, alüminium məftildən, taxta çubuqlardan və yapışqandan istifadə edə bilərsiniz. Aşağıda təqdim olunan şəkillərə əsasən əvvəlcə lazım olan detalları hazırlayın sonra həmin detalları bir biri ilə kətan kəndir vasitəsilə birləşdirin. Sonda hazırladığınız qabın içərisini güllər və ya başqa maraqlı əşyalarnan bəziyə bilərsiniz.











